RASİONALİZM



# ƏQLANİLİK

## İSLAMI TƏHRİFƏ APARAN YOL

SAHİB ƏSƏDOV

Elmi Araşdırma

# ƏQLANİLİK

## İSLAMI TƏHRİFƏ APARAN YOL

Müəllif: Sahib Əsədov

Mədinə. 2024.

بسم الله الرحمن الرحيم

# *Ön Söz*

*Həmd olsun aləmlərin Rəbbi olan Allaha! Allahın salavatı və salamı olsun peyğəmbərlərin sonuncusu Muhəmmədə, onun ailəsinə və səhabələrinə!*

Sonra isə haqqında bəhs edəcəyimiz mövzunun əhəmiyyətindən danışmaq istərdim. Həqiqətən də, müasir İslam dünyasında "Əqlanilik" cərəyanının mənfi təsirləri olduqca böyükdür. Bu mənfi təsirlər istər müsəlmanların ümumi dini məsələlərə yanaşmalarında, istər ibadətlərində, istər əxlaqi və mənəvi durumlarında istər ictimai, istər iqtisadi, istər də siyasi olsun, həyatın bütün sferalarında öz mənfi təsirlərini büruzə verməkdədir. Ağıl mövzusu əhəmiyyətlidir, ancaq ağlı şəriətə tabe etdirmək ondan da əhəmiyyətlidir. Bu mövzuda alimlərdən əzbərimdə saxladığım ən gözəl izah düşünürəm ki, bu qısa izahdır: *"Din nəqllədir və ağılla deyildir. Ağlın vəzifəsi dini başa düşməkdir. Ağlın vəzifəsi dində qanunlar qoymaq deyil"*[1]. Bu üç cümlə ağlın dindəki yeri haqqında eşitdiyim ən qısa əzbərləyə biləcəyimiz qaydadır. İslam alimlərinin gəlib getmiş bütün rəbbani alimləri demək olar ki, bu mövqeni müdafiə etmişlər. İmam Əlinin (Allah ondan razı olsun) bu mənada sözü çox məşhurdur: "Əgər din rəylə (ağılla) olsaydı, məshi ayağın (xüffün) üstünə deyil, altına çəkmək daha üstün olardı"[2]. İnsanların ağıllarının müxtəlif olması,

[1] Silsilətul-Hudə vən-Nur. 246-cı kaset. İmam Nasiruddin əl-Albani.

[2] Ovnul-Məbud. Əzimabadi. Əbu Davudun şərhi. 1/139; Sünən Əbi Davud. 162; Nəsai "Sünən əl-Kubra. 119; Müsnəd. Əhməd. 137.

müxtəlif ağılların dini dəlillərə müxtəlif yanaşması və bu müxtəlif ağılların idrakının, qavramasının məhdud olduğu üçün ağıl şəriəti ölçən tərəzi (meyar) ola bilməz və ya özündən şəriət icad edə bilməz. Şəriət yalnız uca Allah tərəfindən qoyulmuş ilahi qanunlarla təyin edilə bilər.

Kitabda sorğulanan mövzulardan bəzilərinə gəldikdə isə "Əqlanilik" nə deməkdir? Bu cərəyanın tarixi nədir? Tarix boyu əqlaniliyin ən bariz təbliğatçıları kimlər olmuşlar? Onların zərərli fikirləri nələrdir? Onların bəzi şübhələrinə cavablar və s. olacaqdır.

Ümumiyyətlə, ağlın İslamdakı yerini, məqamını, həmçinin ağlın dəlillər arasındakı yerini, məqamını bilmədən din haqqında fikirlər irəli sürmək bir çox insanlarda görülən bir haldır. Bir çox insanlar hələ də dindəki ixtilaflara məhz ağılların müxtəlif olmasının səbəbkar olduğunu bilmir ya da fikir vermirlər. Özünü dinə və dindarlığa nisbət edən bir çox insanların dində tabeçilik məsələsində yol verdikləri xeyli boşluq olan məsələlər var. Dindar olmayan insanların belə dinə öz əqli, fəlsəfi yanaşmaları nəticəsində hansı xətalara düşdükləri çox zaman fərqinə varılmayan məsələlərdən biridir. Dini mövzulara əqli yanaşma necə olmalıdır? Dində əsas meyar və mənbə nədir? Dini mövzularda ağıla hansı sərhədlərə kimi etibar oluna bilər? Bu suallar çox mühüm suallardır.

Kitabda "Əqlaniliyin tarixi" haqda lap əvvəldən məlumat verməzdən öncə ağılın şəriətdəki yeri haqqında bəhs etməyi daha uyğun hesab etdiyim üçün bu tərtibata riayət ediləcəkdir.

Bir çoxları elə bilirlər ki, əqlanilər ağıla ilk gələn fikri müdafiə edirlər, lakin bu elə deyil. Onlar əslində şəriət dəlillərini bir kənara qoyub, etibarsızlaşdırıb, onun yerinə insan ağlını bir qaynaq, mənbə olaraq qoymaq istəyirlər.

Bu mənada təhlükənin nə qədər böyük olması görünür. Aydın olur ki, əqlanilər bizi Allahın kitabına və peyğəmbərin (Allahın ona salavatı və salamı olsun) sünnəsinə bağlı olmaqdan ayırıb beynimizi, əqlimizi dini mənbə olaraq qəbul etməyə sövq etmək istəyirlər. Bu isə dini təhrif etməyin elə özüdür. Bununla da bəşəri nəzəriyyələri ilahi hökmlər üzərində hakim etmək nəzərdə tutulur. Bunu isə nə bir sağlam ağıl sahibi, nə də heç bir müsəlman qəbul etməz.

"Elmi Terminlər Lüğəti"ndə[3] bildirilir ki, əqlanilikdən - başqa adı ilə "Rationalism = İntellectualism" - qəsd olunan onun ümumən fəlsəfi bir məzhəb olmasıdır. Hansı ki, bu məzhəb mövcud olan hər bir şeyi əqli təməllərə qaytarır. Bununla xüsusi olaraq qəsd edilən - haqqında danışmaq istədiyimiz mövzu - din əleyhinə ağıla güvənmək, dini mənaları yalnız (zahirdəki) məntiqi əsaslara və fitri nura (Lumiere Naturelle) uyğun gəldiyi zaman qəbul etməkdir.[4]

Bu mövzudan danışarkən Qərb dünyasındakı əqlanilik və onun dini məsələlərə təhlükəli yanaşmaları da gözardı edilə bilməz.

Allahdan istəyirəm ki, bu mühüm mövzuda yazıb cəm etdiyimiz kitabı müsəlmanlara və qeyri-müsəlmanlara faydalı etsin! Ümid edirəm ki, bu kitab Azərbaycan dilində bu mövzuda edilmiş araşdırmalar zamanı da istifadə edilən faydalı bir mənbəyə çevriləcəkdir! Müvəffəq edən Allahdır!

*Mədinə şəhəri. 2024.08.24.* *Yazdı: Sahib Əsədov.*

---

[3] Yusif əl-Xəyyatın müəllifi olduğu ərəbcə olan lüğət kitabı qəsd edilir.

[4] əl-Aqləniyyə. Hidəyə əm Ğivayə Abdussələm əl-Bəsyuni. səh. 10.

# Ağılın lüğəvi və istilahi mənası

## • Ağılın lüğəvi mənası:

"Ağıl" ərəb sözü olub kökü "əql" sözündəndir. Ağıl (əql) ona görə deyilib ki, o öz sahibini layiq olmayan işi görməsinə maneçilik törədir[5].

Ağıl sözünün əsli "mane olmaq, həbs etmək" mənasındadır. Aqil kimsə məzəmmət olunmuş sözdən və feildən özünü həbs edən, tutan kimsədir[6].

Ağıl (əql) sözünün əsas mənalarından biri də onun cahilliyin əksi olaraq istifadəsidir. Ağıllı kişi, gözəl anlayış qabiliyyəti olan, geniş ağıl sahibidir[7].

Ağıl ona görə deyilib ki, o öz sahibinin həlak olmağa aparan yollara düşməyinə mane olur.

## • Ağılın terminoloji mənası:

**Ağıl dörd mənanı əhatə edir**, bunlardan:

**Birincisi:** İnsanda olan bir daxili meyil (hiss) olub onu digər canlılardan ayırır. Onunla bilir, onunla düşünür, onunla fərqləndirir, faydalara yönəlib zərərli şeyləri tərk edir.

**İkincisi:** Bütün ağıl sahiblərinə şamil olan – mümkün olan, mümkün olmayan və vacib olan şeylər haqqında - zəruri bilgilərdir.

**Üçüncüsü:** Nəzər yetirmək, dəlil gətirmək və təcrübə əldə etməyi hasil edən nəzəri elmlərdir; İnsanların bu məsələdə fərqli olmaları aşkardır.

---

5 Bax: Tacul-Arus. 30/19-20.
6 Bax: İbn Faris. Məqayisul-Luğat. 4/69.
7 Bax: Mucəmul-Udəbə. 11/72-77.

**Dördüncüsü:** Allaha iman, onun kitablarını, elçilərini təsdiqləmək, əmrlərini yerinə yetirib qadağalarından çəkinmək kimi elmin lazımlı etdiyi - nəfsi itaətlərə həbs etmək, onu günahlardan tutmaq kimi - əməllərdir. Elə bu mənada cəhənnəm əhli deyəcəkdir: *"Əgər biz dinləsək və ağıl etsəydik (anlasaydıq) alovlu od sakinlərinin içində olmazdıq". (Mülk. 10).*

Şeyxülislam ibn Teymiyyə (Allah ona rəhmət etsin) demişdir: "Allahın kitabında, elçisinin sünnəsində, səhabələrin, tabeinlərin və müsəlmanların başqa imamlarının sözlərində ağıl – istər vəsf (sifət), istərsə də fenomen adlansın – o var olan bir məfhumdur. İstər o cövhər adlandırılsın, istər cism və s"[8] [9].

Əqlanilər bir çox insan təbəqələrini cəzb edən bir tayfadırlar, ələlxüsus da özlərini mədəni, intellektual adlandıran bir qism insanları daha çox cəzb edə bilirlər. Bu ona görədir ki, əqlani cərəyanı özləri haqqında bilgili olmayan və onların həqiqətini bilməyən, onların hiyləsinə diqqət yetirməyən insanları öz tələlərinə salırlar. Hətta onlardan kimisi özünə əqlani desə də, deməsə də, mücərrəd olaraq "əqlani" sözü işlədildiyi zaman belə bu mövzudan xəbəri olmayan bir kimsə elə zənn edə bilər ki, bu yaxşı bir sözdür və ya onlar sadəcə ağıla yüksək dəyər verən, düşüncəni saflaşdırmağa çağıran və xurafatlardan uzaq durmağa çalışan insanlardır. Bir çoxları məhz bu yanlış mənadan yola çıxaraq bu azğın cərəyanı tanımaqda çətinlik çəkir. Çünki onlar "əqlanilik" deyildikdə nə qəsd edildiyini və bu tayfanın din daxilində yol verdiyi təhrifləri bilmirlər. O zaman əqlanilik haqqında daha aydın

[8] Məcmuul-Fətəva. 9/271.

[9] Movqıful-İtticəh əl-Aqləni əl-İsləmi əl-Muasır minən-Nass əş-Şər`i. Dr. Səd əl-Uteybi. səh. 34.

başa düşəcəyimiz bir tərifi deyirik: "Əqlanilik: hər məsələdə ağlın hökmünə tabe olmaq, hər bir şey üçün yeganə meyar olaraq onu təyin etmək, onu hər bir şeyin təməli hesab etmək, hər bir şeyin ağlın idrakına, seçməsinə, qiymət və hökm verməsinə ehtiyacı olduğunu, yer üzündə bundan kənara heç nəyin çıxmadığını, nə də səmalarda bundan heç nəyin istisna olmadığına inanmaqdır"[10].

## Ağılın İslamdakı yeri

İslamda ağıla böyük dəyər verilir. Ağılın bu dində xüsusi yeri var. Ağıl aşağılanmır, ağıl bir kənara atılmır. Lakin ağıl vəhyə nisbətdə olması gərəkən həqiqi yerinə qoyulur. Ağılları yaradan onun layiqli yerini də bilir və ona layiq olduğu yeri vermişdir. Layiq olduğu yerdən nə aşağı, nə də yuxarı qalxa bilməz.

Qurani-Kərimdə bir çox ayələrdə ağıl ilə vəsf olunanlar təriflənmişlər istər bu birbaşa ağıl sözü ilə gəlsin, istərsə də onun sinonimləri - əlbəb, əhləm, əl-hicr, ən-nuhə - olsun. İstərsə də bu ağılın gördüyü işlə – təfəkkür, düşünmək, xatırlamaq, baxmaq, ibrət almaq, anlamaq və s. – bağlı olsun.

Buna ağıl vəsfini, ağıl sifətini itirmiş kimsələrin məzəmmət edilməsi haqqında ayələri də əlavə etmək olar[11].

Ağıl haqqında Qurani-Kərimdə varid olmuş ayələr əsasən bu mənaları ifadə edir:

1 – Allah insanı başqa yaradılmışlardan fərqləndirən

---

[10] ət-Təyyəratul-Vafidəti va Movqıful-İsləm minhə. Prof. Mahmud Muhəmməd Məzruah. Əzhər və Ummul-Qura universitetlərində əqidə və dinlər üzrə müəllim. səh. 183. Əqidə və dinlər haqqında araşdırmalar silsiləsi: 4; darul-Kutub əl-Mısriyyə. Qahirə. 2019.

[11] əl-Ədillətul-Aqliyyətin-Naqliyyəti alə Usulil-İtiqad. Suud əl-Ureyfi. səh. 35. "Aləmil-Favaid" nəşr evi. Məkkə. 1-ci nəşr. 1419-cu hicri il.

ağıl nemətini ona lütf etmiş, onu hörmətli edərək buyurmuşdur: "Biz Adəm oğullarını hörmətli etdik, onları quruda və dənizdə minik üstündə daşıdıq, onlara pak ruzilər verdik və onları yaratdıqlarımızın çoxundan xeyli üstün etdik". (əl-İsra. 70).

əl-Qurtubi bu ayədəki üstünlüyə izah verərkən təfsir alimlərinin sözlərini qeyd etdikdən sonra demişdir: "Doğru olan odur ki, üstünlük insanın mükəlləf olmasının əsası olan ağıl vasitəsilədir. Ağıl vasitəsilə Allah tanınır, onun kəlamı başa düşülür, onun cənnətinə çatmaq mümkün olur, elçiləri təsdiqlənir. Yalnız o zaman ki, qul ağılla qəsd edilən bütün istəklərinə çatmadı, o zaman elçilər göndərildi və kitablar nazil edildi"[12].

2 – Allah ağıla dində mükəlləfiyyət öhdəliyini vermiş və qula hüccətin qalxmasını ağıl ilə əlaqələndirmişdir. İnsandan ağıl getdiyi zaman isə bu mükəlləfiyyət aradan qalxmış olar. Allahın elçisi (Allahın ona salavatı və salamı olsun) buyurmuşdur: "Üç kimsədən qələm qaldırılmışdır: yatandan - oyanana kimi, uşaqdan- böyüyənə (yetkinlik yaşına çatana) kimi, dəlidən isə ağlı yerinə gələnə kimi"[13].

3 – Qurani-Kərimin bir çox ayətlərində uca Allah yaradılışa nəzər yetirməyə, bu haqda düşünməyə, təfəkkür etməyə və buna diqqət yetirməyə yönəltmişdir. Uca Allahın bu ayəsində olduğu kimi: "Allah Öz ayələrini sizə belə bəyan edir ki, bəlkə, ağıl edəsiniz (anlayasınız)". (əl-Bəqərə. 242). Digər ayədə buyurur: "Allah ölüləri bu cür

[12] əl-Cəmiu li-Əhkəmil-Quran. əl-Qurtubi. 10/294. Beyrut nəşri.

[13] Sünən Əbi Davud. 4400; Sünən İbn Macəh. 2041; Sünən Tirmizi. 1423. İmam Əhmədin "Müsnəd" əsəri. 1/116. Albani. "Səhihul-Cami". 1-659. No: 3512-3514.

dirildir və Öz ayələrini sizə göstərir ki, bəlkə, ağıl edəsiniz (anlayasınız)". (əl-Bəqərə. 73). Digər bir ayədə isə: "Biz ayələri düşünən bir qövm üçün beləcə izah edirik". (Yunus. 24) – deyə buyurmuşdur.

4 – Uca Allah ata-babalarının üzərində olduğuna tabe olub ağıllarını işlətməyənləri məzəmmət edərək buyurmuşdur: "Onlara: "Allahın nazil etdiyinə tabe olun!" – deyildikdə onlar: "Xeyr, biz atalarımızın tutduğu yolla gedəcəyik!" deyirlər. Bəs, ataları heç bir şey anlamamış və doğru yolda olmamışlarsa, onda necə?! Kafirlərin və onları haqqa çağıran kimsənin misalı, çığırtı və bağırtıdan başqa bir şey anlamayan heyvanlarla onları haylayan çobanın misalına bənzəyir. Onlar kar, lal və kordurlar. Odur ki, haqqı ağıl etməzlər (anlamazlar)". (əl-Bəqərə. 171-172).

5 – Şəriət ağılın himayəsinə, ona zərər verən və onun işini fəaliyyətdən salan hər şeydən onu qorumağa diqqət göstərmişdir; Ona görə də şəriət içkini, ağılı başdan alan şeyləri, narkotik maddələri insan ağlına pis təsir etdiyi üçün haram etmişdir. İçki sözü ərəbcə ona görə "xamr" adlanıb ki, o insanın ağlını örtür[14]. Uca Allah buyurmuşdur: "Ey iman gətirənlər! Şübhəsiz ki, sərxoşedici içki də, qumar da, tapınmaq məqsədilə dik qoyulmuş daşlar da, fal oxları da şeytan əməlindən olan murdar şeylərdir. Bunlardan çəkinin ki, bəlkə, nicat tapasınız". (əl-Maidə. 90).

İslam dininə görə başqasını vurub ağlının getməsinə səbəb olan kimsənin tam şəkildə diyət (qanbahası)

[14] Movqıful-İtticəh əl-Aqləni əl-İsləmi əl-Muasır minən-Nass əş-Şər`i. Dr. Səd əl-Uteybi. səh. 36. 3-cü nəşr. 1443-cü hicri il. ər-Riyad.

ödəməsi lazımdır. Bir çox alimlər bu haqda icma olduğunu nəql etmişlər[15].

6 – İslam dini sağlam ağılların inkar etdiyi xurafatlara və mövhumatlara qarşı mübarizə aparır; bunlardan bir şeyi uğursuzluğa (nəhsə) yozmaq, işin uğurlu olub-olmayacağını bilmək üçün quş uçurtmaq, kahinlik, falçılıq etmək, cadugərlik etmək və s. ağıla zidd olan batil əməlləri sadalamaq olar. Bunlara dəlillərdən biri də peyğəmbərin (Allahın ona salavatı və salamı olsun) bu sözüdür: "...quş uçurmağın uğurlu olmasına inanmaq olmaz"[16]. Həmçinin *"Kim bir falçının yanına gedib ondan bir şey soruşarsa, onun qıldığı namaz qırx gün qəbul olmaz"*[17].

7 – Sağlam əqli dəlil mötəbər şər`i dəlil hesab edilir; O Quran və sünnədən olan (səm`i dəlilin) bir hissəsi sayılır. Şəriət dəlili ona da şamil olunur[18].

8 – İslamda ağılın öz yeri, məqamı və etibarı olsa da, onun sərhədləri dardır, istifadə edildiyi sahələr məhduddur[19].

---

15 "əl-İcma". İbnul-Munzir. Təhqiq: Fuad Əbdül-Mun`im. səh. 72. "əl-Müslim" nəşr evi. ər-Riyad. 1-ci nəşr. 1425-ci hicri il.; "əl-Muğni". İbn Qudamə. Təhqiq: Abdulla ət-Türki və Əbdül-Fəttah əl-Hulv. 12/15. "əl-Hicr" nəşr evi. Qahirə. 1410-cu hicri il.

16 Səhih əl-Buxari. Tibb kitabı. 5757; Səhihi Müslim. Salam kitabı. 2220.

17 Səhihi Müslim. Salam kitabı. Kahinliyin qadağan olması fəsli. 2230.

18 Prof. dr. Saleh Sindi. Məalim fi Mənzilətil-Aqli ində Əhlis-Sünnə vəl-Cəmaat. səh. 7. Kitabçanın əsası bu alimin "Ağılın İslamdakı yeri" haqda olan mühazirəsindən götürülmüşdür.

19 Öncəki mənbə. səh. 14.

## Əqli dəlilgətirməyə münasibətdə üç fərqli mövqe

Əhli Sünnə əqli dəlilgətirmədə iki tərəf arasında orta mövqedədir.

**Birinci tərəf:** o kəslərin mövqeyidir ki, onlar əqli hər şeydən öncəyə çəkir və bütün məsələlərdə əqli əsas təməl prinsip hesab edirlər. Bununla da onlar əqli şəriətdən önə çəkmiş olurlar.

**İkinci tərəf:** o kəslərin mövqeyidir ki, onlar əqli dəlillərdən bütünlüklə üz çevirirlər, əqli dəlilləri məzəmmət edirlər, zahirinə müxalif olurlar, əqli dəlillərə mütləq şəkildə tənə edirlər.

**Əhli Sünnə** iki tərəf arasında orta mövqedədir[20]. Onlar elmləri öyrənməkdə, əməllərin doğruluğu və kamilliyində əqli şərt görürlər. Ona görə də əqlə müxalif olan rəylər batildir. Uca Allah Qurani-Kərimi ağılla dinləməyi, tədəbbür etməyi əmr edərək buyurmuşdur: "Məgər onlar Quranı düşünmürlərmi?" (ən-Nisa. 82). Həmçinin buyurmuşdur: "Məgər kafirlər bu söz haqqında düşünmürlərmi? Yaxud onlara ulu babalarına gəlməyən bir şey gəldi?" (əl-Muminun. 68). Deməli, ağıl Allahın qullarına olan hüccətini idrak edəndir.

Eyni zamanda (onlar haqlı olaraq) hesab edirlər ki, ağıl öz-özlüyündə müstəqil deyil. Əksinə, ağılın da şəriətə ehtiyacı vardır. O baxımdan ki, ağıl nəfsdə olan bir daxili hiss və qüvvədir. Bu, göz orqanında olan görmə qüvvəsinin misalındadır. Əgər ağılla iman və Quran nuru birləşərsə, bu, gözün nurunun günəş və ya odun işığı düşdüyü zaman

[20] Movqıful-İtticəh əl-Aqləni əl-İsləmi əl-Muasır minən-Nass əş-Şər`i. Dr. Səd əl-Uteybi. səh. 37.

nurlanması (görməsi) misalına bənzəyər. Əgər ağıl təkbaşına qalarsa, təkbaşına məsələləri görə bilməz, hansı ki onun özü təkbaşına o məsələləri dərk etməkdən aciz qalır"[21].

**Buna əsasən də Əhli Sünnə mənsubları əqli dəlillər gətirirlər, lakin bu dəlilgətirmə mütləq deyil, bu dəlilgətirmə metodiki əsaslar üzərində qurulmuşdur. Həmin əsaslar bunlardır:**

1 – Əqli dəlilin şəriətə uyğun dəlil olması labüddür.
2 – Bütün dəlillərin əsası Quran və Sünnədir.
3 – Şəriət dəlilləri sağlam ağıla zidd deyildir.
4 – Elə bir şəriət məsələsi yoxdur ki, ona şəri dəlil gətirilməsin. (Buna nəqli və əqli dəlillər də daxildir).

İndi isə gəlin bu qeyd edilən məsələlərin bir qədər təfsilatını verək:

**Birincisi: Əqli dəlilin şəriətə uyğun dəlil olması labüddür.**

Şəriət dəlili: Allahın əmr etdiyi və ya işarə etdiyi və ya icazə verdiyi dəlildir.

Bununla da bilinir ki, şəriət dəlili üç qismdir:

**Birincisi:** Şəriətin təsdiqləyib özüylə gətirdiyi, yalnız eşitmək və nəql yoluyla bilinən, ağıl yolu ilə bilinməyən şər`i, səm`i (eşitməklə bilinən) dəlildir. Buna mələklər, Ərş, əqidə məsələlərinin təfsilatları, əmr və qadağaların təfsilatlarını aid etmək olar. Bu cür xəbərləri ancaq peyğəmbərlər yoluyla bilmək mümkündür.

**İkincisi:** Şəriətin göstərdiyi, diqqət yetirdiyi, ona tərəf əqli dəlillər və misallar çəkməklə yönəltdiyi dəlillər. Bu,

---
[21] Məcmuul-Fətəva. 3/338.

şər`i, əqli dəlildir. Bunun misalı kimi tövhidin isbatı, şirkin inkarı, nübüvvətin (peyğəmbərliyin) və öldükdən sonra dirilmənin isbatı haqda dəlilləri qeyd etmək olar.

**Üçüncüsü:** Şəriətin icazə verdiyi və məqbul hesab etdiyi; Buna doğru və təsdiqlənmiş peyğəmbərin (Ona Allahın salavatı və salamı olsun) xəbər verdikləri, Quranın yönəltdiyi və diqqət yetirdiyi, varlıqların özünə yönəltdiyi və təcrübə ilə bilinən şeylər daxildir. Buna misal kimi təbabət, hesab kimi dünyəvi məsələlər, fəhləlik və ticarət məsələləri daxildir.

Dəlilin şərtindən deyil ki, kimsə mütləq onu gətirməkdə hər kəsi qabaqlamalıdır. Yalnız mühüm olan bu dəlilin elmə və yəqinliyə çatdırmasıdır. Şeyxülislam İbn Teymiyyə (Allah ona rəhmət etsin) bu mənaya diqqət çəkərək demişdir: "Göstərilən mənaya dəlalət etməsi üçün dəlilin şərtindən deyil ki, kimsə onu (öncədən) dəlil gətirməlidir; Əksinə, əgər onun özü doğru şəkildə nəzər yetirmə yoluyla elmə çatdırarsa, - heç kim bunu dəlil gətirməsə belə - o, dəlil sayılar. Bunun kimi Qurani-Kərimin ayələri dəlil və bürhandır. Peyğəmbər bu ayələri dəlil kimi gətirib ya yox, buna baxılmır. Bir şeyə dəlalət etməyən şey dəlil kimi gətirilsə belə o dəlil sayılmaz. Dəlil olmayan bir şey hansısa bir iddiaçının iddiasına görə dəlilə çevrilə bilməz"[22].

**Bu bilindikdən sonra aydın olur ki, şəriət dəlili qeyd olunanlarla vəsf olunur:**

a) Şəriət dəlili yalnız haqdır; O baxımdan ki, onun şəriətlə bağlı olması tərifli bir vəsfdir.

[22] ən-Nubuvvət. İbn Teymiyyə. səh. 114. əl-Kutub əl-İlmiyyə nəşriyyatı. Beyrut. 1405-ci hicri il.

b) Şəriət dəlili başqa dəlillərdən önə çəkilir; Şəriət dəlili haqqında icazəli deyil ki, qeyri şəriət dəlili onunla qarşı-qarşıya qoyulsun. Çünki Allahın şəriəti başqasının şəriətindən önə çəkilir.
c) Şəriət dəlili bəzən səm`i[23], bəzən isə əqli olur.
d) Şəriət dəlilinin qarşısında qeyri şəriət dəlili və ya bidət (dində yenilik, təhrif) olan dəlil dayanır. Bidət olan dəlil məzəmmət olunan bir vəsfdədir. Bu zaman bidət olan dəlil əqli dəlil olduğu üçün şəriət dəlilinin qarşısında dayanmış sayılmır, elə bidət (dində yenilik, təhrif) dəlili olduğu üçün onun qarşısında dayanmışdır.

Əgər bu bilinərsə, dəlil gətirmədən öncə vacib olan şəriət dəlillərini tanımaq – hansı bu dəlillərdən sayılır, hansı isə sayılmır – bunu bilmək lazımdır. Çünki bəziləri şəriət dəlillərindən olan bəzi dəlilləri bu mənadan çıxarır, bəziləri isə şəriət dəlillərini əqli dəlillərin bir parçası hesab edir[24].

## İkincisi: Bütün dəlillərin əsası Quran və Sünnədir.

Allahla bağlı məsələlərdə və dini bilgilərdə möminin üzərinə vacib olan danışdığı hər məsələni Allah və onun elçisinin (Allahın ona salavatı və salamı olsun) sözünə uyğun etməkdir. Çünki bu mövzuların götürülmə yeri Allahın elçisidir (Allahın ona salavatı və salamı olsun), Allahın elçisi isə (bu mövzularda) insanların ən savadlısı, insanları öyrətməkdə ən çox rəğbətli olanı və bu bilgiləri bəyan etməyi və öyrətməyi ən çox bacarandır; Elə isə o,

[23] Peyğəmbərlərdən gələn, eşidilən dəlil və yaxud bu ümmət üçün Quran və sünnədən olan dəlil.
[24] Movqıful-İtticəh əl-Aqləni əl-İsləmi əl-Muasır minən-Nass əş-Şər`i. Dr. Səd əl-Uteybi. səh. 37.

dini elmdə, iradə və gücdə bütün insanlardan üstündür. Bu üç məsələ ilə məqsəd tamamlanır. Bu elçidən (Allahın ona salavatı və salamı olsun) başqa hər kəsin ya dini elmində naqislik və fəsad var və ya onlar bu elmdəki bilgilərini bildirməmək üçün bildiklərini də bəyan etməyiblər – ya bir şeyə rəğbətlərindən və ya qorxularından və ya başqa qəsdlərindən dolayı – ya da onların (dini) bəyan etmələri naqisdir.

Bu elçidən (Allahın ona salavatı və salamı olsun) gələn bilgi, onun təbliğ etdiyi haqla batil, hidayət və zəlalət arasında bir furqandır (ayırdedicidir), o səadət və nəcat yoludur, o tabe olunması gərəkən haqdır, ondan başqa bütün insanların sözü onun sözünə ərz edilər, əgər onun sözünə uyğun olarsa, o haqq (doğru) olar, əgər müxalif olarsa, o söz batil olar"[25].

Əgər məsələ bu yerdədirsə, o zaman ağıldan tələb olunan – başa düşməsə belə və ya onda olan hikməti dərk etməsə belə - onun açıq-aydın şəriət dəlilinə tabe olmasıdır. Çünki şəriəti təyin edən Allah insanlar üçün üzrxahlıq olsun deyə insanları həlak yollarından qoruyan hər bir şeyi qəti dəlillərlə bəyan etmişdir. Bunun bəyanından sonra heç kəsin hüccəti qalmaz. Uca Allah buyurmuşdur: "Allah bir qövmü doğru yola yönəltdikdən sonra qorxub çəkinməli olduqları şeyləri özlərinə xəbərdar etmədən onları haqq yoldan sapdırmaz. Həqiqətən, Allah hər şeyi biləndir". (Tövbə. 115). Başqa bir ayədə isə belə buyurmuşdur: **"Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq İslamı bəyəndim".** (əl-Maidə. 3).

"Buna bənzər ayələr Qurani-Kərimdə çoxdur, hansı ki orada Allah öz kitabının dinin hamısı üçün bəyan edən,

[25] Məcmuul-Fətəva. 13/135-136.

hidayət yolunu izah edən, tabe olan kimsəyə kifayət edən, onunla yanaşı başqasına ehtiyac duyulmayan, açıq-aydın bir kitab olduğunu bəyan edir. Bu kitaba başqa yollara baxılmadan tabe olmaq vacibdir"[26].

Bunun bənzəri sünnədə də çoxdur. Bunlardan biri Əbu Zər əl-Ğifarinin bu sözüdür: *"Allahın elçisi (Allahın ona salavatı və salamı olsun) bizi tərk etdiyi zaman göydə qanad çalan quş haqqında belə bizə bir elm vermişdi".* Peyğəmbər (Allahın ona salavatı və salamı olsun) buyurmuşdur: "Cənnətə yaxınlaşdıran və cəhənnəmdən uzaqlaşdıran elə bir şey qalmayıb ki, sizə bəyan edilməsin"[27].

**Üçüncüsü: Şəriət dəlilləri sağlam ağıla zidd deyildir.**

Şeyxülislam ibn Teymiyyə (Allah ona rəhmət etsin) demişdir: "Müsəlmanlar dinlərinin hamısını – etiqadlarını, ibadətlərini və s. – Allahın kitabından, elçisinin (Allahın ona salavatı və salamı olsun) sünnəsindən, ümmətin sələflərinin və imamlarının ittifaq etdiyi şeylərdən götürürlər. Bu, aşkar ağıla müxalif bir şey deyil; Çünki aşkar ağıla müxalif olan bir şey batildir. Quranda, sünnədə və icmada batil yoxdur. Lakin bunlarda bəzi insanların anlaya bilmədiyi və ya batil mənada anladıqları sözlər ola bilər. O zaman müsibət – Quran və sünnədən deyil - onların özlərindən qaynaqlanır"[28].

Nə zaman ki zənn edən kimsə öz qüsurlu ağlı ilə şəriət

---

[26] Dər`u Təarudil-Aqli bin-Nəql. İbn Teymiyyə. 10/304.

[27] Təbərani. "Mucəmul-Kəbir". 3/155; Əhməd. "Müsnəd". Əbu Zərin sözü. 5/162. Albani. "Səhih Hədislər toplusu". 4/416.

[28] Məcmuul-Fətəva. 11/490.

dəlili ilə ağıl və ya "elmi həqiqət" adlandırılan dəlil arasında ziddiyyət olduğunu zənn edər, bu, qarşıda qeyd edilən səbəblərə qaytarılır: "Bu ya dəlilin özündən hüccət olaraq gətirilən mənanın fəsadlı olmasına, ya hüccət olaraq gətirilən dəlilin məsumdan (xətadan qorunmuş) sabit olmayan bir dəlil olmasına, yaxud zənn edilən şeyə dəlil olmamasına, yaxud da – şər`i və ya əqli cəhətdən –hüccət gətirərək müqayisə (qiyas) edilən mənanın müqəddiməsinin bəzi hissələrinin və ya hamısının fəsadlı olmasına görədir - necə ki bir-birinə bənzəyən mücməl (ümumi) sözlərin müqayisəsi (qiyası) zamanı belə hallar baş verir"[29].

**Dördüncüsü: Elə bir şəriət məsələsi yoxdur ki, ona şəri dəlil gətirilməsin. (Buna nəqli və əqli dəlillər də daxildir).**

Dinin kamilliyi onun məsələlərinin kamil olduğu kimi, onun mənalarının kamilliyini də əhatə edir[30]. Bu da uca Allahın bu ayəsinin ehtiva etdiyi mənaya daxildir: "Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq İslamı bəyəndim". (əl-Maidə. 3).

İbn Cərir ət-Təbəri (Allah ona rəhmət etsin) demişdir: "Ey möminlər, bu gün sizin üçün sizə nazil etdiyim fərzləri, sərhədlərimi, sizə olan əmrimi, qadağamı, halalımı, haramımı, həmçinin bu haqda Kitabımda nazil etdiklərimi, elçimin diliylə bəyan etdiyim vəhyimi, dininiz haqqında ehtiyacınız olan bütün dəlillərdən sizə göndərdiklərimi,

[29] ər-Raddu Aləl-Mantıqiyyin. İbn Teymiyyə. 1/373. "Tərcüman əs-Sünnə" idarəsi. Lahor. 2-ci nəşr. 1396-cı hicri il.

[30] Bax: Məcmuul-Fətəva. 3/294 və ondan sonrası.

- bunların hamısını tamamladım. Bu gündən sonra buna əlavə edilməyəcəkdir"[31].

Bunlardan biri də şəriəti təyin edən Allahın ağıl vasitəsilə bütün dəlilgətirmə yollarına işarə etməsidir. Necə ki uca Allah ağıl vasitəsilə hüccət gətirilən dəlilləri bəyan etmişdir. Ümmətin sələfləri və imamları da bunun üzərində olmuşlar"[32].

## Əql ilə nəql arasında əlaqə

Əql (Ağıl) ilə nəqlin əlaqəsi qarşılıqlı dəstək olan bir əlaqədir, ziddiyyət olan bir əlaqə deyil. Əgər deyilsə ki, nəql deyildiyi zaman bununla qəsd olunan Qurani-Kərim və səhih sünnədir, o zaman sağlam bir nəqlin aydın bir əqli dəlilə zidd olmasının qətiyyən mümkün olmadığı aşkar olar. Vəhy və əqlin (ağlın) bir-birinə zidd olması mümkün deyil. Məsələn; elə bir ayət yoxdur ki, ağıl qətiyyətlə onun mümkünsüz olduğunu fərz etsin. Əksinə, bu fərziyyənin özü mümkünsüzdür. O zaman "ağılla təsdiqlənən bir haqq, nəql olunan şəri bir dəlillə qarşı-qarşıya gəlməz, ziddiyyət təşkil etməz". Bu təməl prinsip biz müsəlmanların etiqad etdiyi təməl məsələlərdəndir. Çünki biz etiqad edirik ki:

- Uca Allah öz elçisi Muhəmmədə (Allahın ona salavatı və salamı olsun) Quran və sünnədən ibarət olan vəhyi göndərmişdir.
- Uca Allah ağılları yaratmışdır.
- O zaman mənbə eynidir, ziddiyyət harada ola bilər ki? Ziddiyyət yalnız fəsada və acizliyə düçar olmuş ağıllarda mümkündür. O, fəsadlı, azmış və öz

[31] Cə`miul-Bəyan fi Təvili əl-Quran. İbn Cərir. 9/815. "ər-Risələ" müəssisəsi. Beyrut. 1-ci nəşr. 1420-ci hicri il.

[32] Məcmuul-Fətəva. 3/296.

Rəbbinə qarşı təkəbbürlük edən ağıllara görə nə isə bir ziddiyyət görünə bilər və belə ağılların bu cür iddianı etməsi heç də qəribə deyil. Aciz ağıllar da qüsurlu olduğu üçün şəriət dəlillərində ziddiyyət olduğunu düşünərlər, halbuki reallıq bunun əksidir.

## Bəzi insanlara görə şəriət dəlillərində ziddiyyət görünməsinin səbəbləri:

**Birinci səbəb: Rəvayətin mötəbər olmaması**

Təbii ki, belə bir kimsə Qurana qarşı çıxmır, lakin peyğəmbərdən rəvayət edilmiş hədislərin əqlə (ağla) zidd olmasını iddia edir. Bir insan elm əhlindən olmayan birinin hansısa zahiri ağıla zidd görünən bir söhbətini dinləyir və deyir: Baxın, burada ağılla nəql (rəvayət) bir-birinə zidd gəldi. Lakin biz araşdırma zamanı həmin hədisin peyğəmbərdən (Allahın ona salavatı və salamı olsun) sabit olmadığını öyrənirik! Bu rəvayət ya uydurma yalan, ya da zəifdir. O zaman aydın olur ki, burada bir ziddiyyət yoxdur. Deməli, nəql (rəvayət) sabit deyil. Ziddiyyət iki sabit olan arasında mümkündür. Onu da qeyd etmək lazımdır ki, hədislərin mötəbərlik və zəiflik dərəcəsinin təyin edilməsi adi insanlara aid deyil, bu iş hədis elmində mütəxəssis olan alimlərə aid olan bir işdir[33].

**İkinci səbəb: Şəriətdən olmayan bir şeyin şəriətə nisbət edilməsi**

[33] Məraqi əl-Va`y – Fusul Ta`siliyyə va Tənbihət Alə Məzəliq əl-Fikriyyə. Şeyx prof. Dr. Saleh Sindi. səh. 35. "Yəqin" mərkəzi. 1-ci nəşr. Mədinə. 1445-ci hicri il.

Bəzi insanlar bəzi israiliyyat rəvayətlərinə baxıb elə zənn edirlər ki, bu peyğəmbərin sözündəndir. Həqiqət isə bunun əksidir. Yaxud da bəzi insanlar – ola bilsin ki, qeyri müsəlmanlardan bəziləri – bəzi yolunu azmış dini təhrif edən (bidətçi) təriqətlərin azğın əməllərini haqsız yerə İslama nisbət etsinlər və desinlər: "Baxın, İslam budur!" Həqiqət isə budur ki, İslam onların əməllərindən uzaqdır![34]

**Üçüncü səbəb: "Ağıla görə belədir" iddiasının doğru olmaması**

Bu mövzuda çoxsaylı xətalar baş verir. O baxımdan ki, bəzən hansısa bir kəs iddia edir ki, filan məsələdə ağıla görə belə olmalıdır və ya bu əqli cəhətdən mümkün deyil. Lakin həqiqət isə bunun əksi olur.

O mənada ki, burada "ağıl" adlandırılan məfhum nəzəri bir məsələ olmaq imkanında deyil, xətalı bir iddiadır, bu iddianı irəli sürən şəxs səhvə yol verərək iddiasını "ağıl" adlandırmışdır. Halbuki həmin iddiadakı "ağıl" ilə yanaşma ya yanlış təsəvvür, ya da yanlış bir mənanı təsdiqləməkdir. Çünki həmin təsəvvür və ya təsdiqin özündə yanlış müqəddimələr var. Məsələn, bəzi insanlar "axirətdə əməllərin ölçüləcəyi haqqında" belə deyirlər: bu, ağıla ziddir. Soruşulsa ki, niyə? Çünki əməllər simptomlardır, simptomlar isə ölçülmür! – Bu iddia doğru deyil. Çünki məxluqlar bəzi simptomları ölçməyi bacarırlar. Bu əsrdə biz insanlar Allahın lütfü ilə isti və soyuğun dərəcəsini ölçə bilirik. İsti və soyuq isə simptomlara daxildir. Bunun kimi işığın sürətini də ölçmək mümkündür! İşığın sürəti də simptomlara daxildir. O zaman heç yaradan Allah bizim əməllərimizi ölçməkdən

[34] Öncəki mənbə. səh. 35.

acizmi qala bilər?! Xeyr, əsla!

Bu məqamda alimlərimizdən birinin etdiyi maraqlı bir nəql yerinə düşər. Deməli, bu alimin elm əhli olan yoldaşlarından biri bir tədbirdə iştirak edirmiş. Orada bir nəfər belə deyir: "Buxari və Müslimdə[35] yazıldığı kimi cəhənnəmin (ildə iki dəfə) yayda və qışda iki dəfə nəfəs alması olacaq? Bu mümkün deyil. Necə ola bilər ki, bir şeyin içindən həm isti, həm də soyuq çıxsın?! Alimin dostu deyir ki, mən o suala cavab verməzdən öncə o tədbirdəki sıravi bir müsəlman dedi: "Bunda nə problem var ki? Sonra əliylə kondisionerə işarə edərək dedi: budur kondisioner, qabağından soyuq hava buraxır, arxa tərəfindən isə isti hava buraxır![36]

Deməli, yanlış hökm verərək "bu əqli cəhətdən mümkünsüzdür və ya belədir" demək halları çox baş verir. Bunun səbəbi isə əqlin etdiyi yanlış təsəvvürdir[37].

**Dördüncü səbəb: Əqli cəhətdən mümkünsüz olan və baş verməsi uzaq olan arasında fərq qoymamaq**

- *Əqli cəhətdən mümkünsüz olan,* bir şeyin eyni vaxtda həm mövcud olması, həm də mövcud olmaması, yaxud kiçik bir hissənin bütöv hissədən daha böyük olması və bunun kimi şeylərdir. Əlbəttə ki, şəriətin bu kimi məsələləri gətirməsi mümkün deyil.
- *Əqli cəhətdən mümkün olub baş verməsi uzaq olana gəldikdə isə,* bu mümkünsüz deyildir. Lakin biz onun bu

---

[35] Səhih əl-Buxari. 536; Səhihi Müslim. 617.

[36] Allahın bizə olan lütfündəndir ki, bu əsrdə edilmiş müasir elmi ixtira və kəşflər sayəsində qədimdə anlaya bilmədiyimiz bəzi məsələləri anlamağımız asanlaşmışdır.

[37] Məraqi əl-Va`y – Fusul Ta`siliyyə va Tənbihət Alə Məzəliq əl-Fikriyyə. Şeyx prof. Saleh Sindi. səh. 36.

dünyada baş verməsini bilmirik. Məsələn, cənnətdə baldan yaxud da süddən çayların olması və ya Allahın istədiyi başqa şeylərin mövcud olmasını deyək. Bunlar öz-özlüyündə mümkün olan şeylərdir, mümkünsüz deyildirlər. Duzlu suyu olan dənizi yaradan Allah baldan və süddən çayları da yarada bilər!

O zaman mütləq əqli cəhətdən mümkünsüz olan və baş verməsi uzaq olan iki hal arasında fərq qoyulmalıdır.

Ortaya atılan bir çox problemli göstərilən mövzuların səbəbi bu iki məsələ arasında fərq qoyulmamasındadır. Bu mövzuları ortaya atanlar bəzi vəhylərdə əqli cəhətdən mümkünsüz şeylərin olduğunu iddia edir, bəzən də bu iddialar üzərində şəkk etdirməyə və yalanlamağa çalışırlar. Azca düşündükdən sonra bunun mümkünsüz olmadığı, bunun əqli cəhətdən mümkün olduğu və sadəcə baş verməsinin uzaq bir hal olması və ya vərdiş etmədiyimiz bir hal olması və ya bənzərini görmədiyimiz bir hal olması və ya baş verməsini bilmədiyimiz bir hal olması aydın olur. Bu iki məsələ arasında fərq var.

Ona görə də baş verməsinə vərdiş etmədiyimiz doğru bir xəbəri inkar etmək, böyük metodiki səhvdir. Bu, əqli və nəqli qaydalardan qəsdli şəkildə uzaqlaşmaqdır. Hələ biz bunun böyük günah olmasından danışmırıq[38].

**Beşinci səbəb: Əqli cəhətdən mümkünsüz olan şeylərlə[39] ağılları heyrətə salan[40] şeylər arasında fərq qoymamaq**

Məsələn; nə qədər dəqiq (incə) olsa belə, bir səsin digər

---

[38] Öncəki mənbə. səh. 37.

[39] Sağlam ağlın konkret bir şəkildə mümkünsüz olduğunu bildiyi məsələ.

[40] Ağılların qavramaqdan, anlamaqdan aciz qaldığı və ya idrak etməkdən heyrətə düşdüyü və ya əzəməti qarşısında dəhşətə gəldiyi məsələlər, hansı ki, bu o demək deyil ki qeyd olunan hadisə mümkünsüzdür.

səsi eşitməsinə mane olmadan Allahın bütün səsləri eşitməsi çox əzəmətli bir məsələdir. Bir ağıl bu məsələnin önündə dəhşətə gələrək dayanır, öz acizliyini və uca yaradanın böyüklüyünü və kamilliyini təsdiqləyir!

Burada baş verən xəta isə budur; insanlardan elələri var ki, ağlın tam şəkildə anlamadığı və heyrətə gələrək qarşısında aciz qaldığı bir məsələnin əqli cəhətdən mümkün olmadığını düşünürlər. Bu xətadır. Çünki ağıl nə şəriətin gətirdiyi hər bir şey haqqında hökm verməyin, nə də onu bütün aspektlərdən anlamağın əhli deyildir. Əksinə, ağıl öz acizliyinə görə vəhy vasitəsilə gələn bəzi xəbərlərin qarşısında dayana bilər. Baxmayaraq ki, bununla yanaşı o bunun mümkünsüz olmasına hökm vermir.

Bu acizlik ağıl üçün şəriətə qarşı dil uzatmağı icazəli etmir. Ağıl yalnız öz acizliyini və qüsurlu olmasını etiraf etməli, yaradanın kamilliyinə və hökmünə yəqinliklə inanmalıdır.

O zaman bu iki məsələ arasındakı fərqi dəqiqləşdirmək qaçılmazdır. O şey ki, ağıl vasitəsilə batilliyi və mümkünsüzlüyü bilinir. Hansı ki, şəriətdə heç bir zaman belə bir şey gəlməmişdir. Dəqiqləşdirilməsi lazım olan digər məsələ isə ağlın təsəvvür etməkdən aciz qaldığı və ya ətraflı izahını (təfsilatını) bilməkdə qüsura yol verdiyi məsələlərdir. Bu isə qeyb, qəzavü-qədər və ilahi sifətlər barəsindəki məsələlərdə, hətta bəzi fiqhi məsələlərdə də baş verir. Ona görə də bəzi alimlər demişlər: "Peyğəmbərlər (Onlara Allahın salavatı və salamı olsun) ağılları heyrətə salan şeylər barəsində xəbər verirlər, lakin onlar əqli cəhətdən mümkün olmayan şeylər barəsində xəbər vermirlər"[41].

[41] Öncəki mənbə. səh. 38.

## Altıncı səbəb: Nəqli (rəvayəti) düzgün şəkildə başa düşməmək

Bəzi iddiaçılar ağılla ayə və ya hədis arasında ziddiyyət olduğunu iddia edirlər. Səbəb isə budur ki, o şəxslər bu dəlilləri düzgün başa düşməyib və düzgün yerə yozmayıblar.

Məsələn, götürək elə Buxari və Müslimdə namaza yatıb qalmış kimsə haqqında varid olmuş bir rəvayəti: "Şeytan onun qulağına subaşına çıxmışdır"[42]. Bəziləri gəlib bu rəvayətə qeydlər edib deyirlər: "Bu hədis ağıla ziddir. Çünki biz şeytanın belə bir insanın qulağına subaşına çıxmasının izini görmürük. Hissə müxalif olan ağıla da müxalifdir. Deməli, bu hədis ağıla zidd olduğu üçün məqbul deyil".

Burada baş verən xəta özünü ağıllı hesab edən kimsəyə şeytanın sidiyinin insanın sidiyi ilə hissi cəhətdən (müşahidə yolu ilə) müqayisə etməsindən irəli gəlir. Bu xətadır və fəsadlı bir müqayisədir. Çünki şeytan bizə nisbətdə qeybdir. Bu şübhəni ortaya atan kəs belə bu həqiqəti qəbul edir. O zaman şeytanın sidiyi də qeybi məsələdir. Hər kim ki birincini təsdiqləyirsə, o gərək ikincini də təsdiqləsin. Yəni əgər sən şeytanı hissi olaraq (müşahidə yolu ilə) görmədiyin halda onun varlığını təsdiqləyirsənsə, o zaman sən onun sidiyinin də varlığını onu görmədiyin halda təsdiqləməlisən. Bunu sənə yalnız bu haqda xəbər verən peyğəmbərliyini təsdiqlədiyin ən sadiq şəxsiyyət (Allahın ona salavatı və salamı olsun) xəbər verib[43].

---

[42] Səhih əl-Buxari. 1144; Səhihi Müslim. 774.

[43] Öncəki mənbə. səh. 38-39.

## Əqlani mədrəsəsinin tarixinə baxış

Deyilir ki, Allahın əmrinə qarşı ağıl yoluyla etiraz edən ilk varlıq İblis olmuşdur[44]. O zaman ki Allah ona Adəmə səcdə etməyi əmr etdi, o özünün Adəmdən daha üstün olduğunu düşünüb Allahın əmrinə qarşı çıxaraq, asilik edərək dedi: "O dedi: "Mən sənin palçıqdan yaratdığınamı səcdə edəcəyəm?!" (əl-İsra. 61). Başqa ayədə onun belə deməsi də xəbər verilir: "O dedi: "Mən ondan daha üstünəm. Çünki sən məni oddan, onu isə palçıqdan yaratmısan". (əl-Əraf. 12).

Sonra tarix boyu peyğəmbərlərin yoluna etiraz edənlər əqli etirazlar etməyə çalışmışlar. Peyğəmbərlərə ən çox əqli etiraz edənlərdən biri də İsrail övladları olmuşdur. Qurani-Kərimdə də onların çoxsaylı hekayələri mövcuddur.

İslam dini gəldikdə isə İslam əleyhinə olan əqli etirazlar Məkkə müşriklərindən, bir də müsəlman cildinə girmiş münafiqlərdən gəlməyə başladı. Bu iki istiqamətdən islama əqli-mənəvi hücumlar edildi[45].

İlk firqələrin yaranması da o firqələrin öz ağıllarına və nəfslərinin havalarına tabe olmasına görə olmuşdur. Onlar Quran, sünnə və saleh sələflərin fəhmi ilə kifayətlənmək istəməyərək əqli nəqldən önə çəkmişdilər. Hər bir firqənin sapma, azma nöqtəsi olaraq ağılı şəriətdən önə çəkmək, şəriət dəlilini arxa plana salmaq və ya şəriət dəlilini yanlış yozmaq, kontekstindən kənara çıxarılaraq anlamaq istənildiyini görə bilərik.

İslama nisbət olunan firqələrdən ağılı həddən artıq önə

44 Bax, Şəhristaninin "Miləl və Nihəl" əsəri.

45 Bu haqda olan ayətlərdən: əl-Bəqərə. 9 və 13; Ali İmran. 154; Tövbə. 65-i və s. misal çəkmək olar.

çəkən ilk firqə Mötəzilə[46] firqəsi olmuşdur. Mötəzilə firqəsi müstəqil bir düşüncə yolu kimi görünsə də, bəzi kəlamçı firqələrdə də onların fikirləri mövcud olmuşdur. Onlardan imamiləri, zeydiləri və ibadiləri misal çəkmək olar[47].

Mötəzilə firqəsinin qurucusu Vasil ibn Ata Həsən əl-Bəsrinin elm məclisində otururdu. Bir dəfə Vasil öz müəlliminə böyük günah sahibinin hökmü haqqında etiraz edib əqli bir fikir səsləndirir, o böyük günah sahibinin Quran və Sünnə dəlillərinə əsasən fasiq (günahkar) olduğunu demir, əksinə deyir ki: "o iki mənzil arasındadır", sonra şeyxinin elm məclisindən qalxıb məsciddəki sütunlardan birinin yanına gedib oturur və özünə yeni tələbələr toplayıb bu və digər yeni fikirləri yaymağa başlayır. Bunu görən şeyxi Həsən deyir: "itəzələnə Vasil" (Vasil bizi tərk etdi), beləcə, onlar "Mötəzilə" adlanırlar[48]. Tədqiqatçılar qeyd edirlər ki, bu hadisə hicri tarixin 100 və 110-cu illəri arasında baş vermişdir.[49] Sonra Vasilin tələbələri çoxalmış, ona Amr ibn Ubeyd də qoşulmuşdur[50]. Beləcə, onlar yeni bir firqənin qurucusuna çevrilirlər, hətta onlara şüubilər, zındıqlar, təfriqəyə meyilli olanlar və münafiqlər də (qəlblərində xəstəlik və ya İslama qarşı düşmənçilik

---

[46] **Mötəzilə firqəsi**: bu firqə Əməvi xilafətinin sonlarında ortaya çıxmış, Abbasi xilafətinin zamanında isə daha da yayılmışıdır. Firqənin "Mötəzilə" adlanmasının səbəbi isə Vasıl ibn Ata`nın Həsən əl-Bəsrinin dərs keçdiyi elm məclisini tərk edib özünə yeni bir elm məclisi (halqası) təşkil etməsidir. O zaman Həsən əl-Bəsri onun haqqında məşhur sözünü demişdi. Beləcə Vasil ibn Ata, ardınca da Amr ibn Ubeyd Mötəzilə fikirlərini ümmət arasında yaymağa başlamışdılar.

[47] Movqıful-İtticəh əl-Aqləni əl-İsləmi əl-Muasır minən-Nass əş-Şər`i. Dr. Səd əl-Uteybi. səh. 52.

[48] Bax, Şəhristaninin "Miləl vən-Nihəl" kitabı. səh. 72. Həmçinin bax, "Tahavi Əqidəsi"nin şərhi. Təhqiq: Əhməd Şakir. səh. 468.

[49] Mötəzilə. Zühdi Həsən Cərullah. səh. 12.

[50] "Tahavi Əqidəsi"nin şərhi. Təhqiq: Əhməd Şakir. səh. 468.

olanlar) qoşulurlar. Bu yolla onların İslam əleyhinə hiylə etmələri mümkün olacaq, öz zəhərli fikirlərini və azğınlıqlarını ümmət arasında yaya biləcəkdilər. Onlar bir cəbhədə birləşir və xalis, saf İslam əqidəsinə qarşı mübarizə aparırlar.

Bir çox tədqiqatçılar təsdiqləmişlər ki, mötəzilələr özlərinin bir çox etiqadi əsaslarını – məcusi, saibə, xristian, yəhudi, hindli (bütpərəst), yunan fəlsəfəçiləri və kəlam əhlindən, yəni qeyri-İslami mənbələrdən götürmüşdülər[51]. Eyni zamanda bu fikirlərin Dəməşqli Ğeylanın, Mabəd əl-Cuhəninin, Cad ibn Dirhəmin, Cəhm ibn Safvanın fikirləri ilə də əlaqəsi var idi. Necə ki, onlar Hərrandan olan saibələr və fəlsəfəçilər ilə də - Cad və başqaları vasitəsilə - əlaqələr qurmuşdular[52].

Onlar etiqadda التعطيل (tatil), yəni Allahın Quran və sünnədə varid olan sifətlərinin inkarı fikirlərini yəhudi əsilli Ləbid ibnil-Ə`sam[53]dan götürmüşdülər[54].

Quranın məxluq olması fikrini Cad – onların müəllimlərindən biri – Ləbid ibnil-Ə`samın tələbəsi olan zındıq Talut vasitəsilə öyrənmişdi. Talut Quranın məxluq olması haqqında xüsusi bir kitab da yazmışdı[55].

Mötəzilələr Bişr əl-Mərrisidən də elm öyrənmişdilər, o da Quranın məxluq olduğunu iddia edirdi[56]. Abdullah ibn Səbanın tələbələrindən olan Muğira ibn Səid əl-İcli də bu batil və bidət rəyi deyənlərdən idi[57].

---

[51] əl-İtticəhət əl-Aqləniyyə əl-Hədisə. Prof. Nasir Əbdülkərim əl-Aql. səh. 40. Həmçinin bax, Mötəzilə. Zühdi Həsən Cərullah. səh. 22-23. Həmçinin. Məcmuul-Fətəva. İbn Teymiyyə. 12/301, 420 və 12/182-184.
[52] Öncəki mənbə. Səh. 40.
[53] O peyğəmbərə cadu etmiş şəxs olaraq tanınır.
[54] Təhavi əqidəsinin şərhi. səh. 470.
[55] Öncəki mənbə. Səh. 470.
[56] Məcmuul-Fətəva. 5/22-23 və 349-352.
[57] Mötəzilə. Zühdi Həsən Cərullah. səh. 22-23.

Mötəzilələr bəzi batil görüş və rəyləri xristianlardan götürmüşdülər. Dəməşqli Ğeylan – xristian olan – Dəməşqli Yəhya (İohann) vasitəsilə qədəri inkar etmək rəyini və insanın öz felini yaratması rəyini (bidətlərini) və s. götürmüşdü. Necə ki, Mabəd əl-Cuhəni vasitəsilə də bu fikirləri öyrənmişdilər, hansı ki, o da bu fikirləri xristian olan Əbu Yunusdan[58] götürmüşdü. Bunun kimi böyük günah sahibinin hökmü haqqında rəyin İslam əhlinin rəyindən fərqli olaraq "iman və küfr, yəni iki mənzil arasında" bir yerdə olması rəyini də Dəməşqli xristian Yəhya və Əbu Qurradan götürmüşdülər[59]. Sonra bu fikirlər gizli, məchul qalaraq mötəzilənin başçısı Vasil ibn Ata tərəfindən deyilmiş, yayılmış və Amr ibn Ubeyd də bu fikirlərdə ona tabe olmuşdur.

Bunun kimi "salah və əslah"[60] bidəti, sifətlərin inkarı xristianlar vasitəsilə gəlmişdir, sonra bu fikirləri mötəzilələr onlardan götürüb mənimsəmişdilər[61].

Bax belə... Bu məqamda mötəzilə firqəsinin başqa millət və dinlərdən, əcnəbi fəlsəfələrdən mənimsədikləri bütün fikirləri sadalamaq mümkün deyil. Tədqiqatçı alimlər təsdiqləyiblər ki, İslama nisbət edilən azmış firqələrin – başda mötəzilələr olmaqla - ortaya çıxmasının ən əsas səbəblərindən biri də fəthlərdən sonra İslam dövlətilə eyni coğrafiya çərçivəsində qalan başqa dinlərin nümayəndələri, müxtəlif fəlsəfələr və yad mədəniyyətlər

---

58 Öncəki mənbə. səh. 26.

59 Öncəki mənbə. səh. 27-29.

60 Salah və Əslah: “bu inanca görə uca Allahın qullarına uyğun olan və daha uyğun olan felin edilməsi vacib hesab edilir”. Qədəri-mötəzilə inancına görə uca Allahın dini işlərində hər bir qula daha uyğun olan feli etməsi vacibdir. Dünyəvi işlərində isə bu felin Allaha vacib olub-olmamasında ixtilaf etmişlər. (Bax, Movsuatul-Aqidəti vəl-Ədyən val-Firaq val-Məzəhib əl-Muasırah. 4/1853).

61 Öncəki mənbə. səh. 27-29.

olmuşdur[62].

Ona görə də bəzi azğın təriqətlərin – qədərilər, şiələr, mötəzilələr və s. - təməllərinin İslami təməllər olub sonradan təhrifə məruz qalmasını deyənlər xətaya yol verirlər. Doğru olan odur ki, bu firqələrin kökləri, fikirlərinin əsasları qeyri İslami köklərə - yəhudilik, xristianlıq, bütpərəstlik və digər dinlərə, xalqlara - söykənir. Sonra isə bu azmış təriqətlərin fikirləri böyük bir məntəqədə yayılmış İslami həyat tərzi ilə uyğunlaşmaq üçün İslami rəngə boyansa da, öz batil kökləri üzərində qalmışdır. Bu sözlərin ən böyük dəlili də odur ki, bu batil firqələrin hər birinin təməl fikir prinsipləri bəzi millətlərdə və dinlərdə mövcuddur[63]. Peyğəmbərimiz (Allahın ona salavatı və salamı olsun) bu haqdan sapma nöqtəsinə işarə edərək buyurmuşdur: "Siz özünüzdən əvvəlkilərin (xalqların və dinlərin) yollarına tabe olacaqsınız..."[64]. Başqa bir səhih hədisdə isə (Allahın ona salavatı və salamı olsun) belə buyurmuşdur: "Ümmətim özündən əvvəlki millətlərdən götürmədikcə Qiyamət qopmaz"[65].

Sözün qısası, mötəzilə firqəsi əqlani cərəyanının bir nəticəsidir. Onlar köklü bir şəkildə xəta və sapmalara məruz qalmış, - Allahın kitabında və peyğəmbərin (Allahın ona salavatı və salamı olsun) səhih sünnəsində olan - saf, təmiz İslam əqidəsindən uzaqlaşmışlar.

• **Əgər sual verilsə ki**, mötəzilə firqəsinə müasir camaatlar arasında ən çox bənzəyən camaat hansıdır?

---

62 Məzəhib əl-İsləmiyyə. Əbu Zühra. səh. 217-218.

63 əl-İtticəhətul-Aqləniyyə əl-Hədisə. Prof. Nasir Əbdülkərim əl-Aql. səh. 42. Darul-Fadilə. ər-Riyad. 1-ci nəşr. 1422-ci hicri il.

64 Səhih əl-Buxari. 7320; Səhihi Müslim. 2669.

65 Səhih əl-Buxari. Əbu Hüreyrənin hədisi. 7319.

Cavab odur ki, onlara ən çox bənzəyən "Hizbut-Təhrir" camaatıdır. Bu camaatın liderlərinin fətvaları həddindən artıq əqlani olub İslami üsullara müxalifdir. Bu camaat haqqında danışan ekspertlər bu həqiqəti təsdiqləyirlər[66]. Əgər biz özünü sünniliyə nisbət edənlərdən danışırıqsa, təbii ki, cavab "Hizbut-Təhrir" camaatı olacaq. Amma ümumilikdə kəlam əhli və kəlam elmini öyrənməyi hədəfləyən heç bir təriqət və camaat əqlani prinsiplərdən uzaq deyildir. Elə ona görə də bir çox müasir camaatlarda Quran və sünnəyə müxalif söz və əməllər baş verir.

Müasir dövrdə bəzi yazıçı və araşdırmaçıların mötəzilə fikirlərinə xüsusi diqqət yetirmələri müşahidə edilir. Bunun da müxtəlif formaları var: mötəziləni, onların əqli metodunu və fikirlərini tərifləmək, mötəzilə məzhəbinin yox olub getməsinə heyifsilənmək, bu yox olmuş məzhəbi yenidən diriltmək üçün müxtəlif cəhdlərin edilməsi və məzhəbin öyrənilməsinə və irsinin yayılmasına edilən cəhdləri buna aid etmək olar.

Bəzi araşdırmaçılar bu diqqəti müxtəlif səbəblərlə əlaqələndirirlər. Bunlardan: düşüncə əsrində olan şərtlər, əqli fəlsəfələrin yayılması, İslami təfəkkürə uyğun bir şəkildə bu əqli fəlsəfələrin qarşılığını araşdırmaq cəhdi, mötəzilənin özündə olan əqli təmayül və bir çoxlarının ümmətin əziyyət çəkdiyi donuqluq halına qarşı mübarizə yolu olaraq bu təmayülü (tanımadan) bəyənməsi[67].

Burada diqqət yetirilməsi gərəkən məsələ budur ki, Mötəzilə firqəsinin metoduna söykənmək onların bir çox təməl metodiki prinsiplərinə uyğun gəlir. Məsələn, ağılı

---

[66] Bax, Mənəhicud-Dəvət vət-Təyyərat əd-Diniyyə vəl-Fikriyyə fil-Aləmil-Arabi. "Hizbut-Təhrir" camaatı haqqında bölüm.

[67] Bax, Mənəhicul-İstidləl alə məsəilil-Aqidə əl-İsləmiyyə bi-Misr fil-Asril-Hədis. Dr. Əhməd Əbdür-Rəhim. səh. 131. Qahirə universitetinin "Darul-Ulum" fakultəsində müdafiə edilmiş doktorantura dissertasiyası.

nəqldən önə çəkmək, şəriət dəlillərini təvil edərək (kontekstindən çıxarıb) başqa mənaya yozmaq, insan azadlığı mövzusunu batil meyarlara əsasən qəbul etmək"[68].

Əgər biz müasir İslama nisbət edilən əqlanilərin şəriət dəlillərinə qarşı olan mövqeyinə baxsaq, görəcəyik ki, - əksər hallarda – onların bir çoxu mötəzilə fikirlərindən birbaşa təsirlənməyiblər. Bununla belə onların bəzilərində mötəzilə fikirlərinə diqqət və tərif mövcuddur.

*• Mötəzilə əqlani cərəyanının birbaşa və dolayısı yolla etdiyi təsirlərin nəticəsini bəzi insanlarda bu əlamətlərlə bilmək olar:*

1 – Ağıla qiymət verməkdə həddi aşmaq, onu Quran və sünnə dəlillərindən önə çəkmək.

2 – Öz ağılları ilə və ya guya reallıq ilə - zahirdə - Quran ayəsi uyğun gəlmədiyi zaman Quran ayəsini təvil etmək (istədikləri mənaya yozmaq).

3 – "Quranın zahiri ilə zidd gəlir" zənninə qapılaraq hədisləri inkar etmək, üstəlik də "ağıla zidd gəlir" deyib hədisin həqiqətini anlamadan onu inkar etmək.

4 – Əhəd hədislərin[69] zənni olduğunu iddia edib əqidə məsələlərində əhəd hədisləri qəbul etməmək.

5 – Buxari və Müslimdəki hədisləri rədd etməyə cürət etmək.

6 – Mustalah əl-Hədis (hədis terminləri) elmini aşağılamaq, küçümsəmək.

7 – Bəzi mötəbər nəql yollarıyla sabit olan qeybi

[68] Öncəki mənbə. səh. 135.

[69] Əhəd hədislər tək səhabə yoluyla rəvayət edilən hədislərdir. Bu hədislərdən çox mötəbər olanları var ki, həmin hədislər Səhih əl-Buxari və Səhihu Müslim kitablarında da var. Lakin əqlanilər bu hədisləri ən mötəbər hədislər olsa belə rahatlıqla məqbul saymaya bilirlər. (müəllif).

məsələləri inkar etməyə cürət etmək; İsanın yer üzünə nazil olmasını, qiyamət günü ölümün kəsiləcəyini, Mehdinin gəlməsi, dəccalın çıxması, yəcuc-məcucun gəlməsi rəvayətləri və s.

Əqlanilər haqqında danışan araşdırmaçılardan Mahmud Muhəmməd Məzruah "Xaricdən gəlmiş cərəyanlar və İslamın ona mövqeyi" kitabında əqlanilikdən təsirlənmiş iki tayfadan danışır. Bundan öncə isə deyir: "Əqlani cərəyanının zəlaləti təkcə ateistləri öz təsirinə salmamışdır. Dinlərə inanan kəslərə də əqlanilik çirkabı bulaşmışdır. Yəhudilər onlardan təsirləniblər, xristianlar da bunun kimi onlardan təsirləniblər. Müsəlmanlardan olan bir çox tayfalar da bu cərəyandan təsirlənmişdir"[70]. Sonra isə belə deyir: "Bu araşdırmada bu cərəyanın İslami düşüncəyə etdiyi təsir barəsində bəhs edəcəyik. Xüsusən də əqlanilərdən ən çox təsirlənən, bu fikirlərə dəvət edənlərdən danışacağıq. Bu tayfalardan qəsdimiz fəlsəfəçilər və kəlam əhlidir.

• **Fəlsəfəçilərin tayfasına gəldikdə** onlar üç təmayülə bölünürlər ki, onların hər birinə fəlsəfəçi vəsfi layiqdir.

**Birinci tayfa**: "İxvanus-Safə"[71] adı ilə tanınırlar.

**İkinci tayfa**: "Vəhdətül-vücud" və "Vəhdətüş-Şühud" əhlindən olan sufi fəlsəfəçilərdir.

**Üçüncü tayfa**: "İslami fəlsəfəçilər" olaraq

---

[70] ət-Təyyərat əl-Vafidə va Movqiful İsləm minhə. Prof. Mahmud Məzruah. səh. 189.

[71] İxvanus-Safə: bu camaat hicrətin 3-cü əsrində, miladi ilə 10-cu əsrdə Bəsrədə yaşamış müsəlman fəlsəfəçilərdən ibarət bir camaatdır. Onlar ittifaq etmişdilər ki, həmin əsrdə mövcud olan fəlsəfi fikirlər və İslam inanclarını bir-birinə uyğunlaşdırsınlar. Bu məqsədlə əlli məqalə yazıb bunları "İxvanus-Safənin töhfələri" adlandırmışdılar.

tanınırlar"[72]. Sonra isə bu tayfalar haqqında daha ətraflı şəkildə danışır.

## Fəxrəddin ər-Razi[73]nin özündən icad etdiyi "Qanun əl-Kulli" məsələsi

Bu mövzunun İslam inancına zidd olması, əqli nəqldən önə çəkmə ilə nəticələnməsindən dolayı İslam alimləri tərəfindən Razinin bu özündən çıxardığı, İslama gətirdiyi bidətinə rəddiyyələr verilmişdir. Bu rədlərin zamanında verilmiş ən güclüsü şeyxülislam İbn Teymiyyə tərəfindən olmuşdur[74].

Bəs, Razinin "Qanun əl-Kulli" icadı nədir? Bu fikrə əsasən qısacası ağıl nəqldən önə çəkilir. Bu önə çəkilmə əqllə nəql arasında ziddiyyət görüldüyü və ya belə bir zənn yarandığı zaman baş verir və icazəli görülür. Bu etiqadı Fəxrəddin Razi özünün bir sıra əsərlərində, ələlxüsus da "Əsəsut-Təqdis" əsərində daha geniş şəkildə

[72] Öncəki mənbə. səh. 190.

[73] Fəxrəddin ər-Razi: Əbu Abdullah Muhəmməd ibn Ömər ibnil-Həsən ibnil-Hüseyn ibn Əli ər-Razi (1150-1210): Fəxrəddin ər-Razi ləqəbi ilə tanınır. Əşari etiqadında olan, fiqhi məzhəbi Şafi məzhəbi üzərində olmuş sufi ideoloqu, fəlsəfəçi; o, astronomiya, riyaziyyat, təfsir, kəlam elmi və digər sahələrlə maraqlanmışdır. Bir sıra əsərlərin müəllifidir.

[74] Ətraflı oxumaq istəyənlər üçün qeyd edim ki, İbn Teymiyyənin Razinin "Qanun əl-Kulli" fikrinə verdiyi rəddiyyə çox böyük, əlli üç aspekti əhatə edən əhatəli və uzun bir cavab olduğu üçün bu cavabı kitabımızda bir nəql kimi yerləşdirmək mümkün deyil. Həmin cavabı "Dər`u Təarudil-Aql bin-Nəql" kitabından oxuya bilərsiniz. O cavabın ixtisarını isə şeyxülislam ibn Teymiyyənin tələbəsi ibn Qeyyimin "əs-Savaiq əl-Mursələ aləl-Cəhmiyyə vəl-Muattılə" kitabından (3/795-906) oxuya bilərsiniz.

müdafiə etməyə çalışmışıdr.

Şeyxülislam ibn Teymiyyə Razinin bu iddiasını özünün məşhur "Dər`u Təarudil-Aqli bin-Naql" kitabında saf-çürük etmiş, ona ətraflı rəddiyyə verərək bu fikirlərin batil olduğunu bəyan etmişdir. Məlum olduğu kimi etiqadi məsələlərdə ictihad yoxdur.

Bəzi alimlər Fəxrəddin Raziyə bu mövzuda şəriəti qorumaq qəsdi ilə ictihad edib xətaya düşməsini, onun qəsdli şəkildə bu xətaya düşmədiyini deyib ona üzrlər gətirməyə çalışmışlar. Hər bir halda bu xəta hansı qəsdlə edilirsə edilsin, əvvəla xəta olması bəyan edilməli sonra da bu batil fikirdən qətiyyətlə uzaq durulmalıdır. Çünki Razinin[75] bu xətasını özündən sonra mənimsəyənlər az olmamışdır.

**Həmçinin özünü əhli sünnəyə nisbət edənlər arasında:**

1 – Əqli nəqldən önə çəkib bütünlüklə əqlə etibar edənlər,

2 – Əqidəni öyrənərkən əhəd hədislərə etibar

---

[75] Fəxrəddin ər-Razi ömrünün sonlarında ağılı nəqldən önə çəkməyin peşmançılığını ifadə edən bir şeirində deyirdi:

Ağlını önə çəkməyin sonu fəlakətdir!
"Rəyinə möhtaclar" düşünməyin zəlalətdir!

Ruhumuz cismimizdən ayrı düşdü bu yolla,
Dünyadan qazancımız qüsurlu aqibətdir.
Ömrü boyu bəhsimiz faydasız oldu ancaq,
"O dedi, onlar dedi"lər qaldı, həqiqətdir!

Neçə-neçə kişilər, neçə dövlətlər gördük,
Yox oldular sürətlə, getdilər, müsibətdir!
Neçə-neçə dağların cığırları yüksəldi,
Kişilər getdilər, dağlar qaldı, bu ibrətdir!

(Mənbə: "Naqd Usulul-Aqləniyyin". Süleyman əl-Xuraşi. səh. 244. Şeiri ərəbcədən tərcümə etdi: Sahib Əsədov).

etməyənlər,

3 – Sifətlər mövzusunu aşmaq üçün təvil (yozmaq) qapısını genişləndirənlər,

4 – Sələfin sifətlər mövzusundakı etiqadının təfvid[76] olduğuna etiqad edənlər də var. Təbii ki, bunların hər biri yanlışdır və mövzumuzda yeri gəldiyi üçün qeyd etdik, bu haqda ətraflı izah vermək istəsək, haqqında danışdığımız "əqlanilik" mövzusundan bir qədər uzaqlaşmış olacağıq. Ona görə də bu məsələləri qeyd etməklə kifayətlənirik.

## Fəlsəfəçilərin əqli nəqldən önə çəkməsi

Fəlsəfəçilər müxtəlif mədrəsələrin nümayəndələri olsalar da, onlar insan ağlını müqəddəsləşdirən əsas kəslərdir. Bu müqəddəsləşdirmə məhz onlar tərəfindən - bu istər yunan fəlsəfəsinin[77] tərcüməsi yoluyla olsun, istərsə də İslam diyarlarında ortaya çıxmış Fərabi, ibn Sina, ibn Rüşd kimi digər fəlsəfəçilər olsun[78] - bu kəlamçı firqələrə sirayət etmişdir. Bu əqlani cərəyan ümumi bir şəkildə bir çox müasir əqlani cərəyanların üzərində öz təsirini göstərmişdir. Müasir müsəlman əqlani cərəyanı üzərində fəlsəfəçilərin təsiri heç də bundan istisna deyil. Təəssüflər olsun ki, müsəlmanlardan bəziləri də bu gün fəlsəfəçiləri ağız dolusu tərifləyirlər.

Qarşıda bəzi müsəlman əqlanilər və fəlsəfədən

---

[76] Təfvid etiqadı: Allahın Quran və sünnədə gəlmiş sifət dəlillərinin mənasını bilməyə lüzum görməməkdir. Sözləri təsdiqləyib mənanı bilməyə ehtiyac görmədən bunun mənasını Allaha həvalə etməkdir. Halbuki, mənanı deyil, keyfiyyəti (necəliyi) öyrənməyə ehtiyac yoxdur.

[77] Qədim Yunan fəlsəfəçilərindən ələlxüsus da Aristotel və Sokratın fikirlərində bu təsir daha qabarıq olmuşdur. (Bax, Dinlər, Məzhəblər və Müsair Qruplar haqqında "əl-Muyəssəra" ensiklopediyası. 2/796).

[78] Movqiful-İtticah əl-Əqlani əl-İsləmi əl-Muasır minən-Nass əş-Şər`i. Dr. Səd əl-Uteybi. səh. 59.

təsirlənərək ağılı nəqldən önə çəkən şəxslər barəsində danışılacaqdır. Bu məqamda isə fəlsəfənin əqlanilər üzərində etdiyi təsiri qısa şəkildə belə ifadə edə bilərik:

1 – Ümumi əqli təmayül hansı ki, ağlın qədir-qiymətini şəriət dəlillərindən daha yuxarı məqama qaldırır.

2 – Ağılla nəql arasında orta yol tutmağa çalışmaq.

3 – Kəlamçıların metoduna uyğun olaraq şəriət dəlillərini təvil etmək (başqa mənalara yozmaq).

## Əqlin nəqldən önə çəkilməsində şərqşünasların rolu

Bir çox şərqşünaslar tarix boyu şəriət dəlillərinin qaynaqları, mənbələri haqqında qəsdli şəkildə şəkk-şübhələr yaymışlar.

• Bu şübhələrdən Qurani-Kərim haqqında olanları: Quranın peyğəmbərimizə (Allahın ona salavatı və salamı olsun) nazil olmasının necəliyi, Quranın yəhudi və xristian mənbələrindən götürülməsi, Quranın peyğəmbərimizə (Allahın ona salavatı və salamı olsun) nisbəti, tərcümə zamanı mənalarının təhrifi və s. qeyd etmək olar.

• Bu şübhələrdən peyğəmbər hədislərinin mötəbərliyi haqqında gətirilən çoxsaylı şübhələri, hədis alimlərinin elmi metodikasına tənə edilməsini və s. qeyd etmək olar.

• Eləcə də şərqşünaslar İslam fiqhi haqqında şübhələr gətirmişlər. Onlar iddia ediblər ki, İslam fiqhi Roma qanunlarından götürülüb. Əlavə olaraq da İslam şəriətini donuqluqda, cəmiyyətin və məsləhətin

gərəkdirdiyi məsələləri ehtiva etməməkdə ittiham ediblər.

- Həmçinin onlar ərəb dili haqqında şübhələr gətirib bu dili hər yeniliyi ehtiva etmək gücünə malik olmamaqda ittiham etmiş, ərəb ədəbi dilini küçə dili (loru dili) ilə əvəz etməyi təklif etmişlər[79].

Bir çox İslam alimləri şərqşünaslar vasitəsilə İslam əleyhinə çoxlu şübhələrin yayılmasından dolayı şərqşünaslığın təhlükəsini bəyan etmiş, onun həqiqətini ortaya qoymaqda öndə getmiş və şərqşünasların İslam əleyhinə yazdıqları şübhələrə, böhtan və xurafatlara cavablar vermişlər.

Təəssüflər olsun ki, onlara rədd meydanında da onların bəzi şübhələrindən təsirlənənlər olmuşdur. Əlalxüsus, şərqşünaslardan təsirlənən əqlani görüşlü kimsələr aşağıda qeyd edilmiş xüsuslarda onların fikirlərindən təsirlənmişlər:

1 – Şəriət dəlilləri ilə rəftar zamanı əqlani (ağıla əsaslanmaq) metodunu uca tutmaq, bu metodla gedənləri - ələlxüsus mötəzilələri – tərifləmək.

2 – Peyğəmbərin hədislərinə hökm verməkdə hədis alimlərinin metoduna tənə etmək və iddia etmək ki, bu işlər kifayət deyil, çünki onlar guya mətnin özünü deyil ancaq hədislərin sənədini tənqid ediblər.

3 – Şəriət dəlillərini tarixi və ictimai şəraitlərlə əlaqələndirib izah etmişlər.

4 – Bəzi səhabələrin ədalətli olmasına – onların hədislərinin rədd edilməsi məqsədilə - tənə etmək.

---

[79] Daha ətraflı bax, "əz-Zahiratul-İstişraqiyyə va Əsəruhə fid-Dirasət əl-İsləmiyyə". Həmçinin Azərbaycan dilinə tərcümə etdiyimiz müəllifi dr. Muhəmməd Fəthullah əz-Ziyadinin "Şərqşünaslıq, hədəfləri və vasitələri" adlı kitabı da internetdən PDF formatında endirib oxumaq və şərqşünaslığın həqiqətləri haqqında daha geniş və obyektiv bilgilərə malik olmaq mümkündür.

5 – Bir çox hədislərin mötəbərliyinə tənə etmək məqsədilə peyğəmbərin sünnəsinin (hədislərinin) yazılmasının gecikməsi haqqında şübhə ortaya atmışlar. Bunu ilk dəfə şərqşünaslar etsələr də, sonradan əqlanilər onlardan təsirlənərək bu şübhəni mənimsəmişlər[80].

## Qədim və müasir əqlani cərəyanlarının oxşar cəhətləri

Bu mövzunu digər mövzulardan daha müxtəsər şəkildə bəhs etməyə çalışacağam. Şəkk yoxdur ki, qədim əqlanilərlə müasir əqlanilərin oxşar cəhətləri vardır. Onlardan ən çox bir-birinə bənzəyənləri bunlardır:

**Birincisi:** Hər iki mədrəsə ağıla ifrat dərəcədə dəyər verir, onu dini dəlillərdən önə çəkir və ikincini birinciyə tabe etdirir. Hər iki mədrəsə elmin qaynağı kimi ağılı qəbul edir və ağılı Quran və sünnədən dəlil gətirməkdən önə çəkir. Bunun ardınca da şəriət dəlillərini təvil edib (başqa mənalara yozub) və ya təhrif edib və ya qəbul etməyib, ona təslim olmamaq gəlir. Onlar - əqidəyə tabe olmağı tərk etmək bahasına olsa belə - fikir azadlığı şüarını qaldırmaqla həddi aşmaqda ifrata varmışlar.

**İkincisi:** Sünnə və əhlinə düşmənçilikdə ittifaq etmələri, sələfiliyi aşağılama və ayıblamaları.

---

[80] Movqıful-İtticah əl-Aqləni əl-İsləmi əl-Muasır minən-Nass əş-Şər`i. Dr. Səd əl-Uteybi. səh. 64.

**Üçüncüsü**: Hər ikisi İslamdan kənar məzhəb və fəlsəfələrə tabeçilik nümayiş etdirirlər. Necə ki qədim firqələrin mənsubları xristian, yəhudi, yunan, məcusi, bütpərəst və s. qeyrilərinə tələbəlik etmişlər. Eləcə də müasir əqlanilər şərqşünasların tələbələri olmuşlar. Onlar isə yəhudi, xristian, bütpərəst, yunan və s. qeyrilərinin və öz sələfləri olan mötəzilələrin və cəhmiyyələrin fikir varisləridirlər.

**Dördüncüsü:** Allahdan başqa heç kimin bilmədiyi qeybi məsələlərə dalmağı icazəli görmək; o məsələlər ki, insan ağılı nə onu təsəvvür edə bilir, nə də onun haqqında hökm verə bilir. Quran və səhih sünnədə vəhy yolu ilə gələn bilgilərə, bəzi qeybi xəbərlərə və qeybdə olan məxluqlara hörmət göstərməmək, bunları inkar etmək və ya yalanlamaq, istehza etmək və ya şəkk-şübhə gətirmək, bu haqda gələn xəbərlərə qarşı çıxmağı da buna aid etmək olar. Qədim və müasir əqli cərəyanların ən təhlükəli qarşı çıxdıqları qeybi məsələlərə Allah, onun isim və sifətləri, vəhy, nübüvvət (peyğəmbərlik), mələklər, cinlər, qəzavü-qədər, yenidən dirilmə, axirət əhvalları və s. kimi məsələlər daxildir. Hansı ki bu məsələlərin mahiyyətini və həqiqətini ağlın idrak etməsi mümkünsüzdür. Bu cür məsələlər nə təsəvvürə, nə əqli istiqraya[81], nə də hissi

[81] İstiqra: şər`i termin olub ərəbcə "izləmək, bir şeyin arxasınca düşmək" mənasını verir. Üsulul-Fiqh elmində şəriət əhkamlarına dəlilgətirmə (arqumentasiya) yollarından biridir. İstiqra müxtəlif bir mövzunun hissələrini toplamaqla o mövzuda ümumi hökm və ya qərar çıxarmaqdır. Daha aydın bir misal verək; məsələn, bir mövzu haqqında şəriət dəlilləri tam oxunur, nəticə etibarilə toplanılmış çoxsaylı bilgilər əsasında ümumi təsəvvür və hökm aydın olur. Məsələn tövhidin üç qism olması həm şəriət dəlilləri, həm də istiqra ilə sabitdir (müəllif).

təcrübələrə tabe deyil[82].

**Beşincisi:** Allahın hökmlərinə və şəriətinə əhəmiyyət verməmək, fətva verməyə cürətli olmaq və Allah adından halal və haram, əxlaq, hökmlər və ibadətlər haqqında elmsiz danışmaq, bu işlərdə Allaha təslim olmamaq, bunu isə qarşı çıxmaq, (mənaları) dəyişdirmə, təhrif, artırma, azaltma, Allahın əhkamları ilə istehza etmək və dini haqqında insanları şəkk-şübhəyə salmaq yoluyla etmək.

**Altıncısı:** Dində ümumi olaraq və etiqadi məsələlərdə xüsusi olaraq şübhələri, şaz rəyləri[83] və müsəlmanların icma etdikləri məsələlərə müxalifliyi yaymaq.

**Yeddincisi:** Hər iki mədrəsə müsəlmanlar arasında dinləri, azmış təriqətləri, məzhəb və firqələri yayıb onların fikirlərini diriltmək və uca tutmaq, onları "dini tolerantlıq, fikir və etiqad azadlığı" terminlərindən istifadə edib reklam etmək, onların fikirlərini qəsdli şəkildə yaymaqla tanınır. Ona görə də (qədimdə) mötəzilələr rafiziliyə rəvac vermiş, qədəri, cəhmi, murciə, xəvaric və müşəbbihələrin fikirlərinin yenidən dirildilməsinə çalışmışdır. Sonra isə müasir əqlanilik cərəyanı gəlib – fikir və etiqad azadlığı aspektindən – yola çıxaraq o məzhəb və cərəyanların fikirlərini diriltməyə çalışdılar. Bax bu, şeytanın şübhəsidir. Əksinə, müasir əqlanilik öz təhlükəsini daha da artırmışdır. O baxımdan ki, onun liderləri bütün dinlər və firqələrə

---

82 əl-İtticəhət əl-Aqləniyyə əl-Hədisə. Prof. Dr. Nasir Əbdülkərim əl-Aql. səh. 57.

83 Şaz rəylər: "şaz" sözü ərəbcə "tək qalan", "camaata müxalif olan" mənasındadır. Normal rəylərə, fikirlərə müxalif, qəribə, əcaib fikirlər də “şaz rəy" adlanır. Ümmətin ittifaqla qəbul etdiyi, əməl etdiyi rəylərə müxalif olan, qəribə, əcaib, heç kəsin deməsidiyi rəylər şaz rəylərdir. (müəllif).

radikallıq, ifratçılıq, xurafatçılıq, təhrifçilik amilləri nəzərə alınmadan (aralarında fərq qoyulmadan) şərait yaradılmasına çağırış etmişlər. Onlar bunun cəmiyyətdə yeni fikir formalaşdırmaq üçün balans yaratmaq naminə edilməsini faydalı hesab edirlər[84]. Necə ki Carudi kitab əhlindən olan dinlər üçün bu çağırışı edirdi[85].

**Səkkizincisi:** Bütün qədim və müasir əqlani firqələr və cərəyanlar əhli sünnəni aşağılamaq və onların qədir-qiymətini aşağı salmaqda, onları təəssübkeşlikdə, dar təfəkkürdə və cahillikdə ittiham etməkdə ittifaq ediblər. Onlar bunu əhli sünnənin Quran və hədis əhli olmalarını etiraf etmələrinə baxmayaraq etmiş, buna görə onları ayıblamışlar. Halbuki Quran və hədislərin əhli olmaq necə də gözəldir[86]. Bu vəsflər keçmişdə də, indi də əqlanilər tərəfindən əhli sünnəyə nisbət edilir.

**Doqquzuncusu:** Quran və sünnənin insanların həvayi-istəyinə görə və yeni əqlani üslubda təfsir edib mənalar vermək, bunu "hər əsrə uyğun təfsir" şüarı ilə Qurani-Kərimdəki Allahın muradına, şəriətin dəlilgətirmədə olan metoduna və sələflərin, səhabələrin verdiyi təfsirlərə baxmadan, şəri terminlərə, təfsir və üsul qaydalarına, həmçinin dildəki mənalara riayət etmədən etmək. Hər iki əqli mədrəsə (qədim və müasir) şəriət dəlillərini rəmzlər, məcazi mənalar, fəlsəfi, sufi, batini və maddi izahlar ilə təfsir etməyə meyillidir[87]. Firqələr də bu

[84] Məsələn, Tunisli Məhcub ibn Milad və onun timsalında olanlar bu dəvəti edənlərdəndirlər.

[85] əl-İtticəhət əl-Aqləniyyə əl-Hədisə. Prof. Dr. Nasir Əbdülkərim əl-Aql. səh. 57.

[86] Həzə huval-İsləm. Faruq əd-Dəmluci. səh. 36-60. Həmçinin bax: əl-İsləm va Təhəddiətul-Asr. Dr. Həsən Səab. səh. 93.

[87] Bax: Şubuhətut-Təğrib. Ənvər əl-Cundi. səh. 36; Həmçinin, Mustafa

yolla getmiş və bu metoddan təsirlənmişlər.

**Onuncusu:** Hər iki mədrəsə təcdid (dini yeniləmə) və əqidənin əsaslarını dəyişdirməyə, dinin sabit, dəyişməz sütunlarını, dəlilgətirmə, arqumentasiya metodlarını və dini elmi öyrənməyin doğru qaydalarını – bütün bu mövzularda nə Allahın və peyğəmbərin kəlamına, nə də sələfin metodlarına əhəmiyyət vermədən – dəyişdirməyə meyl edirlər; Bu isə uca Allahın müxalif olanları təhdid etdiyi "möminlərin yolundan başqa bir yolla getmək" məsələsidir[88]. Uca Allah buyurur: "Hər kəs özünə doğru yol bəlli olduqdan sonra Peyğəmbərə qarşı çıxıb möminlərin yolundan başqa bir yolla gedərsə, onu üz tutduğu yola yönəldər və cəhənnəmə giriftar edərik. Ora nə pis dönüş yeridir". (Nisa. 115).

Mahmudun "Allah" və "Sirrul-Əazam" kitabına bax.

[88] əl-İtticəhət əl-Aqləniyyə əl-Hədisə. Prof. Dr. Nasir Əbdülkərim əl-Aql. səh. 58.

## Qərb dünyasında əqlani mədrəsəsinin tarixi

Əqlanilik yeni bir cərəyan olmaqla yanaşı, həm də onun qədim kökləri var. Bu köklər və bağlantılar qədim yunan fəlsəfəçilərinə qədər gedib çıxır. Ağılı ilahi vəhydən önə çəkməyin kökləri onu (ağılı) müqəddəsləşdirmək və ən uca məqama çatdırmaq baxımından qədimdir Sokratın və Aristotelin fikirlərində bu məqam daha qabarıq görünür. Müasir əqlanilik də elə qədim fəlsəfəçilərin açdığı cığırla meydana gəlmişdir desək, heç də yanılmarıq. Bu yol bəşər övladının düşüncəsinə çox təsir etmişdir.

XVI əsrdə Avropada kilsə zülmünə qarşı olan etirazlar nəticəsiz qala bilməzdi. Kilsə hökmranlığının səriştəsizliyi, yalnız öz mənafelərini düşünmələri nəticəsində xalqın qəzəbini qazanması, xurafatlar dolu bir din yaşayıb dini də kifayət qədər təhrif etmələri insanlara qarşı qeyri-obyektiv, zalım yanaşma tərzinə gətirib çıxarırdı. Kilsənin bərbad durumu ilk öncə XVI və XVII-ci əsrdə "Dini islah" mərhələsinə səbəb oldu. Lakin bu mərhələ kilsə hakimiyyətini islah etmədi[89].

Qərb dünyasında meydana gəlmiş əqlanilik (rasionalizm) daha çox iki formada təzahür etmişdir. Birincisi ateizm, deizm, aqnostizm kimi dinsizlik formasında[90]. İkinci təzahür forması isə özünü dindarlığa –

---

[89] əl-Vaciz fil-Məzəhib əl-Fikriyyə əl-Muasırah. Dr. Əhməd əl-Xaləf. səh. 32.

[90] Bu haqda daha ətraflı oxumaq üçün ərəbcə kitablar oxuyan oxucular üçün xüsuən iki kitabı məsləhət görərdim: iki cilddən ibarət olan dr. Sultan əl-Umeyrinin "Zahiratu naqdud-Din fil-Fikr əl-Ğarbiyyil-Hədis" kitabı və üç cilddən ibarət olan müəllifi dr. Cohans Klomnekin olduğu "Rududu uləməil-Ğarb alə əl-İlhəd əl-Muasır". Bu müəllifi ərəb dünyasında "Abdullah əs-Suveydi" olaraq da tanıyırlar. O, ateizm

daha çox hallarda xristianlığa – nisbət etməklə yanaşı dinə əqlani bir yanaşma ilə yadda qalmışdır. Bu iki təzahür forması sadə bir prosses nəticəsində ortaya çıxmamışdır. **"Tənvir əsri" olaraq adlandırılan bu dövr (1690-1730) avropada ağıla yüksək dəyər verilib ağılın əsas mənbə və qayəyə çevrildiyi bir dövr olmuşdur. Bu dövrə Avropada ağılın hökmran olduğu dövr də deyirlər[91].** O zaman düşünürdülər ki, yalnız ağıl insanın həyatını qaydasına salmağa kifayətdir. Xaricdən olan heç bir istiqamətləndirməyə - vəhyə, təcrübəyə və digər şeylərə ehtiyac yoxdur. Əsas olan ağıldır. Beləcə bu zaman kəsiminə şamil olan fikir görüntüsü bu qeyd olunanlarla seçilirdi:

1 - Ağılın hissiyyatının inkişafı və özünü hiss etməsi, insanın gələcək taleyinin aqibətini öz əlinə götürməyə qadir olması, hansı ki, bunu yalnız kilsənin köləliyinə son qoymaqdan sonra nail olmaq mümkün idi.

2 – Ağılı sınaqdan keçirmək üçün hər bir tarixi hadisəyə boyun əyməkdə şücaət göstərmək. Həmçinin salamat, seçilmiş əsaslar üzərində dövlət, camaat, iqtisadiyyat və qanunları yenidən formalaşdırmaq üçün ağıla əsaslanmaq.

3 – Yalnız bu əqli mədəniyyətə əsasən məsləhət və mənfəətlərin hamısının humanizm üzərində bir qardaş kimi qarşılıqlı yardımlaşmasına inanmaq. O mədəniyyət ki, artmaqda və inkişaf etməkdədir[92].

Bu əsrin əsas xüsusiyyəti - deyildiyi kimi - bilgi qaynağı olaraq insanın ağılını əsas götürmək idi. Ağıl

---

mövzuları üzrə mütəxəssislərdən hesab edilir.

[91] Öncəki mənbə. səh. 34.

[92] əl-Vaciz fil-Məzəhib əl-Fikriyyə əl-Muasırah. Dr. Əhməd əl-Xaləf. səh. 35.

siyasətə, qanuna və dinə müdaxilə edir, insanlar isə humanizm[93] üzərində birləşirlər. Deməli, "Tənvir" dövründən əsas məqsəd dini istiqamət vermək sahəsindən uzaqlaşdırmaq, ağılı isə dinin yerinə qoymaq idi[94].

Qərb dünyasının qədim əqlanilərindən sonra gələnlərinə nümunə olaraq Spinozanı, Dekartı, Leybniçi və s. göstərmək olar[95].

*Rene Dekart* (1596-1650) fransız filosof olub varlığın isbatı və xüsusi olaraq Allahın varlığının isbatında əqlani metodikaya əsaslanmışdı. O deyirdi "mən düşünürəm, deməli mən mövcudam"[96]. *O, insanları hər şey haqqında şəkk-şübhə içində olmaq metoduna təhrik edirdi.* Ona görə hər şey iki ünsürdən ibarət idi: maddi və əqli[97]. Avropada Dekartın şəkk metodundan istifadə edib ateizmə dəvət edənlər də az deyildi. Onlardan biri də *Pierre Bayl* idi[98].

Alman filosof *Leybniç* (1646-1716) deyirdi: "Hər var olan diridir, həyatda bütün var olanlar arasında yalnız bir dərəcədə fərq var – idrak fərqlənməsinin dərəcəsi – bu dərəcələr isə dörddür: Mütləq diri olan, yani hərəkətsiz adlananlar, bitkilər, heyvanlar və insanlar[99]. Onun

---

[93] Humanizm: "Amerika Humanistlər Assosasiyası" humanizmə bu tərifi vermişdir: "Humanizm – ali varlığa inamın köməyi olmadan, özünü reallaşdırmaq və bəşəriyyətə daha çox fayda vermək məqsədilə etik həyat tərzi keçirməyə qadir olduğumuzu və buna məcbur olduğumuzu iddia edən mütərəqqi bir həyat mövqeyidir". Mənbə: Sahib Əsədovun "Humanizm nədir? Allahsızlıq çağırışı, yoxsa insanpərvərlik?" adlı məqaləsi. Xülasə, humanizmin bu tərifindən görünür ki, bu təlim insanın ali varlığa (Allaha) ehtiyacı olmadığını iddia edir.

[94] əl-Vaciz fil-Məzəhib əl-Fikriyyə əl-Muasırah. Dr. Əhməd əl-Xaləf. səh. 35.

[95] Dinlər, Məzhəblər və Müasir Qruplar haqqında "Muyəssəra" ensiklopediyası. 2/796. (ərəbcə).

[96] Öncəki mənbə. səh. 2/796.

[97] Zahiratu nəqdud-Din fi fikril-Ğarbiyyil-Hədis. Sultan əl-Umeyri. 1/109.

[98] Öncəki mənbə. 1/109.

[99] Dinlər, Məzhəblər və Müasir Qruplar haqqında "Müyəssəra"

"monadlar" haqqında qəribə sözləri var. O XVII-ci əsrdə rasionalizmin ən tanınmış müdafiəçilərindən biri idi.

*Spinoza (1632-1677)* Allahın varlığına inanan birisi idi. Onun fəlsəfəsinin özündən sonra gələnlər üzərində də böyük təsiri olmuşdur[100]. O, dinin əsaslarına da inanırdı. Lakin o "vəhtədül-vücud" inancındakı kimi kainatı, yaradanı, insanları, təbiəti bir bədəndə birləşdirirdi[101]. Bu inanc dinlərə müxalif inanc idi. Dinlərin gəlmə qayəsi haqqında da o ateistlərin fikrinə yaxın bir fikri müdafiə edir, peyğəmbərlərə gələn vəhyi isə xəyal adlandırırdı[102]. Həmçinin o, bütün möcüzələri inkar edir və iddia edirdi ki, bu möcüzələrə inanmaq guya ateizmə sürükləyir[103]. *O bütün bunları inandığı xristianlığa qarşı etsə də, eyni zamanda ağılını dindən önə çəkdiyi üçün edirdi.*

*Con Luk* (1632-1704) da dövrünün dərin fəlsəfəçilərindən və təcrübəyə əsaslanan mənbəni qəbul etməyə çağıranlardan biri idi. Bu fikirləri ən çox müdafiə edənlərdən, eyni zamanda da Allaha inanan kimsələrdən biri idi. O, ateistlərə qarşı xristianlığı da müdafiə edirdi. *Sadəcə o xristianlığı əqli təməllərə uyğunlaşdırmağa çalışırdı.* Xristianların müqəddəs kitablarında haqqında xəbər verilən möcüzələrin mümkünlüyünə də inanırdı. Humanizm çağırışları etməyinə baxmayaraq o ateistlərin cəzalandırılmasını da tələb edirdi. Çünki ona görə "ateistlər vədlərinə və əhdlərinə sadiq deyillər"[104]. Lakin onun da problemi vəhyə inanmasına baxmayaraq, vəhyin şanını hissin şanından daha aşağı görməsi idi[105]. Onun əqli

ensiklopediyası. 2/796. (ərəbcə).

100 Tərixul-Fəlsəfə əl-Hədisə. Vilyam Rayt. 127.

101 Spinoza. "Əqlin İslahı Haqqında Yazı". 84-90.

102 Spinoza. Din və Siyasət haqqında Yazı. 142-145.

103 Öncəki mənbə. 223-224.

104 Con Luk. Humanizm Haqqında Yazı. səh. 114.

105 Con Luk. Yeni Ağılın Formalaşdırılması. 1/440.

fantaziyaları bununla bitmirdi. O daha da irəli gedib dini əhkamlara tabe olmayan bir cəmiyyət qurmağı tövsiyə edirdi[106] [107].

Sonrakı dövrdə Emmanuel Kant (1724-1804) rasional təfəkkürü, başqalarına ehtiyac duymadan öz ağlına etimad edən, əqlaniliyi müdafiə edənlərdən idi[108].

Araşdırmaçılar və tarixçilər "Tənvir" hərəkatının feli olaraq başlanğıcının təyin edilməsi barədə ixtilaf etmişlər. Onlardan bəziləri bunun *Con Luk* və *Nyutonla* başladığını, bəziləri isə *Dekart* və *Spinoza* ilə başladığını söyləmiş, bəziləri isə bunun XVI-cı əsrdə başladığını bildirmişdir.

Bu, çox geniş bir hərəkatdır. Çoxşaxəli aspektləri və müxtəlif tərəfləri olan, fərqli nişanələri olan bir hərəkatdır. Sonradan gələn, XVIII-ci əsrin məşhur fəlsəfəçiləri, seçilən alimləri və cəmiyyətdə təsirli olan yenilikçilərindən Nyuton, Folter, Kant, Jan Jak Russo, Montesquieu və s. bir çoxları bu əqli hərəkatın axarı ehtivasında və daxilində idilər.

"Tənvir" (rasionalist) hərəkatının əsas düşüncə özəyi ağılı müqəddəsləşdirmək, onun şanını ucaltmaq və hər bir hökmü ona əsaslanaraq, onu meyar edərək vermək idi. Onlar ağıla o qədər çox etibar edirdilər ki, doğruluğa, kamil xoşbəxtliyə yalnız bəşəri bacarıqlar vasitəsilə çatmağın mümkün olduğunu düşünürdülər. Həmçinin düşünürdülər ki, onların öncəkilərdən nəql edilmiş irsə etimad etməyə və onların səmadan nazil olmuş ilahi yol göstəricisinə də ehtiyacları yoxdur. Elə isə həqiqəti yalnız insan və onun bacarıqları vasitəsilə kəşf etmək

---

[106] Con Luk. Humanizm Haqqında Yazı. səh. 114.

[107] Daha ətraflı bax, "Zahiratu Nəqdud-Din fi Fikril-Ğarbiyyil-Hədis". Sultan əl-Umeyri. 1/113-115.

[108] ət-Tənvir. Durinda Outram. 55,58.

mümkündür[109].

Habelə "Tənvir" hərəkatının nümayəndələri feodalizm ideologiyasının təməllərinin tənqidini, xəyalları və dini (xristianlıq) etiqadları yalanlamaq, dini tolerantlıq ruhunu yaymaq, fikir, elmi araşdırma və fəlsəfi azadlıq uğrunda mübarizə aparmaq, ağıl və elmin şənini ucaltmağı öz qarşılarına əsas prioritetlərdən biri kimi qoymuşdular[110].

Tənvir hərəkatının nümayəndələri Xristian dininin Müqəddəs kitabı olan "İncili" özlərinin yeni incil kitabı ilə dəyişdilər, o kitab "Ağıl İncili" idi[111]. Hətta onlar ağılın müqəddəsləşdirilməsində və ağıla ifrat dərəcədə qiymət verilməsində onu ilahiləşdirmə dərəcəsinə çatmışdılar[112]. Artıq ağıl onların yeni "ilahı"na çevrilmişdi, bir çoxu yaradanın varlığını, qüdrətini inkar edir, onun kainatı idarə etməsini yalanlayırdı. İnsan ağılı haqqında ifrata varmalarından idi ki, fransızlar (kilsə əleyhinə) inqilab edərkən Paris qadınlarından gözəl bir qadını seçib ona "ağıl ilahəsi" adı verdilər. Bununla da, onlar yalnız ağıla etimad etdiklərini və qədim düşüncə metodlarını rədd edib bu qadını uca tutduqlarını nümayiş etdirmək istəyirdilər[113].

Paul Hazard XVIII-ci əsrdə qərbdəki əqlani dəvətçilərinin psixoloji durumunu vəsf edərkən deyir: "Bu cürətli şəxslər həmçinin quruculuq etmək istəyirdilər. Onlar hesab edirdilər ki, onların ağıllarının nuru yeri əhatə etmiş böyük zülmət topalarını dağıdacaq, onlar təbiətin

---

109 Təşkilul-Aql əl-Hədis. Krin Brinton. səh. 117; 128-129; Həmçinin bax: Allah və insan. Karin Armstonq. səh. 296. Müasir Fəlsəfənin hekayəsi. Zəki Nəcib Mahmud. 251.

110 əl-Mucizu fi Tərixil-Fəlsəfə. Camaatun min Əsətizətis-Sovet. səh. 194.

111 Təşkilul-Aql əl-Hədis. Krin Brinton. 188..

112 Hikmətul-Ğarb. Bertrand Russell. 2/151. (Orijinalı ingiliscə olan kitabların ərəbcəyə tərcüməsi).

113 Fəlsəfənin Hekayəsi. Vill Durant. 317; Avropa Düşüncə Macərası. Jacqueline Rose. 210.

metodunu tapacaqlar, bundan sonra isə yalnız o metodla getmək onlara kifayət edəcəkdir. İtirilmiş səadətə çatmaq üçün bu lazımdır. Onlar ilah və haqqın arasında heç bir bağlantı olmayacaq yeni bir haqqı, bütün dinlərdən uzaq olacaq yeni bir əxlaqı və rəiyyətin vətəndaşlara çevriləcəyi bir siyasəti quracaqlarına inanırdılar....O zaman səma yerə enəcəkdi"[114].

*Əbdürrəhman Bədəvi* "Tənvir" hərəkatının ağıl haqqında ifrata varmasını ixtisar edərək belə deyir: "O zaman bu, ağıla ibadətdir. Bu xüsusiyyət bu əsrin – XVIII-ci əsrin – başlıca göstəricisidir, hansı ki insani toplumun müxtəlif mənəvi sahələrinin – istər siyasətdə, istər əxlaqda, istərsə də kainata baxışda olan etiqadlarda – yalnız əqli təməllər üzərində qurulması vacibdir[115]". Əqlə yanaşmada olan bu geniş baxış, Qərb dünyasında bu əqlani hərəkatın bir fikri-ictimai hərəkat olub dini, siyasi, ictimai və elmi cəhətdən bir-birinə qarışıq köklərinin olmasını ortaya çıxarır. Bu da onlarda tarixə, əxlaqa, gözəlliyə, dinlərə və dünyaya xüsusi bir baxışın ərsəyə gəlməsi ilə nəticələnmişdir.

Yalnız ağıla etimad edib onu müqəddəsləşdirməkdə həddini aşan bu əqlani hərəkatın nəticəsində - bənzər bir şəkildə - İngiltərədə və Fransada ateizm və maddiyyatçı cərəyanlar yayıldı, dini etiqad süquta doğru getdi və əsasları sıradan çıxdı. Hətta onlar iddia etdilər ki, Allahı öz taxtından endirdilər[116]. Fransada ateizm o qədər yayıldı ki, hətta fikir mərkəzlərində ateizm üstünlük əldə etməyə

---

114 XVIII-ci Əsrdə Avropa Düşüncəsi – Montesquieu`dan Lessinqə kimi.

115 Nitşe. Əbdür-Rəhman Bədəvi. səh. 129.

116 Qərbli əqlanilərin, dinsizlərin bu batil sözlərindən Allaha sığınırıq, Allah onların söylədikləri bu küfr sözlərdən uzaq və ucadır, o pak və müqəddəsdir!

başladı[117].

Qərb dünyasında əqlani (rasionalizm) hərəkatının təsir gücünə və yayılmasına baxmayaraq, bu hərəkat tənqid və etirazlardan uzaq qalmamışdır; Bir çox mütəfəkkir və fəlsəfəçilər bu hərəkata müxtəlif aspektlərdən kəskin tənqidlər etmişlər. Bu tənqidlər əqlaniliyin etimad etdiyi təməl prinsiplərə, əqlanilik nümayəndələrinin yol verdiyi elmi ziddiyyətlərə, yol verdikləri ifratçılıqlara və hərəkatlarına bağladıqları çəhrayı xülyalara edilmişdir[118].

## Müasir əqlanilik mədrəsəsi[119]

Bəzi araşdırmaçılar şeyx Muhəmməd Abduhu bu mədrəsənin banisi hesab edirlər. Çünki o, müasir əqlaniliyin ümumi təməllərini qoymuş, bu fikirləri yaymış və bu fikirlərə çağırmışdır[120].

Bu mədrəsənin seçilən təbliğatçılarından Muhəmməd

---

117 Fəlsəfənin Hekayəsi. Vill Durant. 317; Həmçinin, Müasir Fəlsəfənin Hekayəsi. Zəki Nəcib Mahmud. 251.

118 Müasir Avropa düşüncəsinin tarixi. Ronald Stromberq. 265-273. Nurların ruhu. Tzvetan Todorov. (29-31).

119 Bu fikir özünü İslama nisbət edən bir təmayül olsa da şəriət dəlilləri ilə qərb mədəniyyəti və müasir Qərb düşüncəsini uyğunlaşdırmağa çalışır. Əqlani metoduna əsaslanaraq elmlə dinin uzlaşmasını isbat etməyə çalışır və şəriət dəlillərinə müqabil olaraq ağılın şənini uca tutur. Şəriət dəlillərini mümkün olduqca təvil edib (yozub) başqa mənalar verir, bu mümkün olmadıqda isə rədd edir. (Bax: Təfsirdə ağıl mədrəsəsinin metodu. Fəhd ər-Rumi. səh. 69. "ər-Risələ" nəşriyyatı. Beyrut. 3-cü nəşr. 1407-ci hicri ilin nəşri; Həmçinin bax: Misirdə müasir İslami düşüncə cərəyanları. Dr. Həmd əl-Camal. 1/233. "Aləmul-Kutub" nəşr evi. "ər-Riyad". 1-ci nəşr. 1414-cü hicri il).

120 Mənhəcul-Mədrəsə Aqliyyə əl-Hədisə. 124; İtticəhət əl-Fikr əl-İsləmiyyə əl-Muasır fi Mısr. 1/235. Muhavalat ət-Təcdid fi Usulil-Fiqh və dəavatihi. 295.

Rəşid Rza[121], Əhməd Mustafa əl-Maraği, Muhəmməd Fərid Vucdi, Mahmud Şəltut və s. olmuşdur.

Bu mədrəsənin formalaşmasında təsiri çox olan şəxslər də olmuşdur. Onlardan Rifaə ət-Tahtavi, Əbdürrəhman əl-Kəvakibi və Cəmaləddin Əfqanini misal çəkmək olar.

*Rifaə ət-Tahtavinin* bəzi əqlani görüşlərinə gəldikdə:

**1** – Onda İslam şəriəti və Qərb mədəniyyətinin bəzi dəyərləri arasında uyğunluq yaratma cəhdləri var idi. Xüsusən də bəşəri qanunlar, etiqad azadlığı, kişi və qadınların bir-birinə qarışması məsələlərini qeyd etmək olar. O deyirdi: "Hər kim üsuli fiqh elmi ilə məşğul olarsa, bunun üzərinə şamil olan qaydaları və şərtləri başa düşərsə, o kimsə qərar verər ki, başqa mədəniləşmiş millətlərin çatdığı bütün əqli seçimləri və mədəniləşmək üçün bir təməl prinsipə çevirib qoyduqları qanunları və hökmləri o üsul (təməl) qaydalardan demək olar ki, kənara çıxmır. Hansı ki fiqhin şaxələri də bu üsulların (təməllərin) üzərində qurulmuşdur"[122].

[121] Muhəmməd Rəşid Rza o şəxsiyyətlərdəndir ki, onun kimlərdən olmasını dəqiq demək çox çətindir. Lakin görünən odur ki, o öz əqlani şeyxi Muhəmməd Abduha bəzi təvillərində (yozumlarında) tabe olub, eyni zamanda onun əsas məsələlərlə bağlı sələfin metoduna zidd rəyləri var; misal üçün sünnə və əhəd hədislərlə rəftar, əqlin nəql ilə əlaqəsi barədə...Bununla yanaşı onun ümumən İbn Teymiyyə, İbn Qeyyim və digər sələfi istiqaməti olan imamlara rəğbəti və bir çox rəylərdə onlara müvafiqliyi olmuşdur. Xüsusən də müəlliminin vəfatından sonra. (Bax: Şeyx Rəşid Rzanın Əqidədə Metodu. Təmir Mutəvəlli. "Məcid Asiri" nəşr evi. Ciddə. 1-ci nəşr. 1425-ci hicri il; Mənhəcul-Mədrəsə əl-Aqliyyə fit-Təfsir. səh. 182; Mənəhicul-İstidləl alə məsəilil-Aqidə əl-İsləmiyyə bi-Mısr fil-Asril-Hədis. 112).

[122] əl-Əaməl-əl-Kəmilə li-Rifaə ət-Tahtavi. Dirasə və təhqiq: Muhamməd İmara. 2/469; Müəssəsə əl-Arabiyyə lil-Dirasət vən-Nəşr. Beyrut. 1-ci

2 – Ağılın məqamını çox uca tutmaq; Bu sözündə olduğu kimi: "Həqiqətən də ağıl bütün məsələlərdə (haqla batili) ayırd edəndir"[123].

• Amma *Əbdürrəhman əl-Kəvakibinin* əqlani mövqeyi siyasi məsələlərdə uyğunlaşdırma yaratmaq cəhdləri ilə bağlı idi. Onun siyasi yozumları üzərində dayanmayacağıq.

• *Cəmaləddin Əfqaniyə* gəldikdə isə o, sirlərlə dolu bir şəxs olmuşdur. Hansı ki bir çox məsələlərdə gizliliyini[124] qoruyub saxlayırdı[125]. Lakin hər bir halda o əqli uca tutan fəlsəfəçi idi. O "hökm ağıl və elmə aiddir"[126] deyirdi. Cəmaləddin Əfqani haqqında ən mötədil danışanlardan biri "Təfsirdə müasir Əqlani mədrəsəsinin metodu" kitabının müəllifi Fəhd ər-Rumidir. O, Cəmaləddin Əfqani haqqında geniş araşdırma etmiş, onu demək olar ki, ən obyektiv şəkildə tənqid edənlərdən olmuş, eyni zamanda onun fikirlərinin təhlükəsini bəyan etmişdir. O, Cəmaləddin Əfqani haqqında deyir: "Şəkk yoxdur ki, bu şəxsin həyatı sirlərlə doludur və onu mübhəmlik (gizlilik) əhatə edir. Onun həyatı haqqında doğrularla yalanlar bir-birinə qarışıb, durumu pisləşdirən

---

nəşr. 1973. Həmçinin bax: əl-Fikrul-Arabi fi Asrin-Nahdati. Albert Hourani. Kərim Azqulun tərcüməsi. səh. 80. "Nofəl" müəssisəsi. 2001.

123 əl-Əaməl-əl-Kəmilə li-Rifaə ət-Tahtavi. 2/77; Həmçinin bax: əl-Fikrul-Arabi fi Asrin-Nahdati. səh. 85.

124 Bəzi araşdırmaçılar bu gizli fəaliyyətlərin onu tanıyan tələbələri tərəfindən gizli saxlanılmasının əsas səbəbini onun mason olması ilə əlaqələndirmişlər.

125 Mənhəcul-Mədrəsə əl-Aqliyyə fit-Təfsir. səh. 76; əl-Fikrul-Arabi fi Asrin-Nahda. səh. 118.

126 Burada qəsd edilən dinin hökmünü bu iki şeydən sonraya saxlamasıdır. Dediyi sözün mənbəsi isə: Əfqaninin "Xatirat" əsəri, səh. 95-dədir. "əl-Əhliyyə" lin-Nəşri vət-Tövzii vət-Tibaa". İordaniya. 2003.

hal isə budur ki, bu şəxs haqqında bir mötədil (obyektiv) tarixçi yazmayıb. Onun haqqında yazanların bir çoxu ya onu bəyənib ona məftun olanlar, onu həddən çox tərifləyənlər olub ki, onlar da onun bir çox xətalarından keçib eyiblərini görməzdən gəliblər. Ya da onun haqqında yazanlar onu pisləməkdə, məzəmmət etməkdə həddi aşıblar[127]. Bütün bunları deməklə yanaşı, Fəhd ər-Rumi Əfqaninin sıravilərin xoşuna gəlmək üçün hiylə və yalandan istifadə etməsindən, siyasi və mətbuat fəaliyyətində etdiyi xətalardan, dini alət kimi istifadə etməsindən, hədəflərinə çatmaq üçün sui-qəsdlərdən istifadə etməsini faktlarla, sağlam mənbələrə əsasən danışır. Həmçinin onun mason olmasından[128], hətta tarixi faktlarla Osmanlı sultanı Əbdülhəmidin (Allah ona rəhmət etsin) onu "İngilislərin adamı" adlandırmasını və daha nələri qeyd edir. Onun İslam əleyhinə fəaliyyət göstərən müxtəlif millətlərin nümayəndələri ilə əlaqələrini ortaya qoyur. Kitabda onun əsas fəaliyyətinin dini olmaqdan çox siyasi olması qeyd edilir[129]. Onun təfsir etdiyi ayələrdə də əqlani metodu izləməsi diqqətlərdən yayınmır, o ayələrə təfsir alimlərinin vermədiyi qəribə əqlani izahlar verir[130]. Müəllif onun fars, yoxsa əfqan olması haqqında olan ixtilafın da üzərindən keçərək, əsas olan məsələnin onun mübahisəli dindar şəxsiyyəti üzərində haqq olan sözün deyilməsi olduğunu vurğulayır, onun dinin təhrifinə aparan din anlayışını, əqlani yanaşmalarını ifşa edir. Müəllif Cəmaləddin Əfqani haqqında təxminən əlli səhifə elmi üslubda faktlar və mənbələrlə məlumat verir.

[127] Mənhəcul-Mədrəsətul-Aqliyyə əl-Hədisə fit-Təfsir. Fəhd ər-Rumi. səh. 108.
[128] Öncəki mənbə səh. 96.
[129] Öncəki mənbə səh. 86.
[130] Bax: öncəki mənbə səh. 86-90.

• *Muhəmməd Abduha* gədikdə isə o, Cəmaləddin Əfqaninin ən əsas tələbələrindən biri olmuşdur. Baxmayaraq ki, onun islah anlayışı – şeyxindən fərqli olaraq[131] – təlim yolu ilə gerçəkləşməli idi. Şeyxinin aktiv fəaliyyəti isə siyasi fəaliyyət idi. Ona görə də onun müasir əqlani mədrəsəsinin yayılmasında ciddi təsiri olan tələbələri və tərəfdarları var idi. Elə buna görə də o (Əfqani) bu cərəyanın imamı və lideri hesab edilir[132].

Muhəmməd Abduhun gənclik illərindən məntiq və kəlam elmini oxuyub tədris etdiyi nəql edilir[133]. O, Quran və hədis elmlərinə deyil, bu cür mövzulara üstünlük vermişdir. Hətta Əzhər universitetində dərs deməyə başladığı zaman Əzhər şeyxlərindən birinin onu Mötəzilə məzhəbinin kitablarını oxuyub həmin fikirləri üstün gördüyü üçün tənqid etdiyi, ona nəsihət etdiyi nəql olunur[134]. Muhəmməd Abduh Misirin bir neçə qəzet və jurnallarında jurnalistika sahəsində də fəaliyyət göstərmişdi. Beyruta qayıtdıqdan sonra "dinlərarası yaxınlaşma" fikrinə düşür. Ələlxüsus İslam, yəhudilik və xristianlıq dinləri arasında yaxınlaşma girişiminə başlayır. "Urvətul-Vusqa"nın fəaliyyəti dayandıqdan sonra Beyrutda gizli bir "siyasi-dini cəmiyyət" qurur, bu işdə ona Mirzə Baqir, Birzadə Arif ibn Turab, Camal bəy və s. köməklik edir[135]. *Fikirlərindəki təhlükəli rəylərdən biri də onun* "Allaha imanın nə peyğəmbərlərdən, nə də

---

[131] Şeyxi Cəmaləddin Əfqaniyə görə isə əsas islah yalnız siyasi inqilab yolu ilə mümkün idi.

[132] Movqiful-İtticah əl-Əqlani əl-İsləmi əl-Muasır minən-Nassiş-Şər`i. 67.

[133] Mənhəcul-Mədrəsətul-Aqliyyə əl-Hədisə fit-Təfsir. Fəhd ər-Rumi. səh. 124.

[134] Öncəki mənbə. səh. 124.

[135] Öncəki mənbə. səh. 137.

kitablardan götürülməməsi, bunun doğru olmaması, əksinə, ağıldan götürülməsi" idi. Həmçinin əql və nəql uzlaşmazsa, bu zaman ona görə nəql deyil, əql götürülür[136]. Ona olan mülahizələrdən biri də şeyxi Cəmaləddin Əfqani ilə mason toplantısında iştirak etməsi, ona yardım etməsi və onun fikirlərini yaymasıdır. Həmçinin onun evində də bəzi mason kitabları saxlaması nəql olunur. Onun ərəb millətçiliyinə dəvət etməsi də onun haqqında olan mülahizələrdən hesab edilir. Ərəblərin türklərdən ayrılması çağırışını etməsi də ona edilən mülahizələrdəndir. Onun ingilis işğalçıları ilə səmimi əlaqələri də ona edilən mülahizələrdəndir. Onun şeyxi Cəmaləddin Əfqaniyə yazdığı məktublarında ifrat sufi inanclarına qədər fikirlər əks olunub, hətta bu məktublara sonradan münasibət bildirən Muhəmməd Rəşid Rza belə öz heyrətini gizlədə bilməmiş və təəccüblənmişdi[137].

- *Muhəmməd Mustafa əl-Marağí*: O Muhəmməd Abduhdan daha az cürətkar olmuşdur. Həmçinin şeyxinə də ondan daha yaxın olduğu deyilir. Sudanın Xartum şəhərində qazi olaraq çalışmış, Əzhər universitetində də müəllim olaraq çalışmışdı. Onun Əqlani mədrəsəsinə mənsub olması bilinsə də, öncəki şəxs qədər çoxlu xətaları nəql edilməmişdir.

Digər əqlanilərdən Muhəmməd İmara, Həsən ət-Turabi, Fəhmi Huveydi (jurnalist), Mahmud Əbu Rayyə və s. bir çoxları Ərəb dünyasında çoxlu fəsadlara səbəb olmuş, insanların sağlam İslam etiqadına zərər vermişlər.

---

[136] Öncəki mənbə. səh. 147-148. (ixtisarla)
[137] Öncəki mənbə. səh. 149-155. (ixtisarla)

Bu kitabda adları sadalanan İslama nisbət edilən əqlanilər əsasən ərəb dünyasından adları verilmiş bəzi şəxslərdir. Təsəvvür edin, digər müsəlman ölkələrində nə qədər bu fikrin daşıyıcıları və təbliğatçıları var! Təkcə Türkiyədə olan əqlanilik haqqında danışsaq, bu ən azı böyük bir dissertasiya işinin vərəqləri qədər yazı yazmağı gərəkli edər. Demək olar ki, müasir dünyamızda bütün müsəlman ölkələrdə bu cür şəxslər mövcuddur. Ölkəmizdəki əqlanilər barədə də ümidvaram ki, gələcəkdə İslam araşdırmaçılarının faydalı yazılarını, elmi araşdırma və cavablarını görmək mümkün olacaqdır. Müvəffəq edən Allahdır!

Əqlanilik mövzusunu şəxslər üzərində davam etdirmək niyyətində olmasaq da, onlardan bəzi məşhur şəxslərin adlarını qeyd etmək, bəzilərinin fikirləri barəsində məlumat verməli idik ki, insanlar bu fikirlərə çağıranların kimliyini bilsinlər, yolun təhlükəsini başa düşsünlər və bu fikirlərdən uzaq dursunlar!

• Müasir əqlanilərin müəllifi olduğu kitablarda bəzi əqlani liderləri haqqında çoxsaylı və ifratçı (mübaliğəli) təriflərin olduğunu görə bilərik. Gəlin bu qeydimizə bəzi misallar verək:

- Əbdürrəhman əl-Kəvakibi azadlıq şəhidi və İslam mücəddidi kimi vəsf edilir.
- Muhəmməd Abduha "imam", "dini yeniləyən dünya mücəddidi" deyilir.
- Cəmaləddin Əfqaniyə “şərqin oyadıcısı” və “İslamın filosofu” deyilir.
- Rifaə ət-Tahtaviyə isə müasir əsrdə "Tənvir" lideri

deyilir[138].

## Əqlanilərdən olan quranilərin ortaya çıxma səbəbləri və hədəfləri nələrdir?

Bu tayfanın ortaya çıxmasında mühüm rol oyanayan bəzi səbəblər vardır. Ən mühüm səbəblər bunlardır:

**1** – *Cahilliyin təsiri;* yəni İslami elmlərdə dərinləşməmək, xüsusən də hədis elmində, ondan da xüsusi olanı isə ərəb dili və onun üslubu barədə savadsız olmaları...Elə bu səbəbdən də yollarında heyrətə düşmüş və başqalarını da azdırmağa çalışmışlar.

**2** – *Televiziya kanalları və sosial şəbəkələr*; bu vasitələrlə quranilər öz şübhələrini insanlar arasında yayır, insanların əqlinə təsir edirlər.

**3** – *Şöhrət sevgisi;* bəzi insanlar tanınmaq və insanların nəzərini özünə çevirmək üçün "müxalif ol, tanın!" qaydasına əməl edir, bütün mümkün vasitələrdən istifadə edib şöhrətin zirvəsinə çatmaq istəyirlər. Ona görə də insanları təəccübləndirən və onları dəhşətə gətirən, qızışdıran, heyrətə gətirən sözləri danışmağa çalışırlar.

4 – *"İslah" adı verilən mədrəsənin təsiri*; Əqlanilərin

[138] Movqiful-İtticəh əl-Aqləni əl-İsləmi əl-Muasır minən-Nassiş-Şər`i. 74.

və bəzilərinin "islahatçı" olaraq adlandırdıqları bəzi əqlani təbliğatçılarının fəaliyyəti bu təsirə daxildir. Cəmaləddin Əfqani, Muhəmməd Abduh və qeyrilərinin peyğəmbərin ﷺ sünnəsinə yanaşma tərzi ümmətin sonradan gələn nümayəndələri üzərində də mənfi təsir etmişdir.

5 – *Şərqşünasların mənfi təsiri*[139]; çünki şərqşünaslar sünnəyə, onun sənədinə, mətninə və rəvayətçilərinə tənə etmək yoluyla onu gözdən salmağın, sünnə haqqında şəkk-şübhə yaymağın təməlini qoymuşdular. Sonradan gələn bir çox tayfalar İslam əleyhinə şübhələri məhz şərqşünasların əsərlərindən götürmüşlər.

6 – *Xalqlar arasında fərqləri aradan qaldıran və müsəlman şəxsiyyətini sıradan çıxarmağa yönəlmiş yeni dünya düzəni;* bu düzən İslami müqəddəsatın itməsinə, ümməti ayaq üstə tutan dayaqların dağılmasına, onu gücləndirən amillərin darmadağın olmasına səy göstərir.

**Bu fikirlərdən;** *dini mənbə olaraq ancaq Qurani-Kərimə etimad etmək, peyğəmbərin sünnəsini, hədislərini inkar etmək, əqli müqəddəsləşdirib onu Quran və sünnə dəlillərindən önə keçirmək, Qurani-Kərimin təfsirlərini tərk etməyə çağırış etməyi və s. qeyd etmək olar.*

• **Onların hədəflərinə gəldikdə isə**: Bu hədəflərdən biri Quran və sünnə arasında bir kəsintinin yaranması, əlaqənin itməsidir, çünki peyğəmbərin (Allahın ona salavatı və salamı olsun) sünnəsi onların qarşısında böyük bir maneə təşkil edir, onu istədikləri kimi yozub dəyişdirə bilmirlər. Hədəflərindən biri də "din pərdəsi" altında –

---

[139] Muğalətat əl-Quraniyyin. Əlaəddin əl-Bəlevi. 147.

müxtəlif hiylələr və dağıdıcı yollarla – dini sıradan çıxarmaqdır. Ona görə də bilməliyik ki, peyğəmbərin sünnəsini inkar etmək – bəzi sıravilərin və dayaz düşünənlərin düşündüyü kimi – asan bir iş deyil[140].

*Onların hədəflərindən biri də* ümmətin Quran elmlərindən və təfsirdən olan elmi irsini sıradan çıxarmaq və pisləməkdir. Ona görə də onlar əllərinə düşən hər bir fürsətdə İslam tarixini eybəcər göstərir, təfsir alimlərini və müctəhidləri alçaldırlar.

İnsanın qəlbini üzən amillərdən biri də odur ki, bəzi səmimi, tövhid əhli olan kimsələrin belə əqlanilərdən – özü də fərqinə varmadan – təsirlənmələridir. O şəxslər isə nədənsə yaxşı bir iş gördüklərini düşünürlər.

Əgər o müsəlmanlar bu təhlükəli əqlanilərin, quranilərin arxasında kimlərin dayandığını, onlara bu fikirləri öyrədən və bu düşüncəyə rəğbətləndirənlərin kimlər olduğunu bilsəydilər, bu tutuquşu kimi danışan insanlara azacıq da diqqət yetirməzdilər.

Muhəmməd Əsəd[141] bu gizli planlar haqqında bəzi məqalələrində belə deyir: "Qərb mədəniyyətinin İslam ölkələrində nüfuzunun artdığı bu günlərdə qərbşünasın mövqeyinə əlavə ediləsi yeni bir səbəb tapırıq, hansı ki mütənəvvir müsəlmanlar[142] adlandırdığımız şəxslər bu məsələyə belə sözlərlə yanaşırlar: "Həyatda qərblilərin yolunu izləyib peyğəmbərin sünnəsi üzərində yaşamaq bir

---

[140] Öncəki mənbə. səh. 147-148.

[141] **Muhəmməd Əsəd** (1900-1992): Ukraynada dünyaya gəlmiş yəhudi əsilli – sonradan İslamı qəbul etmiş – yazıçı, mütəfəkkir, dilpomat, jurnalist və ictimai tənqidçi olmuş şəxsiyyətdir. İslam dinini qəbul etmiş, dinində səmimi və sadiq olmuş, "Məkkə yolunda", "İslamın hökm vermədə metodu", "Yolların ayrıcında İslam" kitablarını müsəlman olduqdan sonra yazmış, həyatı boyunca İslamı müdafiə etmişdir. O, İslami ədəbiyyatlarda xoş xatirələrlə yad edilən biridir.

[142] Əqlanilərin "Tənvir" hərəkatına nisbət edilən müsəlmanlar (müəllif).

an belə olsun mümkün deyil, sonra müasir müsəlman nəsil qərbdən olan hər bir şeyi böyütməyə və bütün əcnəbi mədəniyyətlərə qul-kölə olmağa hazırdır. Çünki o, əcnəbidir, çünki o, güclüdür və maddi cəhətdən parlaqdır!"

Bu qərbliləşmə peyğəmbərin hədislərinin və bütün sünnə qanunlarının günümüzdə qəbul edilməməsinin ən güclü səbəblərindəndir. Həqiqətən də sünnə qərb mədəniyyətinin üzərində dayandığı əsas fikirlərə açıq bir şəkildə qarşı gəlir. Hətta qərb mədəniyyətinin aldatdığı kimsələrin düşdükləri çətin durumdan sünnəni inkar etməkdən – sünnəyə tabeçilik müsəlmanalara vacib deyil deməkdən - başqa çıxış yolları qalmır. Çünki sünnə belə bir kimsə üçün onun etibar etmədiyi hədislər üzərində qurulmuşdur. Bu qısa mühakimədən sonra o kimsə çox asan bir şəkildə - qərb mədəniyyətinin ruhuna uyğun gəlmək üçün - Qurani-Kərim təlimlərinin təhrif edilməsi qənaətinə gələ bilir"[143].

## Əhli Sünnəyə görə əqli dəlilgətirmə yolları

Əhli Sünnə bir sıra əqli dəlilgətirmə yollarına etimad etmişdir. Onlar bunu şəriətin varid etdiyi, bəyan etdiyi, işarə etdiyi və ya icazə verdiyi əqli dəlillərə əsaslanaraq etmişlər; Bu, onların bilməsi və iman etməsilədir ki, Allah və elçisinin (Allahın ona salavatı və salamı olsun) bəyan etdiyi əqli dəlillər ən uca, ən kamil, ən üstün əqli dəlillərdir, hətta özünü ağıl metoduna nisbət edənlərin belə gətirdikləri dəlillərin xülasəsini şəriət dəlilləri ən yaxşı formada təqdim etmişdir[144].

---

[143] Muğalətat əl-Quraniyyin. Əlaəddin əl-Bələvi. səh. 149.

[144] Dər`u Təarudil-Aql bin-Naql. İbn Teymiyyə. 1/28; Məcmuul-Fətəva.

Əhli Sünnənin əqli dəlillərə diqqət yetirməsinə bu dəlalət edir ki, onlar etiqadi və əhkam məsələlərinə aid dəlilgətirmələrdə, arqumentasiyalarda bu mövzulara aid əqli dəlil və arqumentləri gətirirlər. Bu, Əhli Sünnənin etiqadi və fiqhi əhkam məsələləri ilə əlaqədar olan kitablarında diqqətli olan hər kəs üçün aşkar bir məsələdir[145].

**• Əhli Sünnədə şəriət məsələlərinə dəlilgətirmənin əqli yollarından bəziləri bunlardır:**

**1 – Qiyasul-Əvlə (قياس الأولى)[146] Daha üstün müqayisə:**

Bundan qəsd olunan odur ki, tələb olunan hökm qeyd olunan vəsfdən daha üstün bir sabitliklə dəlil olaraq göstərilən məsələyə dəlalət etsin[147].

Dəlilgətirmədə olan bu metodu "sələflər və imamlar bunun kimi qayələrdə istifadə etmişlər, necə ki bunun kimi metodu imam Əhməd, ondan əvvəl də, sonra da İslam əhlinin digər imamları istifadə etmişlər. Buna bənzər metod tövhid, sifətlər, məad və s. məsələlərində dinin əsaslarının təsdiqində Qurani-Kərimdə də varid olmuşdur"[148]. Baxmayaraq ki, bu metod ən çox sifətlər babında gəlmişdir. Uca Allahın bu ayəsində də varid

---

3/296 və 13/137; Savaiqul-Mursələ. 2/460.

145 Movqiful-İtticəh əl-Aqləni əl-İsləmi əl-Muasır minən-Nassış-Şər`i. Dr. Səad əl-Uteybi. səh. 45.

146 Bax: Movqıfu ibn Teymiyyə minəl-Əşəirah, 1/259; Ədillətul-Aqliyyətin-Naqliyyə. 125; əl-Mənhəcus-Sələfi. Mufrih əl-Qövsi. 373; ər-Riyad. 2-ci nəşr. 1424-cü hicri il..

147 Bax: Şərhu əl-Aqidə əl-İsfahaniyyə, ibn Teymiyyə. səh. 48-49. Darul-Kutub əl-Hədisə. Qahirə. 1385-ci hicri il. ər-Raddu aləl-Mantiqiyyin. Səh. 150.

148 Dər`u Təarudil-Aqli bin-Naql. 1/30.

olduğu kimi: "Ən uca sifət isə Allaha məxsusdur. O, Qüdrətlidir, Hikmət sahibidir". (ən-Nəhl. 60).

Şeyxülislam demişdir: "Qiyasul-Ovlə`yə (daha üstün müqayisəyə) gəldikdə isə - sələflər bu metodu Qurana tabe olaraq istifadə edirdilər – bu dəlalət edir ki, uca Allaha kamillik sifətləri nisbət edilir (təsdiqlənir), hansı ki bunda heç bir naqislik yoxdur, - ağlın idrak edə bilməyəcəyi bir fərqliliklə - başqasında sabit olaraq bilinən sifətdən daha kamildir, necə ki xaliqlə (yaradanla) məxluq (yaradılmış) arasındakı fərqliliyi idrak etmək mümkün deyil. Əgər insanın ağlı hələ məxluqla məxluqun arasında – miqdarını ölçə bilmədiyi - üstünlüyün (fərqin) olmasını bilirsə, həm də o bilirsə ki, Allahın hər bir məxluqa olan lütfü məxluqun məxluqa olan lütfündən daha əzəmətlidir, bu bəyan edir ki, Rəbb haqqında təsdiqlənən bir şey, ondan başqa hər bir şey üçün təsdiqlənən şeydən – miqdarının ölçülməsi mümkün olmayan – daha əzəmətlidir!"[149].

Bu metodun misallarından biri də uca Allahın bu ayəsində varid olmuşdur: **"O Bizə bir məsəl çəkdi, lakin yaradılışını unutdu. O dedi: "Çürümüş sümükləri kim dirildə bilər? De: "Onları ilk dəfə yaradan Allah Özü diriləcək. O, hər bir məxluqu yaxşı tanıyır".** (Yasin. 78-79).

Qiyasul-Əvləyə (daha üstün müqayisəyə) başqa bir misal verək; alimlərimiz deyirlər ki, Quranda Allahın əli haqqında keçən ayətlər o demək deyil ki, əgər ayədə "əl" sözü işlənibsə, deməli, bu xaliqi (yaradanı) məxluqa (yaradılmışa) bənzətməkdir! Haşa, uca Allahın heç bir bənzəri yoxdur. Bu məsələ qiyasul-əvlə (daha üstün müqayisə) metodu ilə rahatca çözülür. Bu müqayisə digər

[149] ər-Raddu aləl-Mantıqiyyin. səh. 154.

müqayisələrdəki kimi batil metoda əsaslanmır, Allahı məxluqata bənzətməkdən uzaq tutur. Bəs, bu daha üstün müqayisə nədir? Bu müqayisə Allah haqqında Quranda verilmiş vəsfləri olduğu kimi təsdiqləmək, onun heç bir tayı və bənzərinin olmadığına etiqad etməklə Allaha aid hansısa bir vəsfin məxluqda da olduğunu deyənlərə misal ilə cavab verməklə aydın olur. Məsələn, deyilsə ki, Quranda Allahın əlinin, gözünün varlığına işarət edən ayələr var, deyirik ki, Allahın əli onun özünə məxsusdur, məxluqun əlinə bənzəməyi gərəkli etmir, necə ki filin əli ilə qarışqanın əli də var, lakin nə filin, nə də qarışqanın əli bir-birinə bənzəyir. Əgər iki məxluq arasında belə böyük bir fərq varsa, o zaman məxluq olmayan (yaradılmayan, əksinə yaradan) aləmlərin Rəbbinin əlini məxluqa bənzətmək nə dərəcədə doğrudur? Əlbəttə, bu doğru deyil! Allah pak və nöqsanlardan uzaqdır![150]

**2 - əl-Mizan əl-Qurani (الميزان القرآني) Quranın ölçüsü;**

Bu da uca Allahın bu ayəsində varid olmuşdur: "Kitabı və tərəzini gerçək həqiqət kimi nazil edən Allahdır, bəlkə də, Qiyamət saatı yaxındır". (əş-Şura. 17). Həmçinin uca Allahın bu ayəsinə nəzər yetirək: "Biz elçilərimizi aydın dəlillərlə göndərdik və onlarla birlikdə Kitab və tərəzi nazil etdik ki, insanlar ədalətli olsunlar". (əl-Hədid. 25).

"Sifətləri və təqdir olunmuş qədərləri bir-birinə bənzəyənlərin qarşılıqlı bənzəməsi bu ölçüdən (tərəzidən) hesab edilir. Bunun kimi də müxtəlif olanların fərqliliyi bu

[150] Bax: Şərhud-Tədmuriyyə. Muhəmməd Saleh əl-Useymin. Şiddətli ixtisarla nəql. Həmçinin Sahib Əsədovun sunna.az saytındakı "Allahın sifətləri məxluqatın sifətlərinə bənzəyirmi?" adlı məqaləsinə bax. Məqalənin keçidi: http://sunna.az/content?cid=1778

ölçüdən hesab edilir"[151].

Əqli və şər`i dəlillərdən təməlləri ilə müqayisə edilən fürular (şaxələr) də bura daxildir. Çünki bu dəlillər də onların arasında müştərək olan ölçülər ilə tanınır. Hansı ki bu təməllərlə füruları (şaxələri) bir arada cəm edən müştərək bir vəsfdir. Bu vəsf "qiyasut-tard"a[152] və "qiyasul-əks"ə[153] də aid edilir. Allahın Kitabında nəyin nəzərə alınması əmr edilibsə o, "qiyasut-tard"a və "qiyasul-əks"ə də aiddir. Buna görə Allah elçilərini inkar edənləri bu inkara görə həlak etdiyi zaman bilinməli idi ki, kim onların etdiyini edərsə, onların düçar olduğuna düçar olacağını nəzərə almalıdır. Beləcə, cəzaya düçar olmaqdan çəkindiyi üçün elçiləri inkar etməkdən özünü qorumuş olar ki, bu "qiyasut-tard" hesab edilir. Həmçinin bilərsə ki, hər kim elçiləri inkar etməzsə, o kimsə bu kimi cəzalara düçar olmaz, bu isə "qiyasul-əks" (əks müqayisə) hesab edilir. Bu, əzab olunan kimsələri nəzərə almaqdan qəsd olunan mənadır. Çünki bundan qəsd olunan odur ki, füruda (şaxələrdə) sabit olan təməldə olan hökmün əksidir, bənzəri deyildir. Nəzərə almaq da həm bununla, həm də digəri ilə baş verir"[154].

Bunun misallarından biri də "əgər biz biliriksə ki, uca Allah üzüm şərabını – Quranda bildirdiyi kimi Allahın

---

151 ər-Raddu aləl-Mantıqiyyin. 372; Bax, Məcmuul-Fətəva. 9/239.

152 Qovma müqayisəsi. (ərəbcə bilməyənlər üçün qeyd etmək olar ki, burada iki fərqli mənanın müqayisəsi qəsd edilir. "Tard" və "əks" sözləri elə iki fərqli mənanın müqayisəsini ifadə edir. Mənfi mənada işlədilən söz "tard" (qiyasul-tard) sözüylə ifadə olunur. Onun əksi olub müsbət mənanı ifadə edən söz isə "əks" (yəni qiyasul əks) sözü ilə ifadə edilmişdir. Mətndə verilmiş misalları diqqətlə oxusaq bu mənalar aydın olacaqdır. (müəllifi izahı).

153 Əks müqayisə, yəni qovmanın baş vermədiyi müqayisə.

154 Məcmuul-Fətəva. 9/239.

zikrindən, namazdan yayındırdığı üçün və möminlər arasında ədavət və düşmənçilik saldığı üçün – haram etmişdir, sonra isə arpa, buğda, düyü və s. dənələrindən hazırlanmış şərabın da bu ümumi mənaya müştərək olduğunu görürük, hansı ki bu məna haram edilmənin əsas səbəbidir. Bu müştərək miqdar səbəbdir və bizim qəbul etməyimiz üçün Allahın nazil etdiyi bir ölçüdür (meyardır), hətta bu ölçü (meyar) vasitəsilə bunu ölçək, digərini də bu meyara əsasən ölçə bilək. O zaman (bu məsələdə) iki bir-birinə bənzər olan şey arasında fərq qoymuruq. Doğru şəkildə müqayisə etmək də uca Allahın əmr etdiyi adillikdən sayılır"[155].

"Qiyasul-Əks"ə misallardan biri də peyğəmbərin (Allahın ona salavatı və salamı olsun) hədisində gələn bu sözüdür: "Sizlərdən birinin ailəsi ilə münasibətdə olması sədəqədir". Dedilər: "Ey Allahın elçisi, bizlərdən biri şəhvət ehtiyacını ödəyərkən savab qazanır?" Dedi: "Əgər o öz şəhvət ehtiyacını haram yolla ödəsəydi günah qazanardımı? Eləcə də o bunu halal yolla edirsə, savab qazanır"[156].

## 3 - əs-Səbru vət-Təqsim (السبر والتقسيم)

Bu da şəriətdə istifadə edilən əqli dəlilgətirmə (arqumentasiya) metodlarından biridir. Bu metod iki mərhələdən ibarətdir[157]:

[155] ər-Raddu Aləl-Mantıqiyyin. səh. 372.
[156] Səhihu Müslim. Zəkat kitabı. "Yaxşılığın hər bir növünə sədəqə adının verilməsinin bəyanı" babı. 1006.
[157] Rovdatun-Nazir va Cənnətül-Mənazir. İbn Qudamə. 2/286-289. "Kutubil-İlmiyyə" nəşr evi. Beyrut; Şərhu Kövkəbül-Münir. İbn ən-Nəccar. Təhqiq: Muhəmməd əz-Zuheyli və Nəzih Həmməd. 4/142-146; "Ubeykan" nəşr evi. ər-Riyad. 2-ci nəşr. 1418-ci hicri il; Ədvaul-Bəyan.

**Birincisi:** Vəsfləri bir araya cəm etmək hansı ki, "təqsim" dedikdə bu nəzərdə tutulur.

**İkincisi:** Bu toplanmış vəsflərdən hansının batil olduğunu yoxlamaq, doğru olanı isə saxlamaq, "səbr" dedikdə isə bu nəzərdə tutulur.

Quranda istifadə olunan misallara gəldikdə uca Allahın bu ayəsini qeyd etmək olar: **"Bəlkə, onlar öz-özünə yaranıblar, yaxud onlar yaradanlardır?"** (ət-Tur. 35).

Deyilib ki, burada üç haldan biri mümkündür:

*Birincisi*: ya onlar öz-özünə yaranıblar, yəni yaradıcıya ehtiyac olmadan.

*İkincisi*: ya onlar öz-özlərini yaradıblar.

*Üçüncüsü*: ya da onları özlərindən olmayan bir yaradıcı yaratmışdır.

Burada şəkk yoxdur ki, ilk iki qisimdə verilmiş izah zəruri olaraq batildir. Üçüncü qisim isə özündə şəkk olmayan haqdır. Çünki uca Allah ibadətə layiq olan tək yaradıcıdır.

Əhli Sünnə bu metodu dəlilgətirmə (arqumentasiya) metodlarından biri kimi istifadə etmişdir. Bundan biri də Əbdüləziz Kinəninin Bişr əl-Mərrisi ilə "Xəlqul-Quran" mövzusu barədə debatında baş vermişdir. Əbdüləziz Kinəni ona belə demişdi: "Sənin üç şeydən birini deməyin labüddür; ya deməlisən ki, uca Allah Quranı özündə yaradıb (müxalifin rəyi bu idi), ya deməlisən ki, onu başqasında yaradıb, ya da deməlisən ki, onu öz zatında və özündə yaradıb. İndi isə sən öz rəyini de"[158]. Sonra isə

4/368-369; Muzəkkiratu Usulul-Fiqh. 257-259; Məalim Usulul-Fiqh. 209.

[158] əl-Heydətu vəl-İtizar fir-Raddi alə mən qalə bi-Xalqil-Quran. Əbdüləziz

"Xəlqül-Quran" görüşünün batil olmasına çatmaq üçün (Allah ona rəhmət etsin) bu üç görüşün batil olmasını bəyan edir[159].

## Kimin ağlı ilə hökm verək?

Əgər əqlanilərin iddia etdiyi kimi ağıl insanda ən əsas, ən üstün meyardırsa, əgər ağıl vəhydən, ilahi qanunlardan önə keçməyə cürət edirsə, o zaman kimin ağlı ilə məsələlərə yanaşaq və hökm verək? Bu məqamda veriləsi çoxlu suallar ortaya çıxır. "Sorğulamaq" sözünü çox işlədənlərin özlərinə də veriləsi çoxlu suallar meydana gəlir. Bu suallar elə ağılların müxtəlifliyindən yaranır. Əgər insanlarda belə müxtəlif olan bir ağılla hökm verəsi olsaq, onu əsas meyara, ittifaq etdiyimiz mənbəyə, qaynağa və ya dəyərə çeviririksə, o zaman kimin ağlı daha üstündür? Kimin ağlına etibar edək? Kimin ağlı ilə hökm verək? Kütlənin, yoxsa xüsusi şəxslərin? Əgər cavab kütlə olacaqsa, kütlənin maraqları müxtəlif deyilmi? Onlar bütün məsələlərdə öz xeyirlərini və zərərlərini necə ətraflı şəkildə bilə və əhatə edə bilərlər? Yoxsa xüsusi şəxslərin ağlına etibar etməliyik? Xüsusi şəxslər bizim cavabımız olacaqsa, o zaman xüsusi şəxsləri necə təyin edəcəyik? Bir çox mövzuda işin əhli olmayanlar da fikir bildirməyi

Kinəni. Təhqiq və qeydlər: Əli Nasir əl-Fəqihi (Allah ona rəhmət etsin). səh. 221. "Ulum vəl-Hikəm" nəşr evi. Mədinə şəhəri.

[159] Öncəki mənbə. səh. 224.

sevirlər. Hər məsələdə onların başa düşmədikləri mövzularda "fikir azadlıqları" məsələlərin həllində nə qədər mühümdür? Xüsusi insanların ağlına etibar etdiyimiz zaman da o adamların xətası çox böyük olur. Çünki ya doğru olana müvəffəq olmalı, ya da ağılları xətaya yol verməlidir. Kimin ağlına etibar edək? Qərb dünyasının bizim kimliyimizi əlimizdən almaq üçün ortaya ağıllar vasitəsilə çıxarılan nəzəriyyələrinəmi? Yoxsa, hər fürsətdə qərbi sevdiyini ifadə edib ölkəsinə qənim kəsilənlərin ağlına etibar edək? Kimin ağlına etimad edək? Ateistlərin? Yoxsa dindar görünüb dinə yenilik və xurafat gətirənlərin ağlına? Yoxsa dünya əhalisinin dörddə birinin qırılmasını vacib görən böyük ailələrin ağlına etimad edək? Öz dini ilə qürur duyan müsəlmanın ağlına, yoxsa dini kimliyi itmiş, yadlaşmış bir müsəlmanın ağlına etimad edək? Ağsaqqalları, ziyalıları azalmış, bir çoxu da vəfat etmiş köhnə nəslin ağlına, yoxsa dünyadakı bəsit məsələ və prosesləri başa düşməyən, dərdi ancaq "əyləncə" olan bir çox yeni nəsil gənclərinin ağlınamı etimad edək? Avropalıların, yoxsa şərqlilərin ağlına etimad edək? Özünü “müqəddəs” elan edib ilahiləşdirən qərblinin, yoxsa cinsi azlıq nümayəndəsi olan qərblinin, yoxsa "demokratik dəyərlər"dən danışsa da, ölkəmizi işğal etmək planları barədə düşünən qərblinin ağlına etimad edək? Yoxsa sülh zamanı bizim yanımızda görünüb müharibə zamanı düşmənimizin yanında yer alan qərblilərin ağlına etimad edək? Din yaşayarkən fəlsəfəçilərin, yoxsa hədis inkarçılarının ağlına etimad edək? Dinini unudan, qərblilərə aşiq və məftun olan şərqlinin, yoxsa əxlaqsızlığın ən ağır növlərini belə utanmadan icazəli hesab edən qərblinin ağlına etimad edək? Deməli, ağıllar müxtəlifdir. Ağıllara əməl etmələri üçün şəriəti, dini göndərən Allahın qanunlarına etimad etsək, yanlışa

düşməkdən qurtular, doğruya isabət edərik! Çünki müxtəlif ağıllar üçün yalnız bir şəriət göndərən Allah bu ağıl sahiblərinə də səadətin ünvanını göstərmişdir. Uca Allah Qurani-Kərimdə buyurur: **"Məgər O öz yaratdığından xəbərdar deyilmi?"** (Mülk. 14). Bəli, öz yaratdıqlarını daha yaxşı tanıyan Allah ağılları müxtəlif olan insanların fitrətinə uyğun hökmlər nazil etmişdir. Çünki o öz bəndələrinin fitrətini onların özlərindən də yaxşı bilir. Onların nəyə ehtiyac duyduğunu, nəyin onların xeyrinə, nəyin isə onların zərərinə olduğunu daha yaxşı bilir. O zaman çoxlu və müxtəlif ağıllar deyil, şəkk yoxdur ki, bu müxtəlif ağılları yaradanın yoluna tabe olmaq çıxış yolu və qurtuluşun yeganə ünvanıdır!

İbnul-Cövzi "Seydul-Xatir" kitabında demişdir: "(Vaxtilə) böyüklərdən olan neçələri olub ki, ağlın ilhamına meyil ediblər, onların birincisi İblis olmuşdur. Çünki o, odun torpaqdan üstün olduğunu hesab etmiş, buna görə də etiraz etmişdi.

Elmə nisbət edilən bir qrup insanlar da gördük ki, bu məsələdə xətaya yol vermiş, etiraz etmiş və bir çox baş verən fellərin heç bir hikmətinin olmadığını iddia etmişdilər. Bunun səbəbi isə ağılın nəzəri ilə adətlərə görə danışmaq, anidən (tələsərək) şifahi fikir bildirmək və (Allahın feillərini) məxluqların feilləri ilə müqayisə etməkdir"[160].

Ağıllar nə çox olur ki, xurafatları təsdiqləyir, sağlam fitrətlərin və salamat zövqlərin qəbul etmədiyi bir çox batillərin doğru olmasına inanaraq keyləşmiş bir durumda olur. Bəzən görürsən ki, bir insan – nə qədər xurafat və səfehliyin dərinliyinə gedən mövzular olsa belə - bəzi batil

[160] Seydul Xatir. İbnul-Cövzi. səh. 491. "əl-Kitəb əl-Arabi" nəşr evi. 1985.

adət-ənənələrin və ya batil dəyərlərin və ya batil fikirlərin və etiqadların doğruluğunu isbat etmək üçün özündən "əqli dəlillər" gətirir.

Yunan ağlının tarixinə baxsaq, onların əxlaqsızlığın rəsmiləşdirilməsini, pozğun qadınları və cinsi azlıqları antik yunan cəmiyyətində necə müdafiə etdiklərini görə bilərik. Bu cür rəzil halları bütün imkanları ilə müdafiə edənlər elə o cəmiyyətin "böyük" fəlsəfəçiləridir[161].

Həmçinin romalıların "Qladiator döyüşləri"ndə insanları yırtıcı heyvanlarla ölənə kimi döyüşdürmələri də - orada olan vəhşilik, sərtlik və şiddət heç kəsə gizli deyil – insan ağlının seçimi idi. Buna baxmayaraq, "romalı ağlı" bunu məsum bir əyləncə, nüfuzlu romalıları əyləndirmək üçün icazəli bir əyləncə və məşğuliyyət hesab edirdi[162].

Həmçinin cahiliyyə ərəblərinin qız uşaqlarını diri-diri basdırması, hindistanlı qadınların özlərini ərləri ilə birgə yandırması, bütün bunlar qədim ərəb cahiliyyə dönəmində, qədim hindistan mədəniyyətində və hindistanın müqəddəs aristokratik adət-ənənələrində XIX-cu əsrin ortalarında ləğv edilənə kimi əqli və elmi dəlillərlə müdafiə olunan əməllərdən idi[163].

İnsan ağlı emosiyalardan və nəfsi istəklərlə qərar verməkdən xali deyil. O zaman necə ola bilər ki, o bu qədər haqq-ədalət meyarı varkən hər mənbədən önə çəkilsin?

**Bəşəriyyət bütün hallarda ağılı ilə hökm vermir, bunu iki əqli dəlil ortaya qoyur:**

---

[161] Əqlanilik - hidayət, yoxsa azğınlıq? səh. 58. (ərəbcə). Müasir reallıqda qadın azadlığı məsələsi. səh. 250 və sonrası. (ərəbcə).

[162] Öncəki mənbə. səh. 58.

[163] Din və Mədəniyyət arasında. səh. 57-58. (ərəbcə).

*Birincisi*: az qala bəşər övladının uzun tarixi boyunca iki ağılın bir təsəvvürün bütün məsələləri haqqında bir-birinə uyğun gəlməsi mümkünsüz olsun. Xəyali bir formada olsa da, ağılların əqlani təsəvvürü bir araya gələ, uyğun gələ bilər. Çünki haqq birdir, çoxalmır.

*İkincisi*: bəşər övladının davamlı bir məşğuliyyət içində olduğu çaşqınlıq meyli var; o ağılsız müharibələrə, şəhvət və nəfslərinə dəlicəsinə tabe olanlara baxın. Əgər bəşəriyyət bütün vəziyyətlərdə ağılın çağırışına cavab versəydi, onda dəlilik üz verməz, batilə meyil salmaz və çaşqınlığa düşməzdi[164].

*<u>O zaman əvvəldəki sualımıza qayıdırıq: kimin ağlı ilə hökm verməliyik?</u>*

Ümid edirəm ki, bundan sonra bizə yalnız ağılın zəifliyini və ağıl mövzusuna doğru metodla yanaşmaq gərəkdiyini etiraf etmək qalır. O zaman hökm verməsi gərəkən ağıl:

- O ağıldır ki, istiqamət üzərində olub düzgün metodlara baş vurur, getdiyi yolda əyriliklər yoxdur.
- O ağıl ki, müasir təzyiqlərə məruz qalmayan, İslama zidd olan metodlardan təsirlənməyən, dünya və dinə, ağıla və qəlbə, hissə və təslimiyyətə, sağlam şəriət dəlillərinə tabe olur.
- O ağıl ki, gözünü qamaşdırıb onu cəzb edən, öz balansını itirib yuxugətirən dərmana çevrilmiş terminlərlə özünü aldatmır və o terminləri təkrar-təkrar deyib saxtalığına qanuni don geyindirmir.
- O ağıl ki, nəfsə tabeçilik və üstünlük nümayiş etdirmir, nə özünə tərəf məcburi qəbul etdirmir, nə

[164] Əqlanilik – hidayət, yoxsa azğınlıq? səh. 59. (ərəbcə). əl-Aqləniyyun – Əfraxul-Mu`təzilə əl-Asriyyun. Əli ibn Həsən əl-Əsəri. səh. 40.

öncədən təyin edilmiş təməllərə baş vurmur və dəlilləri dəyişdirmək üçün onu əyən metodlara yönəlmir, nə də məcburi şəkildə dəlilləri səhv şəkildə yozmur.

- O ağıl ki, dəlillərdə sələfin yolundan kənara çıxmır, əsrə uyğun bir şəkildə məsələlərə yanaşır, problemləri həll edir, təkliflər verir və bütün bunlarda şəriətə də müxalif olmur.
- O ağıl Allahın təmizə çıxardığı ağıl olmalı, vəhydən özünə yol götürməli, azuqəsi isə gərək olduqda sağlam dəlil və arqumentlər olmalıdır[165].

[165] Öncəki mənbə. səh. 59-60.

## Bir şübhəyə cavab: "Hədislər ağıla ziddir, belə olduqda onları necə qəbul edə bilərik?"

**Şübhə belədir:** "Hədislər ağıla ziddir. Belə olan halda biz necə onunla əməl edə bilərik?"

**Şübhənin cavabı:** *Bu məqamda cavabdan əvvəl bəzi sualları vermək yerinə düşər:*

1 – "Hədislərin ağıla zidd olması" iddiasını edənlər bununla bütün hədisləri nəzərdə tuturlar, yoxsa bəzilərini?

2 - Yoxsa onlar yalnız mənasını hədisin zahirinə baxdıqda birbaşa anlaya bilmədikləri hədisləri bu qavrama daxil edirlər? Yəni ağıla zidd gəldiyini buna görəmi iddia edirlər?

3 - Bu iddianı edənlər səhih (mötəbər) hədisləri, yoxsa uydurma hədisləri nəzərdə tuturlar?

4 - Görəsən, bu iddianı edənlərin hədis elmindəki savadı hansı səviyyədədir?

Əgər bunu deyən bütün hədisləri nəzərdə tutursa, deməк ki, o şəxsin öz ağlında problem var. Çünki əgər bu iddiaçı uydurma hədisləri qəsd edirsə, bilsin ki, elə uydurma hədisləri biz də qəbul etmirik.

Alimlər tarix boyu uydurma hədisləri bəyan ediblər. Əgər söhbət zəif hədislərdən gedirsə, belə hədislərlə əməl olunmur, lakin bunda bu mövzumuzda kifayət etməyəcək uzun təfsilat və izah var.

Əgər o səhih, mötəbər hədisləri nəzərdə tutursa, onda bu məsələdə əsas olan budur ki, peyğəmbərdən ﷺ sabit, mötəbər yolla gələn hər bir məlumat sağlam ağıla və

sağlam insan təbiətinə uyğundur.

Əlǝlxüsus da, əgər bu məlumatların peyğəmbərə gedib çatması mötəbər elmi yollarla isbat olunursa, mövzuda mübahisə edənlərin niyyətlərini şübhə altına almaq da mümkündür.

Çünki təkcə savadsızlıq məsələsi deyil. Həmçinin əgər inkarçı müsəlman olduğunu iddia edirsə, bir müsəlmanın hədislərə qərb təfəkküründən yaranan "şübhəçilik" nəzəriyyələrinə, əqlanilik mədrəsəsinə uyğun münasibət bildirməsi qəbuledilməzdir[166].

Əsas budur ki, peyğəmbərdən ﷺ mötəbər elmi yolla bizə gəlib çatan hər bir məlumat ağıla və fitrətə uyğundur. Mümkün deyil ki, səhih hədis ağıla hansısa bir halda müxalif olsun. Sadəcə bu kimlərinsə hədisə yanaşma metoduna əsasən elə görünə bilər.

Məsələ burasındadır ki, bəzən peyğəmbər ﷺ hədisində ağılları heyrətləndirəcək bir şeydən xəbər verir ki, ağıl öz zəifliyindən və acizliyindən bu xəbəri doğru qavraya bilmir. Lakin bu xəbəri araşdırdıqda görürsən ki, bu xəbər heç də ağılın mümkünsüz hesab etdiyi və qəbul etmədiyi bir şey deyildir.

Böyük İslam alimi şeyxülislam ibn Teymiyyə (Allah ona rəhmət etsin) demişdir:

*"Peyğəmbərdən ﷺ gəlmiş hər bir (sabit) xəbər haqdır*

[166] Hədis İnkarçılarının Məşhur Şübhələrinə Cavablar. Sahib Əsədov. 11-ci şübhəyə cavab. səh. 83.

*və bir-birini təsdiqləyir. Bu həm də yaradılmışların fitrətinə uyğundur…İnsanlarda olan ağıl və fitrət aydın ağıla, sağlam məqsədə, doğru fitrətə və peyğəmbərdən ﷺ sabit olan sağlam nəqlə (rəvayətə) müxalif deyildir. Bu sadəcə kiminsə zənninə görə müxalif görünə bilər. Kim batil nəqlləri (rəvayətləri) təsdiqləyər və ya bu səhih nəqllərdən lazım olmayan mənanı anlayar, ya da nəyinsə əqli məsələlərdən olduğunu zənn edərək buna etiqad edərsə, bu əqlə tabeçilik deyil, cahilliyə uymaqdır. Ya da bu özündən qəribə yol ixtira etməkdir ki, bu da bir müsibətdir. Əgər bu səhih bir nəqlə zidd olarsa, belədir, əks təqdirdə (səhih, mötəbər rəvayət olmazsa) açıq-aydın ağıla, ya da sağlam kəşfə zidd olar. O fikirləşər ki, bu rəvayət peyğəmbərin dediyidir, əslində isə bu onun adından uydurulmuşdur (mötəbər rəvayətlər isə belə deyildir). Ya da bəzən (mötəbər) rəvayətdəki hansısa bir sözü götürüb öz ağlından çıxardığı hansısa batil mənaya yozur. Əslində isə bu söz onun nəzərdə tutduğu mənaya dəlalət etmir"*[167].

Həmçinin o demişdir: *"Açıq-aydın ağıla müxalif olan şey batildir. Quranda, Sünnədə və icmada isə batil yoxdur. Lakin bu mənbələrdə bəzi sözlər vardır ki, onu bəzi insanlar başa düşmürlər. Ya da onlar bu sözləri batil mənalara yozurlar. Elə müsibət də onlardandır, Quran və Sünnədən deyil"*[168].

Böyük İslam alimi İbnul-Qeyyim (Allah ona rəhmət etsin) demişdir: *"Elçilər - Allahın onlara salavatı və salamı olsun - ağılların mümkünsüz hesab etdiyi və qətiyyən*

---

[167] ər-Risələ əl-Arşiyyə.İbn Teymiyyə. səh. 35.
[168] Məcmuul-Fətəva. İbn Teymiyyə. 11/490.

*mümkün olmayacaq şeyləri xəbər verməmişlər. Əksinə,* ***onların xəbərləri iki qismdir****:*

***Birincisi:*** *O xəbərlər ki, ağıllar və fitrətlər o xəbərlərin doğruluğuna şahidlik edir.*

***İkincisi:*** *Ağıllarını mücərrəd olaraq anlaya bilmədiyi şeylər. Necə ki bərzəx aləminin və axirətin təfsilatı barədə gələn qeybi xəbərlər, savabın və cəzanın təfsilatları vardır. Bunlar barədə verilən xəbərlər heç də ağıllara görə mümkünsüz deyildir. Hər bir xəbər ki, ağılla mümkünsüz olduğu zənn edilir, bu xəbərlər iki haldan kənara çıxmır: Ya o xəbər sahibinə nisbət olunan yalandır, ya da xəbəri qəbul edən ağıl fəsadlı anlamışdır. Bu isə xəyali bir şübhə sayılır. Bu şübhəyə düşən elə bilir ki, düşündüyü xəyal ağıllı və aydın fikirdir"*[169]*.*

Bizim mövzumuz uydurma hədislər barədə deyil, əqlanilərin inkar etdiyi səhih hədislərdir ki, guya onlar bu hədislərin ağılla uyğun gəlmədiyini deyirlər. Halbuki səhih hədisləri anlamamaları onların ağıllarının zəifliyi və acizliyidir. Çünki yuxarıdakı nəqllərdə də qeyd olundu ki, Allahın elçiləri ağılların anlamaqda çətinlik çəkdiyi xəbərləri verə bilərlər. Bu o demək deyil ki, həmin xəbər doğru deyildir. Eləcə də əqlanilərin qiyamətin əlamətləri barədə olan səhih hədisləri inkar etmələri heç də bunun ağılla uyğun gəlmədiyi üçün deyil, sadəcə onlar hədisləri mötəbər mənbə hesab etmədikləri üçün bu xəbərləri inkar etmişlər. Yoxsa Quranda da bu qəbildən ağılların tam dəqiqliklə təsəvvür edə bilmədiyi xəbərlər vardır. Lakin

[169] Kitəbur-Ruh. İbn Qeyyim. səh. 62; Savaiqil-Mursələ. İbn Qeyyim. 3/829-830.

onların ağıl barədə qoyduqları qaydalar ümumən batildir. Çünki hədisləri bu qayda ilə inkar edən əqlanilər sabah eyni qayda ilə Qurana da şəkk edə bilərlər. Şəkk edirlər də. Çünki onlardan bəziləri, xüsusən də, müasir dövrümüzdə olanları guya ateistlərə rədd vermək üçün “ağlın qəbul etmədiyi, ağıla zidd olan səhih hədislər” anlayışını irəli sürürlər və bu minvalla yüzlərlə hədisləri inkar edirlər. Halbuki onlardan əvvəl hədis alimləri batil və uydurma hədisləri bəyan etmişlər. Əqlanilər isə şəriətdə elementar şeyləri bilmədikləri halda alimlərin yolunu tərk edib naqis ağıllarını hədislər üzərində hakim təyin etmişlər. Ona görə də onların bu batil qaydası əslində onları daha betər bəlalara sürükləyir. Qəlblərində ayaqlarını dində sabit saxlayacaq kifayət qədər elementar bilgiləri olmayanlar guya şəriəti müdafiə etmək adıyla özləri də bilmədən şəriəti inkar edirlər. Onların ağıl barədə qoyduqları bu batil qayda nə vaxtsa - Allah qorusun - onların dindən çıxmalarına da gətirib çıxara bilər. Uca Allah buyurmuşdur: **"Hər kəs doğru yol ona bəlli olduqdan sonra Peyğəmbərə qarşı çıxsa və möminlərin yolundan başqa bir yolla getsə, onu üz tutduğu yola yönəldər və Cəhənnəmdə yandırarıq. Ora nə pis dönüş yeridir".** (Nisa. 115).

Əqlanilərin bu ayədə qeyd olunan kimi bu "ağılı şəriətdən önə çəkmək" yolu ayədə peyğəmbərə ﷺ qarşı çıxmaq və möminlərin yolundan başqa yolla getmək ifadəsilə bütün İslamın Muhəmməd peyğəmbərin ﷺ funksiyasının və missiyasının ancaq öz dövrünə aid olmasını deyənləri ehtiva etmiş olur.

Həmçinin insan qeybi məsələləri öz ağılı ilə yozsa,

yəni vəhyə tabe olmadan qeybi yozsa, bu gün hədislərdəki qeybi xəbərləri inkar edirsə, sabah da Qurandakı qeybi xəbərləri inkar edə bilər. Çünki ağıllar müxtəlifdir. Ola bilsin ki, sən bir şeyi qəbul edəsən, başqası qəbul etməsin və ya bunun əksi olsun. O zaman müxtəlif olan ağılları necə Quran və sünnəyə hökm verən (meyar kimi) təyin etmək olar? İslam şəriəti ağıla yüksək yer vermişdir, bir çox ayələrdə "**məgər düşünmürlərmi**?", "**ola bilsin ki, düşünəsiniz**", "**bunda ağıl sahibləri üçün ibrətlər vardır**" və s. ağıl və düşünmək barədə danışılmışdır.

İslam dini ağıla yüksək dəyər versə də, ağlı hər şeydə həqiqət meyarı etməmişdir. Çünki ağıl kainatdakı hər şeyi dərk edə bilmir.

Ona görə də insan ağıla əsaslanmaqda həddini aşmaqdan çəkinməli və şəriətdə bir şeyi anlamadığı təqdirdə bilənlərə müraciət etməlidir. Hər bir şeydə həddi aşmaq zərərlidir. Necə ki su öz miqdarında faydalı olsa da, selə və sunamiyə döndüyü zaman böyük zərərlər verir. Eləcə də hər şeydə orta ölçülü olmamaq fəsad verir.

İnsanın ağlı qocalanda zəifləyir, bəzən gənc ikən doğru mövqe tutmaqdan yayınır, bəzən insan hislərinə qapılıb qəzəbləndiyi zaman ağılı ilə deyil, emosiyaları, hisləri ilə hökm vermiş olur. Ona görə də şəriət bu naqislikləri nəzərə alaraq ağıla lazımi qiyməti versə də, ağılı bizə ilk mənbə etməmiş, Quran və sünnədən önə çəkməmişdir.

Allah hüccət qaldırmaqda ağılla nəqli cəm edib[170].

[170] Yəni həm ağıla yer verib, həm də mötəbər dəlillərə yer verib. Hər ikisinin bir-birinə uyğun ola biləcəyini elçiləri vasitəsilə göstərib.

Nəqli (rəvayət yoluyla) olan səhih dəlillər ağıla necə zidd ola bilər ki, Allah tərəfindən məxluqlara hər ikisiylə birgə hüccət çatdırılıb?! Məsələn, Allah Quranda həm əqli, həm də nəqli (rəvayət yoluyla olan) dəlili bu ayədə cəm etmişdir: **"Onlar deyəcəklər: "Əgər biz dinləsəydik və ya anlasaydıq alov şölələri saçan od sakinlərinin içində olmazdıq!"** (Mülk. 10).

Ayədəki, **"dinləmək"** (eşitmək) nəqli dəlilləri eşitməyə dəlalət edir. Onlar nəqli dəlilləri inkar etdilər. **"anlamaq"** isə ağıl etmək, düşünmək, başa düşmək anlamındadır. Onlar mötəbər nəqli dəlilləri ağılları ilə düzgün qəbul etməyib bunun ağıla zidd olduğunu iddia edib, inkar etdikləri üçün cəhənnəm sakinləri olacaqlar.

Başqa bir ayədə də Allah əqli və nəqli dəlili bir arada qeyd etmiş və buyurmuşdur: **"Onların qəlbləri var, onunla anlamazlar"** bir cümlə sonra isə buyurur: **"qulaqları var, onunla eşitməzlər".** (əl-Əraf, 179)[171].

Nəql (nəqli dəlillər) Allahın nazil etdiyidir, ağıl da məxluqdur. İnkar edənlərin iddia etdiyi "şəriət ağıla müxalifdir" sözüylə razılaşmaq o deməkdir ki, guya Allah ağılda nə olduğunu bilmir və bilmir ki, ağıla ona müxalif olan bir şeylə xitab edib, ya da demək istəyir ki, Allah ağılda nə var olduğunu bilsə də, sadəcə bəyanının naqis olduğuna görə və yaxud qəsdinin pis olduğuna görə ağıla elə bir şeylə xitab edib ki, bu ağıla zidd olsun. Bundan da belə çıxır ki, kim desə ki, səhih hədislər ağıla ziddir, o şəxs Allaha tənə etmiş olur. Bu tənə ya Allahın elminə, ya

[171] Bu ayədə "anlamaq" əqli dəlilə, "eşitmək" isə (rəvayətə) nəqlə dəlildir. Onlar nə ondan, nə də bundan yararlanmazlar.

qəsdinə, ya da bəyanına edilmişdir. Bütün bunlardan Allaha sığınırıq!

Əqlanilərdən olan quranilər din düşmənlərinin tənqidinə məruz qalmış bəzi məşhur tarixi hadisələr barədə olan mötəbər hədisləri də guya "dini təmizə çıxartmaq" adıyla inkar etmişlər. Gəlin qeyd olunan məsələyə bəzi misallar çəkək:

**BİRİNCİ MİSAL: Buxaridə varid olmuş “uraniyyin” hədisi[172];** Müsəlman çobanları qətl edən iki şəxsin cəza olaraq şiddətli ölüm cəzasına düçar olmalarını inkar etmələri kimi. Halbuki bu hədis barədə şübhəyə cavab çox sadədir. Hədis isə səhihdir. Çünki ağıl da bunu təsdiqləyir ki, həmin şəxslərin peyğəmbəri ﷺ aldatmaları, onun etibarını qazanıb sonra iki çobanı öldürmələrinin günahı yüngül olmadığı kimi cəzası da yüngül olmalı deyildi. Peyğəmbər ﷺ onların mədələrindəki ağrıdan müalicə olunmaları üçün həmin çobanların yanına dəvə südü və sidiyi içmək üçün göndərmişdi. Onlar isə dərmanı içib şəfa tapdıqdan sonra çobanları işgəncə ilə öldürmüşdülər. Şübhəsiz ki, bir peyğəmbərə ﷺ və müsəlmanlara qarşı böyük bir xəyanətin cəzası şiddətli bir cəza olmalıydı. Həmçinin onlar artıq peyğəmbərə ﷺ qarşı döyüşən "muharib"[173] hökmünü almışdılar.

---

172 Bax: Səhih əl-Buxari. 3018.

173 **Müharib:** Qısa olaraq mənası "Quldurluq edənlər və ya silahla yol kəsənlər" deməkdir. Bu bir şər`i termindir, hədis və fiqh kitablarında "əl-Hirabə" fəslində keçən mövzulardandır. Elm əhli ittifaq etmişlər ki, mühariblik (quldurluq) ölkə xaricində silah çəkmək və yol kəsməkdir. (Fəthul-Qadir. 4/275; Haşiyətu ibn Abidin. 4/126; Haşiyətid-Dəsuqi. 4/348; Tuhfətul-Muhtəc. 8/4). Amma ölkə daxilində bu əməli edənin müharib termini ilə xitab olunub-olunmamasında ixtilaf etmişlər. İmam Malik ölkənin daxilində və xaricində quldurluğu eyni hesab etmişdir. (Şərhus-Sağir. 2/435). Əbu Hənifə ölkə daxilində olanı hirabə hesab etməmişdir. (Nihəyətul-Muhtəc. 8/4).

Əqlanilər isə bu mənanı başa düşmək yerinə həmin hədisi inkar etmiş, İslamda sanki xəyanətkarlara cəza verilə bilməzmiş kimi özləri məntiqsizlik və ziddiyyət yolunu seçmişlər. Yəni qeyd olunan hədis həm səhihdir, həm də sağlam ağıla da zidd deyil. Deməli, problem hədisdə deyil, onların başa düşməsindədir. Qaldı ki dəvə südü və sidiyinin qatılıb içilməsinin dərman kimi istifadəsinə, bunun bəzi xəstəliklərin müalicəsində necə faydalı olması barədə qədim və müasir alim və həkimlərdən çoxlu dəlillər gətirmək olar ki, biz bu mövzuda dəlilləri nəql edib şübhəyə cavabın məcrasından çıxıb söhbəti uzatmaq istəmirik.

**İKİNCİ MİSAL**: Peyğəmbər ﷺ bir hədisində qoyun saxlanılan yerdə namazın icazəli olduğunu bildirmiş, amma dəvə saxlanılan yerdə isə namaz qılmağı qadağan etmişdir.

**Hədis belədir:** ***"Qoyun tövləsində namaz qıla bilərsiniz, dəvə tövləsində isə namaz qılmayın. Çünki o, şeytanlardan yaranmışdır"[174].***

**Hədisin mənası:** *"Burada məşhur olan mənaya görə o demək deyil ki, dəvə həqiqi mənada şeytanlardan yaranmışdır. Bunun mənası odur ki, dəvə əti yemək insanda kin-küdurətli (nifrət dolu) şeytani qüvvə əmələ gətirir. Bu əti yeyən (insan) əti yeyilən dəvəyə bənzədilmişdir. Çünki dəvə elə yaradılmışdır ki, o, nifrət və əziyyət etməkdə cinlərə bənzəyir. Ona görə də onun ətini yedikdə dəstəmaz almaq lazımdır. Onun tövləsində də namaz qılmaq qadağan edilmişdir"[175].*

---

[174] Sünən İbn Macə. 769; səhihdir.

[175] Bax: Məcmuul-Fətəva. İbn Teymiyyə. 21/10; 20/523 və Haşiyətu ibn Abidin. 1/380.

**ÜÇÜNCÜ MİSAL**: **Buna da peyğəmbərin ﷺ möcüzələrini və bu barədə olan səhih hədisləri** misal gətirmək olar. Biz Allah peyğəmbərinin ﷺ möcüzələrinə iman gətirmişik.

Məlumdur ki, Quranda peyğəmbərlərin möcüzələri var. Peyğəmbərin ﷺ hədislərdəki möcüzələrini inkar edənlər gərək onda Qurandakı digər möcüzələrini də inkar etsinlər.

Məgər bu möcüzələrin hamısı Allah tərəfindən deyilmi? Hədislərdə Məhəmməd peyğəmbərin ﷺ merac səfərini (peyğəmbərin səmaya yüksəlməsini) inkar edənlər, onda Qurandakı digər peyğəmbərlərin ﷺ möcüzələrini də inkar etməyə məcburdurlar.

Əqlanilərdən olan quranilər isə Muhəmməd ﷺ peyğəmbərin göyə yüksəlməsini inkar edirlərsə, onda İsa peyğəmbərin (əleyhissalam) də ən-Nisa 158-də qeyd edilən göyə yüksəlməsini inkar etməlidirlər.

Allah həmin ayədə belə buyurur: **"Əksinə, Allah onu Özünə tərəf qaldırmışdır".** (ən-Nisa, 158).

"Quranilər" möcüzələrin Allah tərəfindən olduğunu qəbul edirlərsə, onda mötəbər hədislərlə Quranı fərqləndirib eyni qəbildən olan möcüzələri inkar etməli deyillər.

Əgər mötəbər hədislərdəki möcüzələri “ağıla uyğun deyil” bəhanəsilə inkar edirlərsə, onda ən birinci Quranda keçən "İsanın quş düzəldərək onu üfləyib uçurmasını, Allahın iznilə ölüləri diriltməsini, Musanın ilana çevrilən əsasını, Salehin qayadan dəvə çıxarmasını və s. kimi bir çox möcüzələri də gərək inkar etsinlər. Əslində isə ağıl

bunların heç birini inkar etmir. Çünki bu boyda böyük kainatı yaradan Allah balaca bir əsanı ilana çevirməyə də qadirdir.

Ona görə də fironun sehrbazları onu (Musanın möcüzəsini) dərhal qəbul etdilər. Çünki onlar bunun Allahdan olduğunu başa düşdülər.

**<u>Möcüzə isə:</u>** *"Başqa insanların edə bilmədiyi və yalnız peyğəmbərlərə Allah tərəfindən verilmiş, ilahi qüvvə olmadan ərsəyə gəlməyən xüsusi qeyri-adi bir haldır ki, bu bir peyğəmbərin sadiqliyinə və Allah tərəfindən göndərilməsinə dəlalət edir"*[176].

Deməli, möcüzəni Allahın köməyi olmadan heç bir peyğəmbər edə bilməz. Ona görə də bu qeyri-adi hal, ağılları heyrətləndirən möcüzə bir peyğəmbərin sadiqliyinə dəlalət etməlidir. Yəni bu məsələdə insanın zəif ağlına və aciz idrakına tabe olunsaydı, onda ilahidən gələn şəriət olmazdı.

İnsanın əzaları məhdud gücə malik olduğu kimi insanın ağlı və idrakı da məhdud gücə malikdir. Göz bir neçə yüz metrdən o yanı görmür, qulaq bir neçə yüz metrdən o yanı, bəzən isə bir neçə on metr məsafədən o yanı eşitmir.

Qol bir neçə kq-dan artıq yük qaldıra bilmir. Ağıl və idrak da belədir. İnsan bəzi şeyləri dərk edə bilmir.

İnsan idrakının fövqündə olan böyük məsələlər var ki, insan idrakı onu dərk etməyə, qavramaya bilər. Kainatda insanların əsrlərdir axtardığı və hələ də dərk edə bilmədikləri məsələlər çoxdur. Bunu həm müsəlman alimlər, həm də qeyri müsəlman alimlər təsdiqləmişlər.

---

[176] Bax: əl-Ənvar fi Şəmailin-Nəbiyyil-Muxtar. 1/29.

Deməli, ağıl hər məsələdə meyar deyil. Əgər ağıl hər məsələdə meyar deyilsə, onda insan dərk etmədiyi qeyb aləmi, axirət dünyası, Allahın varlığı, möcüzələr və s. kimi çoxlu məsələlərdə öz ağlı və idrakını meyar edə bilməz.

İnsanın ağlının kainatı dərk etməsinin məhdud olmasını qeyri müsəlman alimləri də təsdiqləyiblər. Ona görə də Kant[177] və başqaları əslində "təcrübi elm mədrəsəsini" bir mənbə kimi irəli sürərkən bunu insan ağlının kainatdakı həqiqətləri anlamaqda məhdud (yetərsiz) və qüsurlu olduğundan dolayı məqbul hesab etmişdilər.

Seyyid Sabiq[178] ağılı önə çəkənlərin əsaslarını tənqid edərkən demişdir: *"Bəşər övladının ağlı nə qədər zəka, güc və idrak qazansa da, varlıqların həqiqətini dərk etməkdə olduqca qüsurlu və acizdir.*

*Bu ağıl insan vücudunu, psixologiyasını tanımaqda acizdir. Belə ki bu məsələ elmdə və fəlsəfədə ən qəliz mövzulardan biri olaraq qalmaqdadır.*

*İnsan işığın həqiqətini bilməkdə acizdir. İşıq isə ən aydın və ən aşkarda olan bir şeydir. İnsan maddənin və onun təşkil olunduğu zərrələrin həqiqətini bilməkdə acizdir. Maddə isə insanda ən sabit mövcud şeydir.*

*Beləliklə, elm kainatın və təbiətin bir çox həqiqətləri qarşısında aciz durumda qalaraq son sözü deməyi bacarmır"*[179].

Əqlanilərin inkar etdikləri digər səhih, mötəbər

---

[177] Emmanuel Kant (1724-1804): O, alman tənqidi fəlsəfəsinin qurucularından olmuşdur. Təhsili əsnasında Leibniz və Volfdan çox təsirlənmişdir. Əvvəllər fizika və astronomiya haqqında əsərlər yazsa da, 1770-ci ildən sonra Hume Rousseaudan təsirlənərək tənqidi fəlsəfəsini inkişaf etdirmişdir. O, şübhəçiliyə də meyl etmişdir.

[178] Seyyid Sabiq (1915-2000): Məşhur "Fiqhus-Sünnə" kitabının müəllifidir. Ölkəmizdə tanınan kitabı əsasən budur. "əl-Əzhər" universitetindən məzun olmuşdur. Bir sıra elmi araşdırma və kitabların müəllifidir.

[179] Naqd Usul əl-Aqləniyyin. 2/42.

hədislərin də düzgün əqli izahları vardır. Lakin onlar insan ağlında naqislik olduğunu, bəzi şeylərin hikmətini insanın dərhal bilmədiyini, hətta insanın bəzi məlumatları, ümumiyyətlə, qavraya bilmədiyindən qafil qalaraq dərhal anlamadıqları məlumatları inkar etmişlər.

Onlar "itaət" sözünün mənasını da öyrənməlidirlər. Məsələn; Quranda **"Allaha və Elçisinə itaət edin"** (Ali İmran. 132) deyildiyi zaman deyilmədi ki, "Allaha və sonra ağlınıza" itaət edin və ya deyilmədi ki, Allaha itaət edin, peyğəmbərə isə "ürəyiniz istəyəndə" itaət edin.

Həmçinin deyilmədi ki, Allaha itaət edin, peyğəmbərə isə ağlınız dərk etmədiyi, başa düşmədiyiniz şeylərdə itaət etməyin. Quranda belə bir şey yoxdur. Bu üslub nəfsinə və havasına tabe olanların üslubudur.

Uca Allah buyurur: **"Qəlbini Bizi anmaqdan xəbərsiz etdiyimiz, nəfsinin istəklərinə uyan və işləri səmərəsiz olan bir kimsəyə itaət etmə!"** (əl-Kəhf, 28).

Başqa ayədə buyurur: **"Nəfsin istəyinə uyma, yoxsa o səni Allahın yolundan azdırar".** (Sad, 26).

Allahdan istəyirəm ki, bizi nəfslərimizin şərrindən qorusun və bizi bir an belə nəfsimizlə baş-başa qoymasın!

# Son Söz

Ümid edirəm ki, oxuculara təqdim olunan bu "Əqlanilik – İslamı təhrifə aparan yol" adlı kitab İslamda ağılın yeri, fəziləti, istifadə edildiyi metodlar, ağıl mövzusunda həddini aşmış tayfalar və bəzi şübhələrə cavablar olaraq faydalı olacaqdır. Mövzu çox geniş mövzu olsa da, oxucuların müxtəlif təbəqələrdən olması ehtimalı nəzərə alınaraq xüsusi mövzularda yersiz dərinliklərə getməkdən maksimum çəkinməyə çalışmışam. Bu cür mövzuların müzakirəsi şəkk yoxdur ki, cəmiyyətimiz üçün də faydalıdır. Çünki bir çox dini və elmi mövzularda ifrata varma halları mövcud olduğu kimi, "ağıl" məsələsində də ifrata varıb onu dində olması gərəkən məqamdan daha yüksəklərə qaldıranlar var. Bu kitabın hədəflərindən biri də bu ifratçılığı bəyan etmək və bu məsələdə orta yolu göstərməkdir. Müvəffəqiyyət isə Allahdandır.

Əslində bu mövzu ilə bağlı danışılası məsələləri çoxalda və dərinləşdirə də bilərdik. Lakin oxuculara bu həcmdə bir kitabın təqdim edilməsini daha məqsədəuyğun gördüm. Kitabda toxunulmayan və ya üzərindən səthi keçilən bəzi mövzular məhz müxtəlif düşüncəli oxucularımızın olmasına görədir. Araşdırma əsasında obyektivliyi maksimum qorumağa çalışdım. Nə qədər müvəffəq olduğumu isə deyə bilmərəm! Həmçinin bu mövzuda yazılmış çoxsaylı mənbələrə müraciət etməklə ən mühüm gördüyüm məsələlərə toxunmağa çalışdım. Allah faydalı etsin! Sonda Peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə və səhabələrinə Allahın salavatı və salamı olsun!

***Yazdı:*** *Beynəlxalq Mədinə İslam universitetinin doktorantura tələbəsi Sahib Əsədov. Mədinə. 2024.09.08.*

# İstifadə edilmiş ədəbiyyat

1 – əl-Aqləniyyə. Hidəyə əm Ğivayə? Abdussələm əl-Bəsyuni. Darul-Vafə. 1-ci nəşr. 1991.
2 – Tacul-Arus. Əbül-Feyz Muhənnəd ibn Muhəmməd ibn Əbdürrəzzaq əl-Hüseyni. Dərul-Hidayə. 1965.
3 – Əbül-Hüseyn Əhməd ibn ibn Faris ibn Zəkəriyyə əl-Qəzvini ər-Razi. Məqayisul-Luğat. Təhqiq: Əbdüssalam Muhəmməd Harun. Darul-Fikr. 1979.
4 – Mucəmul-Udəbə - İrşadul-Ədib ilə Mərifətil Ədib. Şihabüddin Əbu Abdullah Yaqut ibn Abdullah ər-Rumi əl-Həməvi. Təhqiq: İhsan Abbas. 1-ci nəşr. Beyrut. 1993.
5 – Məcmuul-Fətəva. İbn Teymiyyənin Fətvalar toplusu. Darul Arabiyyə. Beyrut. 1-ci nəşr. 1398-ci hicri il.
6 – Movqıful-İtticəh əl-Aqləni əl-İsləmi əl-Muasır minən-Nass əş-Şər`i. Dr. Səd əl-Uteybi. Fostat nəşr evi. 3-cü nəşr. Qahirə. 2021.
7 – ət-Təyyəratul-Vafidəti va Movqıful-İsləm minhə. Prof. Mahmud Muhəmməd Məzruah. (Əqidə və dinlər haqqında araşdırmalar silsiləsi: 4; Darul-Kutub əl-Mısriyyə. Qahirə. 2019.
8 – əl-Ədillətul-Aqliyyətin-Naqliyyəti alə Usulil-İtiqad. Suud əl-Ureyfi. "Aləmil-Favaid" nəşr evi. Məkkə. 1-ci nəşr. 1419-cu hicri il.
9 - əl-Cəmiu li Əhkəmil-Quran. Əbu Abdullah Muhəmməd ibn Əhməd əl-Ənsari əl-Qurtubi. Beyrut. 1985.
10 – Sünən Əbi Davud. Süleyman ibnil-Əş`as ibn İshaq ibn Bəşir ibn Şəddad ibn Amr əl-Əzdi.Təhqiq: Muhəmməd Muhyiddin Əbdülhəmid. Beyrut. 1392-ci hicri il.
11 – Sünən İbn Macəh. Əbu Abdullah Muhəmməd ibn Yəzid əl-Qəzvini. İhya kutubil-Arabiyyə nəşr evi. 1388-ci

hicri il.
12 – Sünən Tirmizi. əl-Cəmiul-Kəbir. Əbu İsa Muhəmməd ibn İsa ət-Tirmizi. Təhqiq və qeydlər: Bəşşər Avvad. 1-ci nəşr. Beyrut. 1996.
13 – İmam Əhməd ibn Hənbəlin "Müsnəd" əsəri. Təhqiq: Şüeyb əl-Arnavut, Adil Mürşid və başqaları. "ər-Risələ" müəssəsəsi. 1-ci nəşr. 2001.
14 – Sahihul-Cami. Muhəmməd Nasiruddin əl-Albani. Nəşr edən. Züheyr əş-Şəviyş. 3-cü nəşr. 1988.
15 – əl-İcma". İbnul-Munzir. Təhqiq: Fuad Əbdül-Mun`im. "əl-Müslim" nəşr evi. ər-Riyad. 1-ci nəşr. 1425-ci hicri il.
16 – "əl-Muğni". İbn Qudamə. Təhqiq: Abdulla ət-Türki və Əbdül-Fəttah əl-Hulv. 12/15. "əl-Hicr" nəşr evi. Qahirə. 1410-cu hicri il.

17 - Səhih əl-Buxari. Muhəmməd ibn İsmail əl-Buxari. Darus-Sələm. ər-Riyad. 1-ci nəşr. 2016.
18 – Səhihi Müslim. Müslim ibnil-Həccac ən-Nisaburi. Təhqiq: Muhəmməd Fuad Əbdülbaqi. Beyrut. 1955.
19 – Prof. dr. Saleh Sindi. Məalim fi Mənzilətil-Aqli ində Əhlis-Sünnə vəl-Cəmaat. Qeyd: Kitabçanın əsası bu alimin "Ağılın İslamdakı yeri" haqda olan mühazirəsindən götürülmüşdür.

20 - ən-Nubuvvət. İbn Teymiyyə. Səh. 114. əl-Kutub əl-İlmiyyə nəşriyyatı. Beyrut. 1405-ci hicri il.
21 – Dər`u Təarudil-Aqli bin-Nəql. İbn Teymiyyə. Təhqiq: Muhəmməd Rəşad Səlim. Darul-Fadilə. ər-Riyad. 2008.
22 – "Mucəmul-Kəbir". Əbül-Qasim Süleyman ibn Əhməd ət-Təbərani əş-Şami. Təhqiq: Həmdi əs-Sələfi. 1-ci nəşr. 1994.
23 – "Səhih Hədislər toplusu". Silsilətul-Əhadis-əsSahiha. İmam Nasiruddin Albani. Məktəbətul-Məarif. 1-ci nəşr. ər-Riyad. 2002.

24 – ər-Raddu Aləl-Mantıqiyyin. İbn Teymiyyə. "Tərcüman əs-Sünnə" idarəsi. 2-ci nəşr. Lahor. 1396-cı hicri il.
25 – Cə`miul-Bəyan fi Təvili əl-Quran. İbn Cərir. "ər-Risələ" müəssisəsi. 1-ci nəşr. Beyrut. 1420-ci hicri il.
26 – Şəhristani "Miləl və Nihəl". Muəssəsətul-Hələbi. 2021.
27 – "Tahaviyə Əqidəsi"nin şərhi. Sədrəddin Muhəmməd ibn Əlaəddin Əli ibn Muhəmməd ibn Əbil-İzz əl-Hənəfi. Təhqiq: Əhməd Şakir. 1-ci nəşr. 1418-ci hicri il.
28 – Mötəzilə. Zühdi Həsən Cərullah. 1990.
29 – Tərixul-Məzəhib əl-İsləmiyyə. Muhəmməd Əbu Zühra. Darul-Fikr əl-Arabi. Qahirə.
30 – əl-İtticəhətul-Aqləniyyə əl-Hədisə. Prof. Nasir Əbdülkərim əl-Aql. səh. 42. Darul-Fadilə. ər-Riyad. 1-ci nəşr. 1422-ci hicri il.
31 – Mənəhicud-Dəvət vət-Təyyərat əd-Diniyyə vəl-Fikriyyə fil-Aləmil-Arabi. Əbdürrəhim əl-Muğazzəvi. Darul-Hadara. 1-ci nəşr. 2019.
32 - Mənəhicul-İstidləl alə məsəilil-Aqidə əl-İsləmiyyə bi-Misr fil-Asril-Hədis. Dr. Əhməd Əbdür-Rəhim. Qahirə universitetinin "Darul-Ulum" fakultəsində müdafiə edilmiş doktorantura dissertasiyası. 2-ci nəşr. Xubar. 2018.
33 – ət-Təyyərat əl-Vafidə va Movqiful İsləm minhə. Prof. Mahmud Məzruah. 1-ci nəşr. Qahirə. 2015.
34 – İbn Qeyyim. "əs-Savaiq əl-Mursələ aləl-Cəhmiyyə vəl-Muattılə". Təhqiq: Əli ibn Muhəmməd əd-Dəxil. 1-ci nəşr. 1408-ci hicri il.
35 - "Naqd Usulul-Aqləniyyin". Süleyman ibn Saleh əl-Xuraşi. "Ulumus-Sünnə" nəşr evi.
36 – "əz-Zahiratul-İstişraqiyyə va əsəruhə fid-Dirasət əl-İsləmiyyə". Səsi Səlim əl-Həcc. Cəzan. 2001.

37 - Azərbaycan dilinə tərcümə edilmiş müəllifi dr. Muhəmməd Fəthullah əz-Ziyadinin "Şərqşünaslıq, hədəfləri və vasitələri". Tərcümə: Sahib Əsədov. Mədinə. 2023.
38 – Həzə huval-İsləm. Faruq əd-Dəmluci. "əl-Kitəb əl-Cədid" nəşr evi. 1968.
39 – Şubuhətut-Təğrib fil-Ğazv əl-Fikri əl-İsləmi. Ənvər əl-Cundi. Dəməşq. 1978.
40 – Mustafa Mahmud "Allah" kitabı.
41 – əl-Vaciz fil-Məzəhib əl-Fikriyyə əl-Muasırah. Dr. Əhməd əl-Xaləf. Darul-İmam Muslim. 1-ci nəşr. Mədinə. 1437-ci hicri il.
42 – Zahiratu nəqdud-Din fi fikril-Ğarbiyyil-Hədis. Sultan əl-Umeyri. "Təkvin" mərkəzi. 2-ci nəşr. Xubar. 2018.
43 – Cohans Klomnek. (Abdullah əs-Suveydi). "Rududu uləməil-Ğarb alə əl-İlhəd əl-Muasır. "Dələil" mərkəzi. ər-Riyad. 2022.
44 – Sahib Əsədovun "Humanizm nədir? Allahsızlıq çağırışı, yoxsa insanpərvərlik?" adlı məqalə.
45 – Dinlər, Məzhəblər və Müasir Qruplar haqqında "Muyəssəra" ensiklopediyası. (ərəbcə) Darun-Nədvatul-Aləmiyyə. ər-Riyad. 2014.
46 – Tərixul-Fəlsəfə əl-Hədisə. Vilyam Rayt. Ərəbcəyə tərcümə: Mahmud Seyyid Əhməd. "Muminu Qureyş" nəşriyyatı. 1-ci nəşr. Beyrut. 2010.
47 – "Əqlin İslahı Haqqında Yazı". Spinoza. Ərəbcəyə tərcümə: Cəlaləddin Səid. 2020.
48 – Din və Siyasət haqqında Yazı. Spinoza. Ərəbcəyə tərcümə: Həsən Hənəfi. Yoxladı: Fuad Zəkəriyya. Amerika. 2020.
49 – Humanizm Haqqında Yazı. Con Luk. İordaniya. 2017.
50 – Yeni Ağılın Formalaşdırılması. Con Luk. Ərəbcəyə

tərcümə: Şövqi Cəlal. Yoxladı: Sidqi Hattab. Küveyt. 1984.
51 – Mustafa Mahmudun "Sirrul-Əazam" kitabı.
52 – ət-Tənvir. Durinda Outram. Darul-Fərabi. 2008.
53 – Təşkilul-Aql əl-Hədis. Krin Brinton. Ərəbcəyə tərcümə: Şövqi Cəlal. Yoxladı: Sidqi Hattab. Küveyt. 1984.
54 – Allah və insan. Karin Armstonq. Darul-Hasad. 1996.
55 – Müasir Fəlsəfənin hekayəsi. Zəki Nəcib Mahmud. Qahirə. 1936.
56 – Müxtəsər Fəlsəfə Tarixi. (ərəbcə) Bir qrup sovet müəllimləri. Tərcümə və təqdim: dr. Tofiq Səlum. 1989.
57 – Təşkilul-Aql əl-Hədis. Krin Brinton. Tərcümə: Şövqi Cəlal. Küveyt. 1990.
58 – Hikmətul-Ğarb. Bertrand Russell. (Orijinalı ingiliscədir). ərəbcəyə tərcümə: Fuad Zəkəriyya. 2009.
59 – Fəlsəfənin Hekayəsi. Vill Durant. ərəbcəyə tərcümə: Fəthullah Muhəmməd əl-Muşəaşə. 1972.
60 – Avropa Düşüncə Macərası. Jacqueline Rose.
61 – XVIII-ci əsrdə Avropa düşüncəsi – Montesquieu`dan Lessinqə kimi.
62 – Nitşe. Əbdür-Rəhman Bədəvi. 5-ci nəşr. 1975.
63 – Müasir Avropa düşüncəsinin tarixi. Ronald Stromberq. Tərcümə: Şeybani. 3-cü nəşr. Qahirə. 1994.
64 – Nurların ruhu. Tzvetan Todorov. ərəbcəyə tərcümə: Hafiz Fuvey`a. 1-ci nəşr. Tunis. 2007.
65 – Misirdə müasir İslami düşüncə cərəyanları. Dr. Həmd əl-Camal. "Aləmul-Kutub" nəşr evi. "ər-Riyad". 1-ci nəşr. 1414-cü hicri il.
66 – əl-Əaməl-əl-Kəmilə li-Rifaə ət-Tahtavi. Dirasə və təhqiq: Muhamməd İmara. 2/469; Müəssəsə əl-Arabiyyə lil-Dirasət vən-Nəşr. Beyrut. 1-ci nəşr. 1973.
67 – əl-Fikrul-Arabi fi Asrin-Nahdati. Albert Hourani. Kərim Azqulun tərcüməsi. "Nofəl" müəssisəsi. 2001.

68 – əl-Əaməl-əl-Kamilə li-Rifaə ət-Tahtavi. Muhəmməd İməra. 1-ci nəşr. əl-Müəssəsə əl-Arabiyyə. 1973.
69 – əl-Fikrul-Arabi fi Asrin-Nahda. Albert Hourani. ərəbcəyə tərcümə: Kərim Azqul. 1939.
70 – Mənhəcul-Mədrəsə əl-Aqliyyə əl-Hədisə fit-Təfsir. Fəhd ər-Rumi. İkinci nəşr. ər-Riyad. 1983.
71 – Cəmaləddin Əfqaninin "Xatirat" əsəri, "əl-Əhliyyə" lin-Nəşri vət-Tövzii vət-Tibaa". İordaniya. 2003.
72 – Muğalətat əl-Quraniyyin. Əlaəddin əl-Bələvi. 1-ci nəşr. İstanbul. 2020.
73 – Mucəmul-Mustalahat əl-İlmiyyə vəl-Fənniyyə. Yusif əl-Xəyyat. Daru Lisənil-Arab. Beyrut.
74 – Movqıfu ibn Teymiyyə minəl-Əşəirah. Əbdür-Rəhman ibn Saleh əl-Mahmud. Məktəbətür-Rüşd. 1-ci nəşr. ər-Riyad. 1995.
75 – əl-Mənhəcus-Sələfi. Mufrih əl-Qövsi. ər-Riyad. 2-ci nəşr. 1424-cü hicri il..
76 – Şərhu əl-Aqidə əl-İsfahaniyyə. İbn Teymiyyə. Darul-Kutub əl-Hədisə. Qahirə. 1385-ci hicri il.
77 – Sahib Əsədovun sunna.az saytındakı "Allahın sifətləri məxluqatın sifətlərinə bənzəyirmi? adlı məqaləsi. Məqalənin keçidi: http://sunna.az/content?cid=1778
78 – əl-İsləm va Təhəddiətul-Asr. Dr. Həsən.
79 – Şərhu Kövbəbül-Münir. İbn ən-Nəccar. Təhqiq: Muhəmməd əz-Zuheyli və Nəzih Həmməd. "Ubeykan" nəşr evi. 2-ci nəşr. ər-Riyad. 1418-ci hicri il.
80 – Şərhud-Tədmuriyyə. Muhəmməd Saleh əl-Useymin.
81 – Rovdatun-Nazir va Cənnətül-Mənazir. İbn Qudamə. "Kutubil-İlmiyyə" nəşr evi. Beyrut.
82 – Ədvaul-Bəyan. Muhəmməd Əmin əş-Şinqiti. Darul-Fikr. 1995.
83 – Muzəkkiratu Usulul-Fiqh Alə Rovdatin-Nazir. Muhəmməd Əmin əş-Şinqiti. "əl-Ulum vəl-Hikəm" nəşr

evi. Mədinə. 2001.
84 – əl-Heydətu vəl-İtizar fir-Raddi alə mən qalə bi-Xalqil-Quran. Əbdüləziz Kinəni. Təhqiq və qeydlər: Əli Nasir əl-Fəqihi (Allah ona rəhmət etsin). "Ulum vəl-Hikəm" nəşr evi. Mədinə şəhəri.
85 – Seydul Xatir. İbnul-Cövzi. "əl-Kitəb əl-Arabi" nəşr evi. 1985.
86 – Məalim Usulul-Fiqh ində Əhlis-Sünnə vəl-Camaat. Muhəmməd ibn Huseyn əl-Cizəni. İbnül-Cövzi nəşr evi. 5-ci nəşr. 1427-ci hicri il.
87 – əl-Aqləniyyun – Əfraxul-Mu`təzilə əl-Asriyyun. Əli ibn Həsən əl-Əsəri. "Ğarbəul-Əsəriyyə" nəşr evi. Mədinə.
88 – Hədis İnkarçılarının Məşhur Şübhələrinə Cavablar. Sahib Əsədov. Mədinə. 2022.
89 – ər-Risələ əl-Arşiyyə. Əbül-Abbas Əhməd ibn Əbdül-Həlim İbn Teymiyyə əl-Hərrani. "Sələfiyyə" mətbəəsi. 1-ci nəşr. Qahirə. 1399-cu hicri il.
90 – Kitəbur-Ruh. Muhəmməd ibn Əbi Bəkr ibn Eyyub İbn Qeyyim əl-Cövziyyə. Darul-Kutub əl-İlmiyyə. Beyrut.
91 – Fəthul-Qadir. Muhəmməd ibn Əli əş-Şövkani. "İbn Kəsir" və "əl-Kəlimut-Tayyib" nəşriyyatları. 1-ci nəşr. Dəməşq, Beyrut. 1414-cü hicri il.
92 – Haşiyətu ibn Abidin. Muhəmməd Əmin ibn Abidin. 2-ci nəşr. Misir. 1966.
93 – Haşiyətid-Dəsuqi aləş-Şərh əl-Kəbir. Muhəmməd ibn Əhməd ibn Arafa əd-Dəsuqi. Darul-Fikr. Beyrut nəşri.
94 – Tuhfətul-Muhtəc. İbnil-Muləqqin Siracəddin Əbu Hafs Ömər ibn Əli ibn Əhməd əş-Şafi. Təhqiq: Abdullah ibn Sə`af əl-Lihyəni. 1-ci nəşr. "Hira" nəşr evi. Məkkə. 1406-cı hicri il.
95 – Şərhus-Sağir – Əqrabul-Məsəlik li-Məzhəbil-iməm Məlik. Əbül-Abbas Əhməd ibn Muhəmməd əs-Savi.
96 – Nihəyətul-Muhtəc ilə Şərhil-Minhəc. Şəmsuddin

Muhəmməd ibn Əbül-Abbas Əhməd ibn Həmzə Şihabüddin ər-Ramli. Darul-Fikr. Beyrut. 1984.
97 – əl-Ənvar fi Şəməilin-Nəbiyyil-Muxtar. Əbu Muhəmməd əl-Hüseyn ibn Məsud ibn Muhəmməd ibnil-Fira əl-Bəğavi. Təhqiq: İbrahim əl-Yaqubi. 1-ci nəşr. Darul-Məktəbi. Dəməşq. 1995.
98 – "Silsilətul-Hudə vən-Nur" kasetləri. İmam Albani.
99 – Məraqi əl-Va`y – Fusul Ta`siliyyə va Tənbihət Alə Məzəliq əl-Fikriyyə. Şeyx prof. Dr. Saleh Sindi. "Yəqin" mərkəzi. 1-ci nəşr. Mədinə. 1445-ci hicri il.
100 - Movsuatul-Aqidəti vəl-Ədyən val-Firaq val-Məzəhib əl-Muasırah. Bir qism İslam universitetlərində araşdırmaçı və tədqiqatçı alimlərin cəm etdiyi böyük ensiklopediya. Elmi rəhbər: Dr. Suud ibn Salman ibn Muhəmməd Ali Suud. Birinci nəşr. Ər-Riyad. 2018.

# **Kitabın içindəkilər**:

Ön Söz....................................................................3
Ağılın lüğəvi və istilahi mənası........................................6
Ağılın İslamdakı yeri........................................................8
Əqli dəlilgətirməyə münasibətdə üç fərqli mövqe...........12
Əqli dəlilgətirmənin metodiki əsasları............................13
Əql ilə nəql arasındakı əlaqə..........................................19
Bəzi insanalara görə şəriət dəlillərində ziddiyyət görünməsinin səbəbləri..................................................20
Əqlani mədrəsəsinin tarixinə baxış................................26
Mötəzilə firqəsinə müasir camaatlar arasında ən çox bənzəyən camaat hansıdır?.............................................30
Mötəzilə əqlani cərəyanının birbaşa və dolayısı yolla etdiyi təsirlərin nəticəsini bəzi insanlarda bu əlamətlərlə bilmək olar...........................................................32
Fəxrəddin ər-Razinin özündən icad etdiyi "Qanun əl-Kulli" məsələsi..............................................................34
Fəlsəfəçilərin əqli nəqldən önə çəkməsi..........................36
Əqlin nəqldən önə çəkilməsində şərqşünasların rolu.......37
Qədim və müasir əqlani cərəyanlarının oxşar cəhətləri...39
Qərb dünyasında əqlani mədrəsəsinin tarixi....................44
Müasir əqlanilik mədrəsəsi.............................................51
Əqlanilərdən olan quranilərin ortaya çıxma səbəbləri və hədəfləri nələrdir?..........................................................58
Əhli Sünnəyə görə əqli dəlilgətirmə yolları.....................61
Kimin ağlı ilə hökm verək?............................................68
Bir şübhəyə cavab: "Hədislər ağıla ziddir, belə olduqda onları necə qəbul edə bilərik?".......................................74
Son Söz..........................................................................87
İstifadə olunmuş Ədəbiyyat............................................88
Kitabın İçindəkilər.........................................................96

Qeydlər..........................................................................98

# Qeydlər

........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................

# Qeydlər

# Qeydlər

**Qeyd:** Hörmətli oxucular, şəkk yoxdur ki, əlinizdəki kitab insan əməyinin bəhrəsidir. Ona görə də kitabda səhvlərin olması qaçınılmazdır. Xahiş edirik ki, kitab haqqında olan mülahizə, rəy və təkliflərinizi bu elektron ünvana göndərəsiniz.

Sahibfarmanoglu@gmail.com

**Kitabın adı:** Əqlanilik – İslamı təhrifə aparan yol

**Kitabın təsnifatı**: Əqidə - dini təyinatlı

**Redaktorlar**: Rəşad Əsəd, Nail Paşayev,
Əziz Qulammirzəyev, Əli Nadiroğlu,
Ülkər Qurbanova

**Redaktə tarixi:** 21.09.2024

**Kitabın səhifələrinin sayı:** 102

**Kağız ölçüsü:** A4 29.7 sm * 21 sm

**Müəllif:** Sahib Əsədov Fərman oğlu.

*Hörmətli oxucular! Sizə təqdim edilən bu kitab ağlın İslamdakı yeri, məqamı, ağıl və nəql arasındakı əlaqə, ağıl barədə ifrat yanaşmalar, saxta xülyalar, xurafatlar haqqında məlumat verir, öz ağlını şəriətdən önə çəkən əqlanilər haqqında maarifləndirir və bu fikir cərəyanının təhlükələrini bəyan edir. Kitabın həcmi çox böyük olmadığı üçün ümid edirik ki, oxucularımız bu kitabı oxuyub əldə etdikləri bilgilər ilə digər insanları da maarifləndirəcəklər! Əslində bu mövzu istər dünyada, istərsə də ölkəmizdə geniş yayılmış bir fikir problemini ehtiva edir. Demək olar ki, dini başa düşmə və dini sorğulama zamanı yaranan əql və nəql problemləri kitabda mümkün qədər geniş bir şəkildə bəhs edilmişdir. Bu cür mövzularda danışmaq, tələsmək məqsədəuyğun bir hal deyil. Ağıl və nəql (şəriət dəlilləri) məsələsində əhli sünnə necə davranır? Bu mövzularda hansı şərtlərə və qaydalara riayət edilməlidir? Əqlaniliyin qərbdəki və İslam dünyasındakı tarixi, təbliğatçıları və bəzi şübhələri haqqında hansı bilgiləri öyrənməkdə fayda var? Kitabın əsas mövzuları demək olar ki, bu qeyd olunanlardır!*

*Sahib Əsədov*

İSLAMIN MÜDAFİƏSİ